Altıncı çağırış

# AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİ İCLASLARININ

# PROTOKOLLARI VƏ STENOQRAMLARI

Növbədənkənar
on altıncı sessiya

75-ci cild

21 iyun 2024-cü il

Milli Məclisin nəşri
Bakı – 2024

Milli Məclis Aparatının
Redaksiya və nəşr işləri şöbəsində
hazırlanmışdır

# ALTINCI ÇAĞIRIŞ
# AZƏRBAYCAN RESPUBLİKASI
# MİLLİ MƏCLİSİNİN
# NÖVBƏDƏNKƏNAR
# XVI SESSİYASI İCLASININ

# PROTOKOLU № 173

*Milli Məclisin iclas salonu.*
*21 iyun 2024-cü il.*

*İclasa Azərbaycan Respublikası Milli Məclisinin sədri* ***Sahibə Qafarova*** *sədrlik etmişdir.*

**İclasda Milli Məclisin 106 deputatı iştirak etmişdir.**

| | |
|---|---|
| **Qeydiyyat** | (saat 11.02 dəq.) |
| İştirak edir | 103 |
| Yetərsay | 83 |

**İclasın gündəliyinə aşağıdakı məsələlər daxil idi:**

1. Azərbaycan Respublikası Milli Məclisinə növbədənkənar seçkilərin təyin edilməsi haqqında Azərbaycan Respublikasının Prezidentinə müraciət edilməsi barədə.

2. "Azərbaycan Respublikası Hökuməti ilə İordaniya Haşimilər Krallığı Hökuməti arasında müdafiə sahəsində əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi.

3. "Gədəbəy, Qoşa, Xarxar, Qaradağ, Ordubad qrupu (Piyazbaşı, Ağyurd, Şəkərdərə, Kələki), Qızılbulaq, Dəmirli və Vejnəli qızıl, mis və polimetal perspektiv filiz

yataqlarının kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə R.V.Investment Group Services, LLC ABŞ arasında bağlanılmış Sazişdə Dəyişiklik" sənədinin qəbul və təsdiq edilməsi, həyata keçirilməsinə icazə verilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi.

4. Azərbaycan Respublikasının 1997-ci il 3 oktyabr tarixli 377-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Hərbi xidmətkeçmə haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi.

5. Azərbaycan Respublikasının Seçki Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi.

6. "Məşğulluq haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

7. Azərbaycan Respublikasının Ailə Məcəlləsində, "Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi haqqında", "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" və "Fərdi məlumatlar haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

8. Azərbaycan Respublikasının Torpaq Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

9. Azərbaycan Respublikasının Əmək Məcəlləsində, Azərbaycan Respublikasının Vergi Məcəlləsində, Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində, "Təhqiqat, ibtidai istintaq, prokurorluq və məhkəmə orqanlarının qanunsuz hərəkətləri nəticəsində fiziki şəxslərə

vurulmuş ziyanın ödənilməsi haqqında", "Məcburi köçkünlərin və onlara bərabər tutulan şəxslərin sosial müdafiəsi haqqında", "Gömrük orqanlarında xidmət haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə", "Dövlət qulluğu haqqında", "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamənin təsdiq edilməsi barədə", "Dövlət sosial sığorta sistemində fərdi uçot haqqında", "İşsizlikdən sığorta haqqında" və "Məşğulluq haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

10. "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununda və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

11. "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

12. Azərbaycan Respublikasının Ailə Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət Məcəlləsində və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

13. "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

**Aşağıdakı məsələlər müzakirə edilmişdir:**

**Gündəlik haqqında.**

**Çıxış etmişdir:** Sahibə Qafarova

**Təklif:** Gündəlik qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.02 dəq.) |
|---|---|
| Lehinə | 103 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 104 |

Nəticə: Qəbul edildi

**1. Azərbaycan Respublikası Milli Məclisinə növbədənkənar seçkilərin təyin edilməsi haqqında Azərbaycan Respublikasının Prezidentinə müraciət edilməsi barədə.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Hikmət Məmmədov, Əli Hüseynli, Eldar İbrahimov, Soltan Məmmədov, Fazil Mustafa, Zahid Oruc, Tahir Mirkişili, Fatma Yıldırım, Musa Quliyev, Əhliman Əmiraslanov, Jalə Əliyeva, Fəzail İbrahimli, Tahir Rzayev

**Təklif:** Qərar qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.09 dəq.) |
|---|---|
| Lehinə | 105 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 106 |

Nəticə: Qəbul edildi

**2. "Azərbaycan Respublikası Hökuməti ilə İordaniya Haşimilər Krallığı Hökuməti arasında müdafiə sahəsində əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Ziyafət Əsgərov, Səməd Seyidov, Fəzail Ağamalı

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.23 dəq.) |
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 101 |

Nəticə: Qəbul edildi

**3. "Gədəbəy, Qoşa, Xarxar, Qaradağ, Ordubad qrupu (Piyazbaşı, Ağyurd, Şəkərdərə, Kələki), Qızılbulaq, Dəmirli və Vejnəli qızıl, mis və polimetal perspektiv filiz yataqlarının kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə R.V.Investment Group Services, LLC ABŞ arasında bağlanılmış Sazişdə Dəyişiklik" sənədinin qəbul və təsdiq edilməsi, həyata keçirilməsinə icazə verilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Sadiq Qurbanov, Səməd Seyidov

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.29 dəq.) |
| Lehinə | 96 |

| | |
|---|---|
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 97 |

Nəticə: Qəbul edildi

**4. Azərbaycan Respublikasının 1997-ci il 3 oktyabr tarixli 377-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Hərbi xidmətkeçmə haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Ziyafət Əsgərov

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.31 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 98 |

Nəticə: Qəbul edildi

**5. Azərbaycan Respublikasının Seçki Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Əli Hüseynli

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.32 dəq.) |
|---|---|
| Lehinə | 98 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 98 |
| Nəticə: Qəbul edildi | |

**6. "Məşğulluq haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Vüqar Bayramov, Bəhruz Məhərrəmov

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.35 dəq.) |
| Lehinə | 92 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 93 |
| Nəticə: Qəbul edildi | |

**Təklif:** 1-ci və 2-ci maddələr qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.37 dəq.) |
| Lehinə | 91 |
| Əleyhinə | 2 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 93 |
| Nəticə: Qəbul edildi | |

**Təklif:** 3-cü və 4-cü maddələr qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.37 dəq.) |
| Lehinə | 93 |
| Əleyhinə | 1 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 95 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.37 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 95 |

Nəticə: Qəbul edildi

**7. Azərbaycan Respublikasının Ailə Məcəlləsində, "Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi haqqında", "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" və "Fərdi məlumatlar haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Zahid Oruc, Tahir Mirkişili, Nurlan Həsənov, Hicran Hüseynova, Etibar Əliyev

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.49 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 94 |

Nəticə: Qəbul edildi

**8. Azərbaycan Respublikasının Torpaq Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Tahir Rzayev

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.52 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 93 |

Nəticə: Qəbul edildi

**9. Azərbaycan Respublikasının Əmək Məcəlləsində, Azərbaycan Respublikasının Vergi Məcəlləsində, Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində, "Təhqiqat, ibtidai istintaq, prokurorluq və məhkəmə orqanlarının qanunsuz hərəkətləri nəticəsində fiziki şəxslərə vurulmuş ziyanın ödənilməsi haqqında", "Məcburi köçkünlərin və onlara bərabər tutulan şəxslərin sosial müdafiəsi haqqında", "Gömrük orqanlarında xidmət haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə", "Dövlət qulluğu haqqında", "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamənin təsdiq edilməsi barədə", "Dövlət sosial sığorta sistemində fərdi uçot haqqında", "İşsizlikdən sığorta haqqında" və "Məşğulluq haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Musa Quliyev, Bəhruz Məhərrəmov, Tahir Mirkişili, Zahid Oruc

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.09 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |

Nəticə: Qəbul edildi

**10. "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununda və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Kamal Cəfərov

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.14 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 1 |
| Səs vermədi | 0 |
| İştirak edir | 96 |

Nəticə: Qəbul edildi

**11. "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Elşən Musayev

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.16 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |

Nəticə: Qəbul edildi

**12. Azərbaycan Respublikasının Ailə Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət Məcəlləsində və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Hicran Hüseynova, Əminə Ağazadə, Fazil Mustafa, Zahid Oruc, Tahir Kərimli, Vüqar İskəndərov, Əhliman Əmiraslanov, Fəzail Ağamalı, Ceyhun Məmmədov, Erkin Qədirli, Jalə Əhmədova

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 14.22 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 95 |

Nəticə: Qəbul edildi

**13. “Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Musa Quliyev, Tahir Rzayev, Elman Nəsirov, Əli Məsimli, Sahib Alıyev

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 14.41 dəq.) |
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |

Nəticə: Qəbul edildi

**Azərbaycan Respublikası**
**Milli Məclisinin sədri** **Sahibə Qafarova**

# *MİLLİ MƏCLİSİN İCLASI*

*21 iyun 2024-cü il. Saat 11.*

*Azərbaycan Respublikası Milli Məclisinin sədri* ***Sahibə Qafarova*** *sədrlik edir*

**Sədrlik edən.** Xoş gördük, hörmətli həmkarlar, hörmətli media nümayəndələri. Hörmətli deputatlar, xahiş edirəm, qeydiyyatdan keçək.

| **Qeydiyyat** | (saat 11.02 dəq.) |
|---|---|
| İştirak edir | 103 |
| Yetərsay | 83 |

Yetərsay var, iclasa başlaya bilərik.

Hörmətli həmkarlar, indi isə, xahiş edirəm, gündəliyə də münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.02 dəq.) |
|---|---|
| Lehinə | 103 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 104 |
| Nəticə: Qəbul edildi | |

Gündəlik qəbul edildi, çox sağ olun.

Hörmətli həmkarlar, bildiyiniz kimi, bizim gündəliyimizdə 13 məsələ var. Gündəliyin 1-ci məsələsi Azərbaycan Respublikası Milli Məclisinə növbədənkənar seçkilərin təyin edilməsi haqqında Azərbaycan Respublikasının Prezidentinə müraciət edilməsi ilə bağlıdır.

Hörmətli deputatlar, Azərbaycan Respublikasının Prezidenti möhtərəm cənab İlham Əliyevin həyata keçirdiyi daxili və xarici siyasət ölkəmizi müasir dövrün ən dinamik inkişaf edən və beynəlxalq aləmdə xüsusi çəkisi olan dövlətlərindən birinə çevirmişdir. Azərbaycan dövlətinin başçısına xas olan müstəsna liderlik qabiliyyəti və yenilməz siyasi iradə, eyni zamanda, ölkədə mövcud olan güclü milli həmrəylik cəmiyyət və dövlət həyatının bütün sahələrində böyük uğurlara yol açmışdır.

Xüsusən, qeyd edilməlidir ki, Azərbaycan dünya miqyaslı müxtəlif tədbirlərin keçirildiyi bir məkana çevrilmişdir. Paytaxt Bakı nüfuzlu beynəlxalq təşkilatların toplantılarına və digər tədbirlərə uğurla ev sahibliyi edir. Bu tədbirlərdən biri də, bildiyiniz kimi, BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası, yəni COP29-dur. Bu tədbir noyabr ayında Azərbaycanda keçiriləcək. Ölkələrin təmsilçiliyi baxımından bu mötəbər beynəlxalq tədbir üçün Azərbaycanın ev sahibi seçilməsi bizim dövlətimizə növbəti dəfə göstərilən böyük etimad və hörmətin ifadəsi olmuşdur.

Bununla birlikdə, hörmətli həmkarlar, Kioto Protokolunun Tərəflər Görüşünün 19-cu sessiyası və Paris Sazişinin Tərəflər Görüşünün 6-cı sessiyası da noyabr ayında Azərbaycanda keçiriləcək.

Bu tədbirlər ilə əlaqədar bütün dünyanın diqqəti Bakıya yönələcək və şəhər on minlərcə xarici qonağı qəbul

edəcək. Qlobal əhəmiyyətli bu toplantıların Bakıda keçirilməsi Azərbaycanın beynəlxalq nüfuzunun daha da artmasına və ölkə reallıqlarının dünya ictimaiyyətinə birbaşa çatdırılmasına imkan yaradacaq.

Hörmətli həmkarlar, bildiyiniz kimi, 2020-ci ilin fevral ayında Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilər keçirilmişdir.

Bildirmək istəyirəm ki, Azərbaycan Respublikasının Prezidenti möhtərəm cənab İlham Əliyevin altıncı çağırış Milli Məclisin ilk iclasında verdiyi tövsiyələrə uyğun olaraq, ötən dövrdə parlamentin qanunyaratma və qanunvericilik fəaliyyətinin təkmilləşdirilməsi, beynəlxalq əlaqələrinin genişləndirilməsi, qanunların icrasına nəzarət və təmsilçilik funksiyalarının müasir tələblər səviyyəsində qurulması yolunda lazımi addımlar atılmışdır. Milli Məclis möhtərəm cənab Prezidentin rəhbərliyi ilə həyata keçirilən quruculuq işlərinin və əsaslı islahatların hüquqi bazasının daha da möhkəmləndirilməsi və təkmilləşdirilməsi ilə bağlı öhdəsinə düşən vəzifələri layiqincə yerinə yetirməyə çalışmışdır.

Hörmətli deputatlar, Azərbaycan Respublikası Konstitusiyasının 84-cü maddəsinə görə, Milli Məclisin hər çağırışının səlahiyyət müddəti beş ildir. Eyni zamanda, Konstitusiyanın $98^1$-ci maddəsinin II hissəsinə əsasən növbədənkənar seçkilərdə seçilən Milli Məclisin çağırışının səlahiyyət müddəti beş ildən az ola bilər. Bu halda növbəti seçkilər Milli Məclisin çağırışının səlahiyyət müddətinin beşinci ilinin noyabr ayında keçirilməlidir.

Beləliklə, ölkəmizdə həm dünya səviyyəli tədbirlərin, həm də ictimai-siyasi həyatımızda böyük əhəmiyyət kəsb edən parlament seçkilərinin vaxtı noyabr ayına təsadüf edir. Qeyd etmək lazımdır ki, adını çəkdiyim beynəlxalq

tədbirlərin və parlament seçkilərinin yüksək səviyyədə təşkil edilməsi dövlətimiz üçün ən böyük əhəmiyyətə malik olan məsələlərdir.

Bununla birlikdə, hörmətli həmkarlar, COP29 Konfransının və digər tədbirlərin keçirildiyi dövrdə ölkə parlamentinin tam fəaliyyətdə olmasının, ərazi bütövlüyümüzün bərpasından sonra Milli Məclisin yeni tərkibdə təmsil edilməsinin məqsədəuyğun olması da, düşünürəm ki, hamıya aydındır. Milli Məclisin yeni çağırışının tam formalaşdırılması ölkəmiz üçün böyük əhəmiyyətli bu tədbirlər zamanı parlament diplomatiyasının verdiyi imkanlardan səmərəli istifadə edilməsinə, habelə normayaratma fəaliyyətinin fasiləsiz həyata keçirilməsinə şərait yaradacaqdır.

Digər tərəfdən, beynəlxalq tədbirlərə hazırlıq işlərinin görülməsi və həmin tədbirlərin keçirilməsi ilə əlaqədar ölkədə infrastruktur, nəqliyyat, habelə təhlükəsizlik və digər sahələrdə müəyyən məhdudiyyətlərin tətbiq olunması da qaçılmazdır. Bu baxımdan parlament seçkilərinin demokratik prinsiplərə uyğun şəkildə təşkil olunması, habelə vətəndaşların seçkiqabağı kütləvi tədbirlərdə və seçkilərdə maneəsiz iştirakının, səsvermədə öz iradəsini azad və sərbəst ifadə etməsinin təmin olunması da dövlətin əsas vəzifələrindən biridir.

Bütün bunları nəzərə alaraq, Milli Məclisdə çoxluq təşkil edən Yeni Azərbaycan Partiyasının üzvləri mənə müraciət etmişlər. Onlar Milli Məclisə növbədənkənar seçkilərin təyin edilməsi haqqında Azərbaycan Respublikasının Prezidentinə müraciət edilməsi məsələsinə baxılmasını xahiş etmişlər.

İndi isə hörmətli həmkarlar, Yeni Azərbaycan Partiyasının üzvü olan deputatların müraciətini səsləndirmək

üçün mən həmkarımız hörmətli Hikmət Məmmədova söz verirəm. Hikmət müəllim, buyurun.

**H.Məmmədov.** Çox sağ olun, hörmətli xanım sədr. "Hörmətli deputatlar, son illərdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə əldə edilmiş tarixi qələbələr, ictimai-siyasi həyatın, dövlət idarəçiliyinin bütün sahələrində uğurla və ardıcıl şəkildə həyata keçirilmiş çoxşaxəli və məqsədyönlü islahatlar nəticəsində ölkəmiz özünün keyfiyyətcə yeni inkişaf mərhələsinə qədəm qoymuşdur.

2020-ci ildə 44 gün davam edən Vətən müharibəsində qazanılmış şanlı Zəfər nəticəsində Ermənistanın 30 il davam edən işğalçılıq siyasətinə son qoyulmuş, ölkəmizin ərazi bütövlüyü bərpa edilmiş, beynəlxalq hüququn norma və prinsiplərinin aliliyi təmin olunmuşdur.

2023-cü ilin sentyabrında həyata keçirilmiş antiterror tədbirləri ilə qanunsuz silahlı birləşmələr zərərsizləşdirilmiş, kriminal xunta rejiminin fəaliyyətinə son qoyulmuş, dövlətimizin suverenliyi onun bütün ərazisində bərqərar edilmişdir.

Hazırda işğaldan azad olunmuş ərazilərdə genişmiqyaslı quruculuq işləri davam etdirilir. Doğma yurd-yuvasından didərgin salınaraq illərlə məcburi köçkün həyatı yaşamağa məhkum olmuş soydaşlarımız ləyaqətli şəkildə əzəli torpaqlarına qayıdırlar. 2024-cü ildə müstəqillik tariximizdə ilk dəfə bütün ölkə ərazisində keçirilmiş prezident seçkiləri milli birlik və həmrəyliyimizin növbəti təzahürü olmuşdur.

2024-cü ilin noyabr ayında Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası, Kioto Protokolunun Tərəflər Görüşünün 19-cu sessiyası və Paris Sazişinin Tərəflər Görüşünün 6-cı sessiyası kimi mötəbər beynəl-

xalq tədbirlərin Azərbaycanda keçirilməsi barədə qərar qəbul edilməsi ölkəmizin dünyada böyük nüfuzunun və beynəlxalq ictimaiyyətin ona olan yüksək etimadının göstəricisidir. Qlobal tədbirlərə ev sahibliyi sahəsində böyük təcrübəyə malik olan, 2024-cü ili “Yaşıl dünya naminə həmrəylik ili” elan edərək iqlim dəyişməsinə qarşı fəal mübarizə mövqeyi nümayiş etdirən Azərbaycan COP29-u da ən yüksək səviyyədə keçirəcək və yeni uğurlara imza atacaqdır. Bu tədbirlər on minlərcə xarici qonağa  Azərbaycanı yaxından tanımaq, ölkəmizin bütün dünyada ədalətli sülhə, bərabərliyə, haqqa və hüquqa əsaslanan münasibətləri təbliğ və təşviq edən mövqeyini çatdırmaq üçün əlverişli fürsət olacaqdır.

Qeyd olunan mötəbər beynəlxalq tədbirlərin keçiriləcəyi vaxtda – 2024-cü ilin noyabr ayında Azərbaycan Respublikası Konstitusiyasının 98-ci maddəsinin II hissəsinə əsasən Azərbaycan Respublikasının Milli Məclisinə növbəti seçkilər keçirilməlidir.  Həm seçkilərin, həm də qeyd olunan tədbirlərin yüksək səviyyədə təşkili mühüm əhəmiyyət kəsb edir.

Bundan əlavə, həmin dövrdə ölkə parlamentinin tam tərkibdə fəaliyyətdə olmasının məqsədəmüvafiqliyi də nəzərə alınmalıdır. VI çağırış Azərbaycan Respublikasının Milli Məclisi fəaliyyəti dövründə dövlətin daxili və xarici siyasətini qanunvericilik səviyyəsində dəstəkləməklə, dövlət idarəetməsinin təşkili və daha da təkmilləşdirilməsi fəaliyyətində yaxından iştirak etməklə, yerlərdə seçicilərlə müntəzəm iş aparmaqla, həmçinin parlament diplomatiyasının verdiyi imkanlardan səmərəli istifadə olunması sayəsində milli maraqları beynəlxalq məkanda təəssübkeşliklə təmsil etməklə üzərinə düşən vəzifələri layiqincə yerinə yetirməyə çalışmışdır.

Hesab edirik ki, indiki şəraitdə də Milli Məclis dövlətçilik nümunəsi göstərməli, Milli Məclisin buraxılması və seçkilərin daha erkən keçirilməsi təşəbbüsü ilə çıxış etməlidir. Bu baxımdan biz – VI çağırış Azərbaycan Respublikasının Milli Məclisində çoxluq təşkil edən Yeni Azərbaycan Partiyasından olan deputatlar VI çağırış Azərbaycan Respublikası Milli Məclisinin buraxılması və növbədənkənar seçkilərin təyin edilməsi üçün Azərbaycan Respublikasının Prezidentinə müraciət edilməsi məsələsinə baxılmasını xahiş edirik".

Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Hikmət müəllim. Hörmətli həmkarlar, mən indi Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri, Milli Məclis sədrinin birinci müavini hörmətli Əli Hüseynliyə söz vermək istəyirəm. Əli müəllim, mən Sizdən xahiş edirəm, hüquqi şərh verəsiniz. Buyurun.

**Ə.Hüseynli,** *Milli Məclis sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri.*

Çox sağ olun, hörmətli xanım sədr. Hörmətli deputat həmkarlar. Xanım sədr, Sizin də qeyd etdiyiniz kimi, köklü islahatlardan kənarda qalmayan Azərbaycan Respublikasının Milli Məclisinə hələ 2020-ci ilin fevral ayında növbədənkənar seçkilər keçirildi. Bu dövr ərzində parlament öz üzərinə düşən vəzifələrin həyata keçirilməsi ilə bağlı bütün tədbirləri görməyə çalışdı.

Konstitusiyamıza görə, bu ilin noyabr ayında parlament seçkilərinin keçirilməsi nəzərdə tutulurdu. Amma eyni zamanda, burada da qeyd olunduğu kimi, həmin dövrdə ölkəmizdə mühüm beynəlxalq əhəmiyyətli tədbirlərin, o cümlədən ən böyük beynəlxalq tədbirin – COP29-un keçirilməsi nəzərdə tutulur. Tədbirlərin ən yüksək səviyyədə keçirilməsinin və təşkil edilməsinin özü də Azər-

baycanın beynəlxalq müqavilələrdən, konvensiyalardan irəli gələn öhdəliklərindən biridir. Məhz bu öhdəliyin yerinə yetirilməsi ilə birlikdə, növbədənkənar parlament seçkilərinin həyata keçirilməsi zəruridir.

Həmçinin o da vurğulanmalıdır ki, həmin dövrdə qanunvericilik hakimiyyətində qanunvericiliklə bağlı fəaliyyətin tam fasiləsiz həyata keçirilməsi də zəruridir. Məhz buna görə də həmin dövrə qədər parlamentin tam formalaşması məsələsi gündəmə gəlir. Onu da xüsusi vurğulamalıyam ki, parlament seçkilərinin demokratik prinsiplərə uyğun olaraq şəffaf keçirilməsinin, vətəndaşların kütləvi tədbirlərdə və seçki prosesində maneəsiz iştirakının təmin edilməsinin özü də dövlətin vacib vəzifələrindən biridir. Həmin dövrdə isə bu vəzifəni tam həyata keçirmək, əlbəttə ki, mümkün olmazdı.

Hörmətli həmkarlar, heç şübhəsiz ki, növbədənkənar parlament seçkiləri bu ilin fevral ayında keçirilmiş növbədənkənar prezident seçkilərindən sonra öz suverenliyini və ərazi bütövlüyünü təmin etmiş Azərbaycanın bütün ərazilərində legitim şəkildə baş tutacaq ikinci mühüm seçki hadisəsidir. Məhz bu baxımdan da Hüquq siyasəti və dövlət quruculuğu komitəsi olaraq Konstitusiyamızın 98-ci maddəsinə əsasən Milli Məclisin buraxılması və növbədənkənar seçkilərin təyin edilməsi barədə Prezidentə müraciət edilməsi məsələsini məqsədəmüvafiq hesab edirik. Diqqətinizə görə çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Əli müəllim. Hörmətli həmkarlar, biz indi məsələnin müzakirəsinə keçirik. Xahiş edirəm, yazılın. Kim çıxış etmək istəyirsə, buyursun. Eldar İbrahimov. Eldar müəllim, buyurun.

**E.İbrahimov.** Çox sağ olun. Hörmətli xanım sədr, hörmətli deputat həmkarlarım. Bu gün təqdim olunmuş 1-ci

məsələ – Azərbaycan Respublikası Milli Məclisinə növbədənkənar seçkilərin təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinə müraciət edilməsi ilə bağlı mən demək istəyirəm ki, hörmətli sədrimiz, Əli müəllim və digər çıxış edən yoldaşlar geniş, ətraflı fikirlər bildirdilər. Hesab edirəm ki, Yeni Azərbaycan Partiyasından seçilən deputat həmkarlarım da bu məsələ ilə əlaqədar fikirlərini bildirib, təbii ki, bu məsələni dəstəkləyəcəklər.

Nəzərə alaq ki, ölkəmizdə noyabr ayında, qeyd edildiyi kimi, COP29, yəni Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası Bakıda Azərbaycanın sədrliyi ilə keçiriləcəkdir. Digər mötəbər tədbirlər və eləcə də ölkəmizdə növbəti bələdiyyə seçkiləri də həmin dövrə təsadüf edir. Bu beynəlxalq, qlobal tədbirin yüksək səviyyədə keçirilməsi, ölkəmizin ictimai həyatı üçün mühüm əhəmiyyət kəsb edən bələdiyyə seçkilərinə hazırlıq işlərinin yerinə yetirilməsi həmin dövrdə azad və demokratik parlament seçkilərini keçirməklə uzlaşmır.

Digər tərəfdən, COP29 kimi dünya miqyaslı tədbirin Bakıda keçirilməsi ölkəmizin bu qəbildən olan tədbirlərə ev sahibliyi sahəsində təcrübəyə malik olması ilə əlaqədardır. Ona görə biz hər birimiz çalışmalıyıq ki, bu qlobal tədbiri də yüksək səviyyədə keçirək. Bunun üçün artıq Bakıda və digər bölgələrdə geniş hazırlıq işlərinə başlanılmışdır.

Eyni zamanda, bildirmək istəyirəm ki, Yeni Azərbaycan Partiyasının müraciətində və hörmətli xanım sədr, Sizin çıxışınızda qeyd olunduğu kimi, bu tədbirlərdə on minlərcə qonaq, o cümlədən çox sayda dövlət başçıları, parlament rəhbərləri və nümayəndə heyətləri iştirak edəcəklər. Bu bizə informasiya müharibəsində də qalib

gəlmək üçün unikal bir şans verir. Çünki bizim imkanımız olacaq ki, ölkəmizin həqiqətlərini o insanlara çatdıra biləк.

Hesab edirəm ki, bütün bu deyilənlər onu göstərir ki, noyabr ayında azad və demokratik parlament seçkiləri keçirmək üçün əlverişli şərait yaratmaq imkanı çox məhduddur. Bu da ölkəmizin imicinə ziyan vura bilər. Ona görə mən Yeni Azərbaycan Partiyasını Milli Məclisdə təmsil edən deputatlarının parlament seçkilərinin vaxtından əvvəl keçirilməsi haqqında müraciətini dəstəkləyirəm və həmkarlarımı da bu təşəbbüsə qoşulmağa dəvət edirəm. Sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Eldar müəllim. Siz Yeni Azərbaycan Partiyasının ağsaqqallarından birisiniz. Bizim deputatların arasında da ağsaqqallardan birisiniz. Sizin fikriniz bizim üçün çox vacib idi.

Soltan Məmmədov. Buyurun.

**S.Məmmədov.** Təşəkkür edirəm, Sahibə xanım. Hörmətli xanım sədr, hörmətli həmkarlar və media nümayəndələri. Azərbaycan son illərdə öz tarixinin ən möhtəşəm dövrlərindən birini yaşayır. 2020-ci ildə Vətən müharibəsində əldə etdiyimiz zəfər və 2023-cü ildə həyata keçirilmiş antiterror tədbirlərinin nəticələri xalqımızın tarixində yeni bir səhifə açmışdır. Dövlətimizin artan gücü və beynəlxalq aləmdə yüksələn nüfuzu bizə olan etimadın daha da dərinləşməsinə səbəb olmuşdur.

Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının – COP29-un Azərbaycanda keçirilməsi barədə ötən ilin dekabrında qəbul edilmiş qərar Azərbaycana beynəlxalq ictimaiyyətin yüksək etimadının daha bir göstəricisi idi.

Respublikamız bu ilin noyabrında COP29-la yanaşı, Kioto Protokolunun Tərəflər Görüşünün 19-cu sessiyası

və Paris Sazişinin Tərəflər Görüşünün 6-cı sessiyası kimi mötəbər beynəlxalq tədbirlərə də ev sahibliyi edəcək.

Qlobal problemlərin müzakirə olunacağı bu mötəbər tədbirlərə hazırlıq kifayət qədər vaxt və enerji tələb edir. Təbii ki, bir çox yüksək səviyyəli beynəlxalq forumları, idman yarışlarını və digər tədbirləri ən yaxşı şəkildə təşkil etmək təcrübəsinə malik olan ölkəmizin bu dəfə də üzərinə götürdüyü missiyanı uğurla yerinə yetirəcəyi şübhəsizdir.

Bununla yanaşı, onu da nəzərə almalıyıq ki, belə qlobal əhəmiyyətli beynəlxalq tədbirlərlə eyni vaxtda seçki kampaniyasının təşkili kifayət qədər çətin prosesdir. Ona görə də hesab edirəm ki, Yeni Azərbaycan Partiyasını təmsil edən deputatların VI çağırış Milli Məclisin buraxılması və növbədənkənar seçkilərin təyin edilməsi barədə təşəbbüsü mövcud reallıqları nəzərə alan, ölkəmizin qarşısında duran vəzifələrin miqyasını düzgün qiymətləndirən yanaşmanın ifadəsidir.

Seçkilərin vaxtının irəli çəkilməsi COP29-un təşkili ilə bağlı bütün məsələlərin uğurla həll edilməsinə imkan verəcək, eyni zamanda, belə yüksək səviyyəli tədbir zamanı parlamentin tam gücü ilə fəaliyyət göstərməsinə şərait yaradacaq.

Bildiyiniz kimi, COP29 sessiyası çərçivəsində parlament konfransının təşkili nəzərdə tutulur. Bu barədə Milli Məclislə Parlamentlərarası İttifaq arasında Anlaşma memorandumu imzalanıb. Parlament iclası COP29-un ən mühüm tədbirlərindən biridir. Bu iclasa hazırlıq üçün Milli Məclisdə deputatlardan ibarət işçi qrupları yaradılmalıdır. Bundan başqa, parlament konfransının yekun sənədinin hazırlanması da uzun və çətin bir prosesdir. Ona görə də Azərbaycan Milli Məclisinin yeni tərkibinin COP29 sessiyasına qədər formalaşması çox mühüm

əhəmiyyət kəsb edir.

Azərbaycan Respublikası Konstitusiyasının $98^1$-ci maddəsinin II hissəsinə əsasən Milli Məclisə növbəti seçkilərin 2024-cü ilin noyabr ayında keçirilməsi nəzərdə tutulur. Parlament seçkiləri ölkənin ictimai-siyasi həyatının çox mühüm hadisələrindən biridir. Belə bir əhəmiyyətli məsələyə hazırlıq isə olduqca ciddi yanaşma, gərgin iş və zaman tələb edir. Bu baxımdan iki böyükmiqyaslı mühüm prosesin eyni vaxta təsadüf etməsi həm dövlət orqanlarının səmərəli fəaliyyətinə, həm də cəmiyyətin normal həyatına müəyyən təsir göstərə bilər. Düşünürəm ki, bütün bunları nəzərə alaraq, biz seçkilərin vaxtının dəyişilməsi barədə təşəbbüsü dəstəkləməliyik.

Milli Məclisin buraxılacağı və növbədənkənar seçkilərin keçiriləcəyi təqdirdə müstəqillik dövründə ilk dəfə olaraq Qarabağ və Zəngəzuru təmsil edən millət vəkilləri məhz bu ərazilərdə keçirilən səsvermə zamanı seçiləcəklər. Müstəqillik tariximizdə ilk dəfə bütün ölkə ərazisində 2024-cü ildə keçirilmiş prezident seçkilərindən sonra bu, Azərbaycan tarixinin daha bir mühüm siyasi hadisəsi olacaqdır.

Azərbaycan parlamentinin üzvləri hər zaman dövlətin maraqlarını üstün tutub. Ötən 5 il ərzində parlamentin fəaliyyəti, ölkəmizin milli maraqlarını qorumaq üçün millət vəkillərinin göstərdiyi yüksək fəallıq bunu təsdiq edir. Ona görə də hesab edirəm ki, dəyərli həmkarlarım Yeni Azərbaycan Partiyasını təmsil edən deputatların Milli Məclisin buraxılması və növbədənkənar seçkilərin təyin edilməsi barədə təşəbbüsünü dəstəkləyəcəklər. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Fazil Mustafa. Buyurun, Fazil müəllim.

**F.Mustafa**. Təşəkkür edirəm, hörmətli xanım sədr. Hörmətli millət vəkilləri, parlamentdə təmsil olunan müxalifət partiyasının təmsilçisi kimi hakim Yeni Azərbaycan Partiyasının bu təşəbbüsünü siyasi və hüquqi cəhətdən əsaslandırılmış bir təşəbbüs kimi qiymətləndirirəm və dəstəkləyirəm.

İlk növbədə bir amilə diqqət yetirmək istəyirəm. COP29 tədbiri Azərbaycanın beynəlxalq imici üçün vacib bir tədbirdir və bunun vaxtını da beynəlxalq təşkilatlarla birlikdə təyin olunan bir vaxt kimi qiymətləndirsək, onda görərik ki, Milli Məclisə seçkilərlə eyni vaxta düşməsi seçkilərin keçirilməsini imkansız edir. Ona görə bizdə iki variant var idi. Birinci, seçkiləri ya bir neçə ay əvvələ keçirmək, ya da seçkilərin vaxtını növbəti müddətə qədər uzatmaq. Konstitusiyamızın 84-cü maddəsində də bir istisna var. Ancaq müharibə şəraitində hərbi əməliyyatlar olardısa, onda seçkinin müddətini uzatmaq olardı. Bunu da referendumu və seçkiləri keçirən orqanın təşəbbüsü ilə Konstitusiya Məhkəməsi təyin eləyə bilərdi. Bizdə də, Allaha şükür, müharibə vəziyyəti artıq yoxdur, qalib gəlmişik və torpaqlarımızı azad eləmişik. Ona görə də hüquqi cəhətdən hər hansı bir şəkildə seçkiləri başqa vaxta ertələmək Konstitusiya pozuntusu olardı. Amma seçkiləri erkən tarixə təyin eləmək isə artıq Konstitusiyanın normalarına birmənalı şəkildə əməl etmək kimi qəbul olunmalıdır. Ona görə də bunu hansısa bir şəkildə kimlərsə spekulyasiya eləyəcəklərsə, əslində, hüquqi savadsızlıqlarını ortaya qoyacaqlar. Çünki bu, tamamilə əsaslandırılmış bir qərar kimi gündəmə gətiriləcəkdir.

Burada həm də sevindirici hal odur ki, VI çağırış Azərbaycan Respublikası Milli Məclisinin fəaliyyəti bizim 1995-ci ildən sonra hüquqi sabitliyi bərpa etdiyimiz, yəni

Konstitusiya qəbul olunduqdan sonrakı dövrdə ən fəal, ən gözəçarpan nailiyyətləri olan bir fəaliyyət kimi qiymətləndirilməlidir. Mən bir şeyi xatırlatmaq istəyirəm. VI çağırış Milli Məclis bir çox kataklizmlər yaşadı. Mən, sadəcə, üçünü xatırlatmaq istəyirəm.

Birinci, COVID-19 pandemiyası Milli Məclis işə başlayan gün başladı. İstər deputatların maska taxması, istərsə də onların bir çoxunun yerlərini dəyişərək yuxarı cərgələrdə əyləşməsi bir daha göz önünə gətirilsə, çətin şərtlərlə – yoxlamalarla, hansısa tibbi müayinələrlə bu prosesi aparmağımız Milli Məclisin bu işin öhdəsindən iki il ərzində uğurla gəldiyini göstərir.

İkinci, xatırlayırsınızsa, 2020-ci ilin Tovuz hadisələri baş verəndə başıpozuq dəstələr bəhanə eləyərək Milli Məclisə hücum etdilər və burada dağıntılar yaratdılar. Milli Məclis rəhbərliyinin dəyanətli duruşu nəticəsində bu təxribatın qarşısı alındı və onu törədənlər məsuliyyətə cəlb olundular.

Üçüncü isə, 2020-ci ildən başlayaraq 2023-cü ilə qədər, bir günlük antiterror əməliyyatı dövründə – Azərbaycan Prezidentinin rəşadətli davranışı, Azərbaycan Ordusunun qəhrəmanlığı nəticəsində torpaqlarımızın işğaldan azad edilməsi prosesinin birinci günündən sonuncu gününə qədər və bu günə qədər də o prosesdə ən fəal dövlət qurumlarından biri Milli Məclis oldu. İstər qanunvericilik fəaliyyəti ilə, istərsə də başqa vasitələrlə.

Xatırlayırsınızsa, Milli Məclisin qarşısına hər gün şəhid və qazi ailələri gəlirdi. Son vaxtlar o gəliş müşahidə olunmur. Niyə? Çünki onların hüquqlarını, istəklərini təmin eləyən bütün qanunvericilik aktlarını Milli Məclisdə qəbul etdik. Hətta bugünkü gündəliyimizdə də sonuncu məsələ kimi şəhid ailələrinə diqqət göstərən çox vacib bir

qanun layihəsini qəbul edəcəyik və bu o deməkdir ki, Milli Məclis siyasi cəhətdən öz funksiyasını ən yüksək səviyyədə yerinə yetiribdir.

İndiki halda da biz yeni seçkilərin keçirilməsinin müddətini irəli çəkməklə Azərbaycan dövlətinin maraqlarına xidmət edirik. Həm də COP29 təşkilat komitəsində çox sayda millət vəkillərimiz iştirak edir. Hələ bundan sonra da həmin prosesdə millət vəkilləri ayrı-ayrı iclaslarda, tədbirlərdə iştirak eləməlidirlər. İndi bir var, başları seçkiyə qarışmış halda olsun, bir də var, konkret olaraq bu prosesdə dövlətimizin maraqlarını daha fəal müdafiə edən səviyyədə iştirak etsinlər. O baxımdan da bu qərar siyasi və hüquqi cəhətdən kifayət qədər əsaslandırılmış qərardır. Biz də müxalifət partiyasının təmsilçisi olaraq bunu dəstəkləyəcəyik və hesab edirəm ki, uğurlu seçkilər keçirəcəyik.

Əgər xatırlayırsınızsa, fevral ayının 7-də ölkə Prezidenti cənab İlham Əliyev, Birinci vitse-prezidentimiz hörmətli Mehriban xanım ailə üzvləri ilə birlikdə Xankəndidə, Azərbaycanın suverenliyi bərpa olunmuş ərazidə səs verdilər. Bu seçkidə də Azərbaycan insanının ən böyük qürurverici hadisəsi o prosesin başqa formada təkrarı olacaq. Vətəndaşlar Milli Məclisə seçkilərdə öz namizədlərinə işğaldan azad olunmuş ərazilərdə səs verəcəklər. Ona görə də bu bizim çox böyük tarixi uğurumuzdur və o baxımdan da hamımız bu prosesdə fəal, dövlətimizə dəstəkverici rol oynamalıyıq. Bir daha diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Fazil müəllim. Hörmətli həmkarlar, mən xatırladım ki, müzakirələrin yekununda Milli Məclisin qərarı qəbul edilməlidir və ona görə də biz komissiya yaratmalıyıq. Təklif var ki, komissiyanın

tərkibinə indi adlarını çəkəcəyim deputatlar daxil olsunlar. Adil Əliyev komissiyanın sədri, Siyavuş Novruzov, Tahir Rzayev, Eldar Quliyev, Fəzail Ağamalı, Elşən Musayev, Nigar Arpadarai isə komissiyanın üzvləri. Başqa fikir yoxdur ki?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Çox sağ olun. Elə isə komissiya işə başlaya bilər. Mən komissiyanın üzvlərindən xahiş edirəm, qərarın mətnini hazırlasınlar. Adil müəllim, xahiş edirəm. Fərid müəllim, komissiyanın işinin rahat keçməsini təşkil edin. Siyavuş müəllim, Fəzail müəllim Ağamalı. Tahir müəllim getdi? Buyurun.

İndi isə biz çıxışlara davam edirik. Zahid Oruc. Zahid müəllim, buyurun.

**Z.Oruc.** Hörmətli sədr, 1990-cı ilin parlament seçkiləri də daxil olmaqla, son 34 ildə bütün çağırışlarda qanunvericilik hakimiyyəti, o cümlədən ali icra hakimiyyəti və yerli özünüidarə orqanları ölkəmizin 20 faizlik natamam ərazilərində formalaşıb və işğal faktı millətimizin siyasi haqlarını tam gerçəkləşdirməyə imkan verməyib. Xankəndi zəfərindən sonra xalqımız qələbənin əsas müəllifi İlham Əliyevə 44 günlük müharibədə göstərdiyi yüksək etimadı, əslində, qeyri-rəsmi referendumu 2024-cü il fevralın 7-də rəsmiləşdirdi. Xatırlayırsınız, o zaman erkən prezident seçkiləri əleyhinə çıxan azsaylı qrupların əsas arqumenti olan sülhməramlı qüvvələrin çıxmayacağına dair tezisi cəmi 2 ay sonra aprelin 17-də iflasa uğradı. Ölkəmiz geosiyasi təhlükələri qabaqladı, Qarabağdan və etnik separatizmdən əli çıxan qüvvələrin 2025-ci ilə hazırladıqları təxribat planlarını pozdu. Fərqlərinə baxmayaraq, Almaniyada 1990-cı ildə birləşmədən sonra bütün idarəçilik sistemi təzədən formalaşmışdı. Ona görə 2024-cü il

fevralın 7-də ali icra hakimiyyətindən sonra qalib dövlət başçısının tam siyasi, hüquqi və mənəvi haqqı var idi ki, seçkilər təyin eləsin və bütün hakimiyyət orqanlarını yeniləsin. Hətta qlobal COP29 tədbiri olmasaydı belə, sonuncu dəfə keçirilən prezident seçkilərinin səhəri günü qalib liderin ölkənin idarəçilik sistemini qələbəyə uyğunlaşdırmağa ixtiyarı vardı. Konstitusiyanın 98-ci maddəsinin birinci bəndi Prezidentə belə bir səlahiyyəti verdiyi üçün hakim partiyanın müraciətini hər birimiz müdafiə eləyirik.

Son bir əsrdə ilk dəfədir ki, 2024-cü ildə 78 ölkədə 84 milli seçki keçiriləcək. Onların bir çoxu hazırkı xaosdan özünü qorumağa hesablanıb. 1990-cı illərin Azərbaycan parlamenti dövlət çevrilişlərinin əsas binası, siyasi minalı məkan idi. İndi Ukraynada seçkilərin taleyi nə vaxt qurtaracağı bilinməyən müharibədən asılı qalıb. Xalqın səsini silah səsləri, bülletenləri çağırış vərəqələri əvəzləyir. Fransada hakim partiya avroseçkiləri uduzduğu üçün növbədənkənarlığa əl atıb. Britaniyada da oxşar vəziyyətdir. Lakin ölkəmizdə nəinki hər hansı siyasi fövqəladəlik və böhran yoxdur, əksinə, əksər ictimai-siyasi qüvvələrin, ideologiyaları bir-birindən fərqli partiyaların yeni parlament seçkilərinin keçirilməsinə dair ortaq mövqeyi var. VI çağırış Milli Məclis üzərinə düşən dövləti və milli vəzifələri uğurla, ləyaqət və fədakarlıqla yerinə yetirdi. 8 noyabr zəfərimizi əbədiləşdirən qərar layihələri, Vətən müharibəsi qəhrəmanlarının yüksək orden və medallarla təltifinə dair Prezident təşəbbüsləri, Böyük Qayıdışa dair hüquqi aktlar məhz bu parlamentin aktivinə yazıldı.

Pandemiya ilə eyni vaxtda fəaliyyətə başlayan hazırkı qanunvericilik hakimiyyəti bu gün dünyada ölkəmiz əleyhinə siyasi epidemiyaya çevrilən qüvvələrə qarşı si-

yasi sipərə çevrildi. Ona görə də yeni legitim qanunvericilik orqanının formalaşması ilk növbədə xalqımızın yüksək gözləntilərini doğruldacaq, dövlət rəhbərinin andiçmə mərasimində məhz bu salonda "bizə qarşı hücumlar güclənəcəkdir" çağırışına cavab olacaqdır.

Biz elə etməliyik ki, dövlətimizin siyasi uğurları seçkilərdə layiqli təqdim olunsun. Müxtəlif mənafe qrupları, nüfuzdan düşmüş çirkli qüvvələr Prezidentin yüksək adını və etimadını seçki platformasına çevirib məkrli niyyətləri üçün istismar eləməsinlər. 92 faizlə birinciliyini dünyaya nümayiş etdirən liderin siyasi komanda üzvlərinin də nüfuzlu və xalq arasında qəbullanan olacağına inanırıq.

Ulu Öndər Heydər Əliyev 1994-cü ildə məhz bu salonda "mövqeyinizi göstərin" tarixi müraciətini etmişdi. Üstündən 30 il keçməsinə baxmayaraq, həmin çağırış yenə aktualdır. Yüksək xarici təhsil, müasir kommunikasiya və "Big Data"larla işləmək bacarığı ilə yanaşı, Prezidentə yönələn xarici və daxili hücumlara sinə gərmək ən böyük Oksford siyasi etalonudur.

Tarixi təcrübə göstərir ki, silahlı savaşlarda qalib gələn millətin gözləntiləri maksimuma çatır. Proqramlarının əsas müddəaları 44 gündə tam yerinə yetirilən bütün partiyalar və namizədlər tarixdə ilk dəfədir ki, ermənilərin könüllü tərk etdiyi Qarabağda müharibəsiz, qaçqınsız dinc quruculuqda və seçkilərdə iştirak eləyəcəklər.

Yeni parlamentin ictimai-siyasi palitranı özündə dolğun əks etdirməklə yanaşı, ən başlıcası, xalqın alternativ ideya və düşüncələrini təmsil edəcəyinə, Qarabağdan sonra yeni milli ideologiyanın formalaşdırılmasına töhfə verəcəyinə inanırıq.

Hazırda dünyada yalnız hərbi, siyasi, iqtisadi deyil, həm də idarəçilik böhranı var. Ləyaqətli kadrlar, insan

amili bütün formasiyalarda idarəçiliyin bir nömrəli məsələsidir. Ona görə də yeni seçkilərdə əsas şüarlar "Qələbəni möhkəmləndir!" və "Ən böyük sərvət insandır!" devizləridir. Qurulacaq yeni parlamentdə hərbi meydanlarda həyatını qurban verən gənclərin elm, diplomatiya, beynəlxalq siyasət və digər səngərlərdə nəsil, əqidə yoldaşlarının daha çox təmsil olunacağına inanırıq. Müharibədə qalib gələn millət seçkilərdə də qələbə qazanacaqdır! Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. Növbəti çıxış. Tahir Mirkişili. Tahir müəllim, buyurun.

**T.Mirkişili**. Çox sağ olun, hörmətli xanım sədr. Hörmətli həmkarlar, Yeni Azərbaycan Partiyasını təmsil edən deputatların müraciəti bir az öncə burada hörmətli həmkarım Hikmət müəllim tərəfindən oxundu. Seçkilərin erkən keçirilməsi ilə bağlı səbəblər də bu müraciətdə açıq göstərilmişdir. Amma öncə mən qeyd etmək istəyərdim ki, VI çağırış Milli Məclis, yəni bizim təmsil olunduğumuz bu çağırış 2020-ci ildə dövlət başçısı möhtərəm cənab İlham Əliyevin siyasi islahatlarının dərinləşdiyi demokratik ab-havada və xalqın iradəsinin azad ifadə edildiyi bir şəraitdə formalaşmışdı. VI çağırışda qarşımızda çox mühüm hədəflər vardı. Məhz dövlət başçısının bu salonda, xanım sədr, Siz də qeyd etdiyiniz kimi, çıxışı zamanı verdiyi tövsiyələr keçən dövr ərzində Milli Məclisin bütün deputatlarının bir yol xəritəsinə çevrilmişdi. Mən əminəm və hesab edirəm ki, bu tövsiyələrə əməl etmək üçün Milli Məclisin hər bir deputatı əlindən gələni etməyə çalışdı və çox böyük səy göstərdi.

VI çağırış Milli Məclis ilk dəfə olaraq çoxpartiyalı idarəetmə sistemində formalaşdı. İlk dəfə Milli Məclisin rəhbərliyində və bütün komitələrdə Milli Məclisdə təmsil

olunan bütün siyasi partiyaların nümayəndələri partiyamızın sədri cənab İlham Əliyevin tövsiyəsi ilə təmsil olunmağa başladı. Əsas məqsəd siyasi dialoq mühitinin daha da inkişaf etdirilməsi, partiyalarla bağlı dialoqun konstruktiv, eyni zamanda, məsləhət əsasında formalaşması, Milli Məclis qarşısında duran qanunvericilik aktlarının qəbulu ilə bağlı keyfiyyətin yüksəldilməsi oldu. Keçən təcrübə də göstərdi ki, məhz dövlət başçısının tövsiyəsi ilə həyata keçirilən bu yeni idarəetmə forması Milli Məclisin qarşısında tamamilə yeni bir səhifənin açılmasına səbəb oldu. Keçən dövr ərzində, həqiqətən də, qanunvericilik aktlarında keyfiyyətin artırılmasına nail olmağa çalışdıq. Milli Məclis deputatları öz dairələrində kifayət qədər fəal olmağa çalışdılar. Beynəlxalq diplomatiyada Milli Məclis indiyə qədər görünməmiş siyasi bir fəallıq nümayiş etdirdi. VI çağırış Milli Məclis Azərbaycan parlamenti tarixində yeni bir səhifənin açılması ilə çox mühüm bir iz qoydu.

Eyni zamanda, qeyd etmək istəyərdim ki, keçən dörd ildən artıq dövr ərzində biz yeni bir Azərbaycanın formalaşmasının da şahidi olduq. 2020-ci ildən sonra, bax, bu sinəmizdə daşıdığımız Azərbaycan bayrağının müzəffər Ali Baş Komandan cənab İlham Əliyev tərəfindən Xankəndidə, Xocalıda, Şuşada dalğalanmasının şahidi olduq. Mən hesab edirəm ki, Milli Məclisin VI çağırışı Azərbaycan parlamenti tarixində ən qürurlu və xoşbəxt çağırışlardan biridir ki, biz bu hadisələrin həm şahidi olduq, həm də iştirakçısı. Keçən dövr ərzində cənab Prezidentin və Birinci vitse-prezident hörmətli Mehriban xanım Əliyevanın Xocalıda, Laçında, Şuşada doğma yurdlarına qayıdan sakinlərlə görüşü bizim hər birimizin, düşünürəm ki, yaşamımızda və tariximizdə ən qürurlu və

şanlı hadisələrdən biridir.

Eyni zamanda, Milli Məclis, bildiyiniz kimi, hazırda üç böyük beynəlxalq təşkilata sədrlik edir. Keçən dövr ərzində Ulu Öndər Heydər Əliyevin qeyd etdiyi kimi, Azərbaycan dünyaya bir günəş kimi parladı, nüfuzu daha da artdı. Biz torpaqlarımızı işğaldan tam azad etdik. Bayaq burada da qeyd olundu. Azərbaycan separatçılığa son qoydu. Bütün bunların hamısı 2020–2024-cü illər ərzində baş verdi və cənab Prezidentin də qeyd etdiyi kimi, biz 2024-cü ildə yeni bir dövrə qədəm qoyduq.

2024-cü il Azərbaycanda əhalinin seçkilərdə indiyə qədər görmədiyi və göstərmədiyi seçki coşqunluğu ilə başladı və Azərbaycan əhalisi çox böyük fədakarlıqla öz qəhrəmanını yenidən ölkə Prezidenti seçdi. Biz 2024-cü ili zatən yeni bir seçki ili kimi başladıq. Qeyd edim ki, bu il dünyada indiyə qədər tarixdə görülməyən ən çox seçkilərin keçirildiyi bir ildir. Hazırda dünyanın təxminən 70 faiz ölkəsində seçkilər keçirilir. Xüsusən də yay ərzində, iyun və iyul aylarında. Belə bir dövrdə Milli Məclisin VI çağırışının fəaliyyəti də, bayaq qeyd olunduğu kimi, Konstitusiyaya görə noyabr ayında başa çatmaqdadır. Bildiyimiz kimi, ölkəmizdə noyabrda çox böyük bir tədbir keçiriləcək.

Ümumiyyətlə, mən qeyd edim ki, COP29 kimi bir tədbirin keçirilməsinə dövlətlər adətən illər öncə hazırlaşır. Azərbaycan indi çox qısa bir müddət ərzində, təxminən 10 aya yaxın bir müddətdə buna hazırlaşmağa çalışır. Bizim təcrübəmiz var, resurslarımız böyükdür. Amma bir ölkəyə 200-ə yaxın dövlət başçısının səfəri, on minlərcə xarici vətəndaşın gəlməsi, onların təhlükəsizliyinin təmin olunması hər bir dövlət üçün çox böyük bir çağırışdır, böyük bir riskdir. Bütün bunları həyata keçir-

mək üçün dövlətin çox mühüm resursları səfərbər olunub.

Eyni zamanda, xatırladım ki, noyabr ayı Azərbaycanda dövlət büdcəsinin də parlamentə daxil olduğu aydır. Bildiyiniz kimi, Milli Məclisin ən mühüm fəaliyyət istiqamətlərindən biri də dövlət büdcəsi ilə bağlıdır. Təbii ki, belə bir şəraitdə noyabrda həm tədbir keçirmək, həm də Milli Məclisin yeni çağırışını formalaşdırmaq vəzifələrini yerinə yetirmək Yeni Azərbaycan Partiyasını təmsil edən deputatlar olaraq, hesab edirik ki, Azərbaycan üçün müəyyən çətinliklər yarada bilər. Belə bir şəraitdə Konstitusiyanın Milli Məclis qarşısında qoyduğu tələbləri, səlahiyyətləri yerinə yetirmək, hesab edirik ki, noyabr ayında Milli Məclisdə müəyyən çətinliklər yarada bilər. Bu səlahiyyətlərin yerinə yetirilməsini daha uyğun bir formada həyata keçirmək üçün, biz düşünürük ki, seçkilərin erkən keçirilməsi dövlət və milli maraqlar baxımından kifayət qədər önəmlidir.

Yeni Azərbaycan Partiyası, bildiyiniz kimi, hər zaman dövlətin və xalqın mənafeyini hər şeydən üstün tutur. Bizim partiyamızın sədrinin rəhbərliyi ilə Azərbaycan hökuməti bunu daim sübut edir. Ona görə də hesab edirəm ki, bu dəfə də parlament seçkilərinin erkən keçirilməsi Azərbaycanın dövlət və milli maraqlarını daha yaxşı təmsil etməsi, Milli Məclisin daha yaxşı və daha fəal fəaliyyət göstərməsi baxımından kifayət qədər vacib bir qərar ola bilər. Ona görə mən bütün həmkarlarımı partiyamızı təmsil edən deputatların bu təşəbbüsünü dəstəkləməyə çağırıram və əgər seçkilər təyin edilərsə, hər kəsə yeni seçkilərdə uğurlar arzulayıram.

Eyni zamanda, qeyd etmək istəyərdim ki, son zamanlar bizim apardığımız təhlillər göstərir ki, cəmiyyət özü də bu seçkilərə hazırdır. Xüsusən siyasi partiyaların rəqabət

mühitinin formalaşması istiqamətində keçən dövr ərzində xeyli iş görülüb. Hesab edirik ki, seçkilərin önə çəkilməsi, Azərbaycanda ədalətli, tam demokratik seçkilərin keçirilməsi üçün mühüm bir mühit formalaşmaqdadır və bu imkan mövcuddur. Hər hansı bir maneə görmürük. Buna görə də həmkarlarımı qərar layihəsini dəstəkləməyə çağırıram. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Tahir müəllim. Fatma Yıldırım. Buyurun, Fatma xanım.

**F.Yıldırım.** Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. Azərbaycan xalqı olaraq son illər tarixi zəfərlər, tarixi anlar yaşayırıq. Ərazi bütövlüyümüzün və suverenliyimizin tam təmin edilməsi ölkəmizdə yeni dövrün əsasını qoydu. Şanlı zəfərimiz xalqımızın müasir tarixində müstəsna rol oynayır. Bu amil ölkəmizin siyasi sistemində də özünü ifadə edir.

Möhtərəm Prezidentimiz cənab İlham Əliyev zəfərdən sonra yeni dövrün başlandığını vurğulayaraq fevralın 7-də prezident seçkilərinin təyin olunmasını bu amillə əlaqələndirmişdi. Fevralda keçirilən prezident seçkiləri, həqiqətən də, yeni dövrün başlanğıcı oldu. Çünki prezident seçkiləri müstəqillik tariximizdə ilk dəfə olaraq bütün ölkə ərazisini əhatə etdi. Artıq yeni reallıqlar mövcuddur. Bunu nəzərə alaraq deyə bilərik ki, prezident seçkilərindən sonra Azərbaycanda yeni dövrün tələbinə uyğun parlamentin formalaşdırılmasının da zamanı gəlib çatıb. Yeni reallıqlar ölkəmizdə növbəti parlament seçkilərinin keçirilməsini də şərtləndirir. Bu seçkilər bütün ölkə ərazisini əhatə etməklə əlamətdar olacaq. Yəni Milli Məclisə növbədənkənar seçkilər zamanı Qarabağ və Şərqi Zəngəzuru təmsil edən millət vəkilləri müstəqillik dövründə ilk dəfə olaraq məhz bu ərazilərdə keçirilən

seçkilər nəticəsində mandat alacaqlar.

Hörmətli həmkarlar, bildiyiniz kimi, Azərbaycanda parlament seçkiləri 2024-cü ilin noyabrında keçirilməli idi. Amma həmin ay Azərbaycanda dünyanın ən mötəbər tədbiri sayılan COP29-un keçirilməsi də nəzərdə tutulub. Bu, dövlətimizin növbəti uğuru kimi qiymətləndirilir. Bu tədbirlə əlaqədar ölkəmizə on minlərcə əcnəbi qonaq səfər edəcək. COP29-un miqyasını nəzərə alaraq bu mötəbər konfransa ciddi hazırlaşmaq lazımdır.

COP29-un Təşkilat Komitəsinin üzvü olaraq deyə bilərəm ki, hazırda aidiyyəti dövlət qurumları, bütövlükdə cəmiyyətimiz COP29-un keçirilməsi üçün səfərbər olunub. Belə bir şəraitdə növbədənkənar parlament seçkilərinin keçirilməsi zəruridir və məqsədəuyğundur. Yeni Azərbaycan Partiyasının İdarə Heyəti bu məqamı nəzərə alaraq qərar qəbul edib ki, partiyanı təmsil edən deputatlar altıncı çağırış Milli Məclisin buraxılması və növbədənkənar seçkilərin təyin edilməsi barədə Azərbaycan Prezidentinə müraciət olunması üçün təşəbbüs göstərsinlər.

Əlbəttə, YAP İdarə Heyətinin bu tövsiyə xarakterli qərarı tam məntiqlidir. Çünki COP29 kimi mötəbər tədbirə paralel olaraq seçki kampaniyasının həyata keçirilməsi olduqca mürəkkəb proses olardı.

Bildiyiniz kimi, seçki kampaniyası dövründə bütün cəmiyyət seçkilərə köklənir və ona görə də parlament seçkilərinin vaxtından əvvəl keçirilməsi seçki kampaniyasının yüksək səviyyədə təşkil olunmasına imkan yaradacaq. Eyni zamanda, seçkilərin vaxtından əvvəl keçirilməsi COP29-un mükəmməl bir formada təşkil olunması baxımından da çox əhəmiyyətlidir. İnanıram ki, möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz bu mötəbər beynəlxalq tədbirə yüksək səviyyədə ev

sahibliyi edəcək. Azərbaycan öz təcrübəsi ilə növbəti COP-lar üçün nümunəvi rol oynayacaq.

Bütün bunları nəzərə alaraq mən də siyasi həmfikirlərimin çağırışına qoşuluram və növbədənkənar seçkilərin təyin edilməsi ilə bağlı cənab Prezidentə müraciət edilməsini dəstəkləyirəm. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Musa Quliyev. Musa müəllim, buyurun.

**M.Quliyev.** Çox sağ olun. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. Yeni Azərbaycan Partiyası müasir Azərbaycan dövlətinin qurulmasında, qorunmasında, möhkəmlənməsində və inkişafında tarixi rolu olan ümumxalq partiyasıdır. Partiyamız keçdiyi şərəfli mübarizə yolu ilə haqlı olaraq qürur duyur və ölkəmizin qarşısında dayanan taleyüklü məsələlərin həllində öz tarixi məsuliyyətini dərindən dərk edir. Məhz milli maraqlarımızın qorunması nöqteyi-nəzərindən çıxış edərək Yeni Azərbaycan Partiyasının İdarə Heyəti parlament seçkilərinin irəli çəkilməsi təklifini irəli sürmüşdür.

YAP İdarə Heyətinin iclasında da qeyd olunmuşdur ki, VI çağırış Milli Məclisin fəaliyyəti dövründə xalqımız böyük tarixi nailiyyətlər əldə etmişdir. Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə milli ordumuz torpaqlarımızı işğaldan azad etmiş, ərazi bütövlüyümüz və suverenliyimiz tam bərpa olunmuşdur.

Onu da qeyd etmək istəyirəm ki, VI çağırış Milli Məclisin fəaliyyətə başlaması koronavirus pandemiyası ilə eyni vaxta təsadüf etdiyindən parlament çətin şərtlər daxilində, bəzən ekstremal vəziyyətdə işləməli olmuşdur. COVID-19, 44 günlük Vətən müharibəsi və postmüharibə dövrünün çətinliklərinə baxmayaraq, inamla söyləmək olar ki, parlament cənab Prezidentin tövsiyələrini rəhbər

tutaraq qarşıya qoyulan bütün vəzifələri şərəflə yerinə yetirmiş, milli qanunvericiliyimizin inkişafına öz layiqli töhfəsini vermişdir.

Xüsusi ilə qeyd etmək istəyirəm ki, hörmətli xanım sədr, məhz Sizin səyləriniz nəticəsində parlament diplomatiyası xarici siyasətimizin mühüm bir istiqaməti kimi təşəkkül tapmış, parlamentlərarası əlaqələr yeni bir müstəviyə yüksəlmiş, Milli Məclis bir çox beynəlxalq tədbirlərə ləyaqətlə ev sahibliyi etmişdir.

Hörmətli həmkarlar, VII çağırış Milli Məclisə seçkilər müstəqil Azərbaycanın ərazi bütövlüyü çərçivəsində keçirilən ilk parlament seçkiləri kimi zəfər tariximizə əlavə olunacaq, Qarabağda və Zəngəzurda seçicilər öz millət vəkillərinə səs verəcəklər.

Yeni Azərbaycan Partiyası real siyasət aparan və dövlətçilik maraqlarından çıxış edən bir siyasi qüvvə olaraq parlament seçkilərinin vaxtının qabağa çəkilməsini təklif edərkən həm Milli Məclisə qarşıdan gələn seçkilərin önəmini, həm də ölkəmizin ev sahibliyi edəcəyi böyük-miqyaslı beynəlxalq tədbir olan BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının və digər mötəbər beynəlxalq tədbirlərin əhəmiyyətini düzgün qiymətləndirmişdir.

Hər iki tədbirin eyni vaxtda – 2024-cü ilin noyabr ayında keçirilməsinin böyük təşkilati və texniki çətinliklər yarada biləcəyini nəzərə alan partiyamızın seçkilərin qabağa çəkilməsi ilə bağlı təşəbbüsü Konstitusiya normalarına uyğundur və doğru addımdır.

İnanıram ki, Yeni Azərbaycan Partiyasının bu qərarı ölkə ictimaiyyəti tərəfindən də bəyəniləcək və dəstəklənəcəkdir.

Qeyd olunanları nəzərə alaraq Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin parlament seçkilərinin vaxtının

dəyişdirilməsi təşəbbüsü ilə bağlı siyasi və hüquqi baxımdan əsaslı olan qərarını dəstəkləməyi və bu barədə cənab Prezident İlham Əliyevə müraciət olunması haqqında qərar qəbul edilməsini məqsədəuyğun sayıram və bütün millət vəkili həmkarlarımdan Yeni Azərbaycan Partiyasından olan deputatların müraciətini dəstəkləməyi xahiş edirəm. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Musa müəllim. Əhliman Əmiraslanov. Əhliman müəllim, buyurun.

**Ə.Əmiraslanov.** Çox hörmətli Sahibə xanım, hörmətli həmkarlar, media nümayəndələri. Vətən müharibəsində əldə edilən möhtəşəm Zəfər ölkəmizin dövlətçilik və müstəqillik tarixinin ən şərəfli səhifələrindən biridir. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsi Zəfərlə başa çatmış, ölkəmizin ərazi bütövlüyü tam təmin olunmuşdur. Azərbaycan 30 il ərzində işğal altında olan torpaqlarını geri qaytararaq tarixi ədaləti bərpa etmişdir. Xalqımızın nümayiş etdirdiyi həmrəylik ölkəmizi hərb meydanında qazanılan qələbə ilə yanaşı, həm siyasi, həm də informasiya cəbhəsində qalib etmişdir. Bu gün ölkə Prezidentinin bilavasitə rəhbərliyi ilə bu torpaqlarda möhtəşəm bərpa və quruculuq işləri həyata keçirilir. Qazanılan hərbi-siyasi nailiyyətlər ölkəmizdə aparılan uğurlu islahatların dərinləşməsi prosesinə mühüm təkan vermişdir. Məlum olduğu kimi, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən ölkəmizdə həyata keçirilən mühüm islahatlar ölkə və cəmiyyət həyatının bütün sahələrini əhatə etməklə respublikamızın qarşısında yeni inkişaf perspektivləri açmışdır. Bu islahatlar dövlət idarəetmə sistemini, icra və qanunvericilik hakimiyyətlərini və digər sahələri əhatə

edir. Möhtərəm Prezidentimizin rəhbərliyi ilə müasirləşməyə, yeniləşməyə, ölkəmizin daha da inkişafına xidmət edən bu siyasi kurs ardıcıldır və gələcək dövrlərdə də uğurla reallaşdırılacaqdır.

Azərbaycan tarixinin bu şərəfli mərhələsində VI çağırış Azərbaycan Respublikasının Milli Məclisi daim ölkə Prezidentinin yanında olmuş, onun uğurlu daxili və xarici siyasətinin həyata keçirilməsində var gücü ilə çalışmışdır. Milli Məclisdə ölkəmizin bütün sahələrində inkişafı təmin edə biləcək, ən müasir tələblərə cavab verən çoxsaylı qanunlar qəbul edilmişdir. Xüsusi olaraq qeyd etmək istərdim ki, Milli Məclisin hazırladığı model qanunlar beynəlxalq miqyasda qəbul edilmişdir. VI çağırış Milli Məclisin beynəlxalq sahədə də fəaliyyəti uğurlu olmuşdur. Azərbaycan parlamenti bir çox nüfuzlu beynəlxalq tədbirlərə ev sahibliyi etmişdir. Milli Məclisin sədri hörmətli Sahibə xanım Qafarova başda olmaqla parlament heyətləri çoxsaylı uğurlu xarici səfərlərdə olmuş, ölkəmizi bir çox mötəbər beynəlxalq tədbirlərdə layiqincə təmsil etmişdir.

Hörmətli həmkarlar, bütövlükdə hesab edirəm ki, VI çağırış Milli Məclisin fəaliyyəti son dərəcə uğurlu olmuşdur. Mən də hesab edirəm ki, təmsil olunduğum Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin qərarı və Milli Məclisə növbədənkənar seçkilərin keçirilməsi ilə əlaqədar Yeni Azərbaycan Partiyasının VI çağırış Milli Məclisdə təmsil olunan deputatlarının parlament sədrinə müraciəti mövcud şəraitə uyğundur. Çünki konstitusion əsaslarla Milli Məclisə növbəti seçkilərin keçiriləcəyi tarixdə, yəni 2024-cü ilin noyabr ayında ölkəmizdə Birləşmiş Millətlər Təşkilatının COP29 sessiyası və digər mötəbər beynəlxalq tədbirlər keçiriləcəkdir. Belə bir

dövrdə ölkə parlamentinin tam fəaliyyətdə olması çox vacibdir. Bu baxımdan növbədənkənar parlament seçkilərinin keçirilməsi və bu barədə ölkə Prezidentinə müraciət olunması təşəbbüsü məqsədəmüvafiqdir. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Əhliman müəllim. Növbəti çıxış. Jalə Əliyeva. Jalə xanım, buyurun.

**J.Əliyeva**. Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli həmkarlar, media mənsubları. İlk növbədə Yeni Azərbaycan Partiyasından seçilən deputat həmkarlarımızın Azərbaycan Respublikası Milli Məclisinə növbədənkənar seçkilərin təyin edilməsi haqqında Milli Məclis rəhbərinə etdiyi müraciətə mən də müstəqil deputatların bir təmsilçisi kimi birmənalı olaraq qatıldığımı və müraciəti alqışladığımı bildirirəm.

Ölkəmiz çox əhəmiyyətli qlobal tədbirə ev sahibliyi edəcək. Növbəti seçkinin həmin tədbir ilə eyni tarixə təsadüf etməsi, əlbəttə, özlüyündə bu tədbirin təşkilati işlərinə çətinlik yarada bilər. Bizim üçün ölkəmizin, dövlətimizin maraqları hər şeydən vacibdir və çox əhəmiyyətli bir amildir. Eyni zamanda, uzun illərdən sonra, 30 illik fasilədən sonra torpaqlarının bütövlüyünü təmin etmiş, suverenliyini bərpa etmiş ölkəmizin bütün ərazilərində, işğaldan azad etdiyimiz əzəli Azərbaycan torpaqlarında seçki keçiriləcəkdir. Şanlı qələbəmizdən sonra bu torpaqlarda keçirəcəyimiz ikinci seçkidir. Bu ilin fevral ayında prezident seçkiləri zamanı biz bu qüruru yaşadıq. İndi isə növbə parlament seçkilərinindir.

Biz, sadəcə, torpaqlarımızı qaytarmamışıq. Bu torpaqlara yeni nəfəs, yeni səs, yeni ab-hava gətirmişik. Vətəndaşlarımız öz ata-baba yurdlarına qayıdıblar. Həmin vətəndaşlarımızın 30 ildən sonra xilaskar Prezident,

müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin sayəsində bərpa edilən bütün insan hüquqlarının içərisində onların seçmək və seçilmək hüququnun da bərpa edilməsi, əlbəttə, ikiqat sevindiricidir və ikiqat qürurvericidir. Ona görə də bu müraciətin həm ölkəmizdə keçiriləcək beynəlxalq tədbirin hazırlıq işlərinə dəstək addımı kimi, həm də seçkilərin bütün suveren ərazimizə şamil olunacağı baxımından əhəmiyyətini bir daha vurğulayaraq bütün müstəqil deputat həmkarlarımı bu müraciəti dəstəkləməyə və səs verməyə dəvət edirəm. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Məndən Fəzail müəllim söz istədi. Buyurun, Fəzail İbrahimli.

**F.İbrahimli**. Təşəkkür edirəm, hörmətli sədr. Hörmətli millət vəkilləri, mətbuat nümayəndələri. Yeni Azərbaycan Partiyasından olan deputatların müraciətinə qoşuluram və bəzi məqamları sizinlə bölüşmək istərdim.

Zaman bu parlamenti ilk formalaşdığı gündən böyük imtahana çəkdi. Parlament formalaşdı, ertəsi gün pandemiya elan edildi. Hər bir Azərbaycan insanının, o cümlədən də millət vəkilinin fiziki mövcudluğu sual altında idi. Amma bütün bu problemlərə, çətinliklərə uğurla sinə gərən parlament öz işini çox rəvan davam etdirdi.

İkinci, müharibə dövründə Azərbaycan parlamenti bir struktur olaraq dövlət başçısının arxasında möhkəm dayandı. Azərbaycan parlamentariləri təkcə deputat kimi deyil, millətin bir üzvü kimi səfərbər olaraq Prezidenti müdafiə etdilər və ən böyük uğurumuz o oldu ki, zəfər sevgisini yaşamaq məhz bu parlamentə nəsib oldu.

Parlamentin fəaliyyəti ilə bağlı saatlarla danışmaq olar və burada hər bir iştirak edənin uğurları sədrin rəhbərliyi altında əldə etdiyi uğurlardır. Dünyanın ən mötəbər təd-

birlərinə parlamentin sədri rəhbərlik etmiş, parlament dünyanın ən mötəbər tədbirlərinə ev sahibliyi etmişdir.

Mənə elə gəlir, hər biriniz mənimlə razılaşarsınız ki, parlamentin işində ən vacib prinsip demokratiya prinsipi olmuşdur. Burada bir deputat deyə bilməz ki, mən istədiyimi deyə bilmədim, danışa bilmədim. Bunlar hamısı parlamentin uğurları idi. Onda bəs belə bir uğura sahib olan, belə bir iş qüdrətinə malik olan parlament üzvlərindən, Yeni Azərbaycan Partiyasından müraciət qəbul olunur ki, fəaliyyətimizi dayandıraq. Taleyüklü bütün məsələlərdə həmişə çevik addımlar atan parlament bu gün də həmin çevik addımı atır.

Məsələ çox sadə və aydındır. Bunu çox geniş, bir neçə tabeli mürəkkəb cümlə ilə də izah etmək olar. Amma mən sadə formada deyəcəyəm. İki böyük mötəbər tədbir üst-üstə düşür. Tədbirlərin zaman toqquşması baş verir. Biri bizim istək və arzumuzdan asılı olmayaraq COP29, digəri isə Azərbaycan qanunvericiliyində manevr etmək imkanına malik olduğumuz seçki sistemi. Biz bunlardan birini reallaşdırmalıydıq. İmkanımızın, gücümüzün və qanunlarımızın rəvac verdiyi kimi, məhz bu seçkini iki ay qabağa çəkirik.

Bilirsiniz, burada COP29 ilə bağlı mən bir-iki dəqiqə vaxtınızı alım. Zahirən baxanda elə görünür ki, Azərbaycan artıq beynəlxalq təşkilatlara, tədbirlərə rəhbərlik etmək nöqteyi-nəzərindən dünyada tanınır. Amma COP29 indiyə qədər olan tədbirlərdən tamamilə fərqlidir. Nədir o fərq? Qələbədən sonra dünyanın bütün mürtəce qüvvələri Azərbaycana qarşı səfərbər olunub – Azərbaycanın geosiyasi vəziyyəti, dünya dövlətlərinin Azərbaycana marağı, bu maraqlar altındakı məkrli niyyətlər, bu niyyətləri icra etmək üçün müxtəlif manevrlər. COP29

sanki bunların qarşısında bir sipər formasında tədbir kimi görünür. Şimaldan, Cənubdan, Şərqdən, Qərbdən iti caynaqlar uzanır Azərbaycana və mənhus baxışlar – Azərbaycanı dünyaya qeyri-demokratik bir ölkə kimi qələmə vermək istəyənlər, qələbədən sonra sancısı yatmayan böyük Fransa kimi dövlətlər. Amma COP29, dünyanın beynəlxalq təşkilatının burada keçirdiyi tədbirlər bütün bu deyilənləri alt-üst edir. Azərbaycanın demokratik imicinə böyük kömək edir.

Bax, belə bir tədbirə ev sahibliyi etmək, əlbəttə, şərəf işidir. Bunlar bizim ala gözümüzə aşiq olub bu tədbiri keçirmirlər. Bunun da səbəbləri var. Bu tədbirlər yalnız siyasi sabitliyi olan ölkələrdə keçirilir. Azərbaycan bu cəhətdən nümunədir. Çünki o tədbirin təhlükəsizlik sisteminin qorunması sabitliklə bağlı olan məsələdir. Bu, qüdrətli dövlətlərdə, dünya səviyyəsində nüfuzu olan dövlətlərdə keçirilir.

Bütün bunların hamısını yekunlaşdırsaq, belə bir fikir söyləyə bilərik. Yeni Azərbaycan Partiyasından olan deputatların təşəbbüsü zamanın tələblərinə tamamilə uyğundur. Bizim tərəfimizdən də dəstəklənir. Hesab edirəm ki, hər bir millət vəkilinin bu məsələdə bir müsbət mövqeyi var və olacaq. Təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Fəzail müəllim.

Hörmətli həmkarlar, görürsünüz ki, artıq komissiya öz işini bitirdi və hörmətli Adil müəllim indi mənə məlumat verdi ki, qərar hazırdır və qərarın mətnini də Tahir müəllim Rzayev oxuyacaq. Mən indi təklif edirəm ki, Tahir müəllim qərarın mətnini bizə səsləndirsin. Buyurun.

**T.Rzayev**. "Azərbaycan Respublikası Milli Məclisinə növbədənkənar seçkilərin təyin edilməsi haqqında Azərbaycan Respublikasının Prezidentinə müraciət edilməsi

barədə Azərbaycan Respublikası Milli Məclisinin Qərarı.

Son illər Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə əldə edilmiş tarixi qələbələr, ictimai-siyasi həyatın, dövlət idarəçiliyinin bütün sahələrində uğurla və ardıcıl şəkildə həyata keçirilmiş çoxşaxəli və məqsədyönlü islahatlar nəticəsində ölkəmiz özünün keyfiyyətcə yeni inkişaf mərhələsinə qədəm qoymuşdur.

Azərbaycan Respublikasında həyata keçirilən köklü islahatlardan kənarda qalmayan Azərbaycan Respublikası Milli Məclisinə 2020-ci ilin fevral ayında növbədənkənar seçkilər keçirilmişdir. Bu müddət ərzində Milli Məclis dövlətin daxili və xarici siyasətinin həyata keçirilməsində, dövlət idarəetməsinin daha da təkmilləşdirilməsində yaxından iştirak etməklə, yerlərdə seçicilərlə müntəzəm iş aparmaqla, həmçinin qanunvericilik fəaliyyətini həyata keçirməklə üzərinə düşən vəzifələri layiqincə yerinə yetirməyə çalışmışdır.

Azərbaycan Respublikası Konstitusiyasının 84-cü maddəsinə əsasən Azərbaycan Respublikası Milli Məclisinin hər çağırışının səlahiyyət müddəti beş ildir. Eyni zamanda, Azərbaycan Respublikası Konstitusiyasının $98^1$-ci maddəsinin II hissəsinə əsasən növbədənkənar seçkilərdə seçilən Azərbaycan Respublikası Milli Məclisinin çağırışının səlahiyyət müddəti beş ildən az ola bilər. Bu halda növbəti seçkilər növbədənkənar seçkilərdə seçilən Azərbaycan Respublikası Milli Məclisinin çağırışının səlahiyyət müddətinin beşinci ilinin noyabr ayında keçirilməlidir.

2024-cü ilin noyabr ayında bir çox ölkələrdən nümayəndə heyətlərinin iştirakı ilə ən mötəbər beynəlxalq tədbirlərdən biri olan Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər

Konfransının 29-cu sessiyası (COP29), Kioto Protokolunun Tərəflər Görüşünün 19-cu sessiyası və Paris Sazişinin Tərəflər Görüşünün 6-cı sessiyası Azərbaycanda keçiriləcəkdir. Dünya ictimaiyyəti tərəfindən yekdilliklə ölkəmizə etimad göstərilməsi Azərbaycana layiq olduğu böyük etibar, ehtiram və dəstəyin növbəti ifadəsi olmuşdur və bu tədbirlərin ən yüksək səviyyədə təşkilinin öhdəsindən gəlinməsi böyük məsuliyyət tələb etməklə dövlətimiz üçün nüfuz məsələsinə çevrilmişdir və Azərbaycan Respublikasının beynəlxalq müqavilələrdən irəli gələn öhdəliyidir.

Bu baxımdan Azərbaycan Respublikasının Milli Məclisində çoxluq təşkil edən Yeni Azərbaycan Partiyasının üzvləri Milli Məclisin sədrinə müraciət edərək həm parlament seçkilərinin, həm də adıçəkilən tədbirlərin yüksək səviyyədə təşkilinin böyük əhəmiyyət kəsb etdiyini və həmin dövrdə ölkə parlamentinin tam fəaliyyətdə olmasının məqsədəuyğunluğunu nəzərə alaraq növbədənkənar seçkilərin keçirilməsinin zəruri olduğunu bildirmişlər. Yeni Azərbaycan Partiyasının üzvü olan deputatların müraciəti digər siyasi partiyaları təmsil edən deputatların, habelə heç bir siyasi partiyaya mənsub olmayan deputatların əksəriyyəti tərəfindən dəstəklənmiş və növbədənkənar seçkilər keçirilməsinin zəruriliyi bəyan edilmişdir.

COP29 zamanı Azərbaycan Respublikası Milli Məclisinin ərazi bütövlüyümüzün bərpasından sonra yeni tərkibdə təmsil olunması, parlament diplomatiyasının verdiyi imkanlardan səmərəli istifadə edilməsi, habelə ölkəmiz üçün bu əhəmiyyətli tədbir zamanı normayaratma fəaliyyətinin fasiləsiz həyata keçirilməsi üçün həmin vaxta qədər Azərbaycan Respublikası Milli Məclisinin yeni çağırışının tam formalaşdırılması zəruridir.

COP29-a hazırlıq işlərinin görülməsi və həmin tədbirin keçirilməsi ilə əlaqədar ölkədə infrastruktur, nəqliyyat, habelə təhlükəsizlik və digər sahələrdə müəyyən məhdudiyyətlərin tətbiq olunması qaçılmazdır. Bu baxımdan Azərbaycan Respublikasının ictimai-siyasi həyatında böyük əhəmiyyət kəsb edən parlament seçkilərinin demokratik prinsiplərə uyğun olaraq şəffaflığı və rəqabətliliyi təmin etməklə yüksək səviyyədə təşkil olunması, habelə vətəndaşların seçkiqabağı kütləvi tədbirlərdə və seçkilərdə maneəsiz iştirakının, səsvermədə öz iradəsini azad və sərbəst ifadə etməsinin təmin olunması dövlətin əsas vəzifələrindən biridir.

Qeyd edilənlər və deputatların mütləq əksəriyyətinin növbədənkənar parlament seçkilərinin keçirilməsi ilə bağlı mövqeyi nəzərə alınmaqla, parlament seçkilərinin seçki qanunvericiliyinə uyğun keçirilməsi və Azərbaycan Respublikası Milli Məclisinin Azərbaycan Respublikası Konstitusiyasının 94-cü və 95-ci maddələrində nəzərdə tutulmuş vəzifələrini tam icra edə bilməsi üçün növbədənkənar parlament seçkilərinin keçirilməsi zəruridir.

Yuxarıda şərh edilənlərə əsasən Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin II hissəsini rəhbər tutaraq qərara alır:

Azərbaycan Respublikası Konstitusiyasının $98^1$-ci maddəsinə əsasən Azərbaycan Respublikası Milli Məclisinin buraxılması və növbədənkənar seçkilərin təyin edilməsi barədə Azərbaycan Respublikasının Prezidentinə müraciət edilsin”.

Diqqətinizə görə çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Tahir müəllim. Hörmətli həmkarlar, qərarın mətnini biz dinlədik, ayrı fikir yox-

dursa, mən qərarı səsə qoyacağam. Necə bilirsiniz, nə fikriniz var?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Səsə qoymaq təklifi eşidirəm. Onda xahiş edirəm, münasibət bildirəsiniz. Mən qərarı səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.09 dəq.) |
|---|---|
| Lehinə | 105 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 106 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, Milli Məclisin Qərarı qəbul edildi.

Hörmətli həmkarlar, biz işimizə davam edirik. Qeyd edim ki, gündəliyin növbəti iki məsələsi beynəlxalq sənədlərin təsdiqi ilə bağlıdır və müvafiq Konstitusiya Qanununun tələbinə əsasən bir oxunuşda baxılıb qəbul ediləcək. Beləliklə, gündəliyin 2-ci məsələsi "Azərbaycan Respublikası Hökuməti ilə İordaniya Haşimilər Krallığı Hökuməti arasında müdafiə sahəsində əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə qanun layihəsidir. Layihəyə Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün mən komitənin sədri hörmətli Ziyafət Əsgərova söz verirəm. Ziyafət müəllim, buyurun, məlumat verin.

**Z.Əsgərov,** *Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri.*

Çox sağ olun, hörmətli xanım sədr. Hörmətli deputat

həmkarlarım. “Azərbaycan Respublikası Hökuməti ilə İordaniya Haşimilər Krallığı Hökuməti arasında müdafiə sahəsində əməkdaşlıq haqqında Saziş” 2024-cü il aprelin 14-də Əmman şəhərində imzalanmışdır. Saziş preambula və 13 maddədən ibarətdir. Sazişin məqsədi tərəflər arasında müdafiə sahəsində əməkdaşlığın təşviq edilməsi və möhkəmləndirilməsi, eləcə də müvafiq əməkdaşlıq sahələri üzrə dostluq əlaqələrinin gücləndirilməsidir. Əməkdaşlıq sahələri dedikdə sazişin 2-ci maddəsinə əsasən 9 sahədə – müdafiə və təhlükəsizlik siyasəti, hərbi-texniki tədbirlər, hərbi təhsil, treninq və təlimlər, minatəmizləmə fəaliyyəti, sosial, idman və mədəni tədbirlər, müdafiə və təhlükəsizliyə dair qanunvericilik, hərbi sahədə tədqiqat və təkmilləşdirmə, hərbi tibb xidməti, humanitar və sülhməramlı əməliyyatlara dair təcrübə mübadiləsi və qarşılıqlı maraq kəsb edən digər sahələrdə əməkdaşlığın həyata keçirilməsi nəzərdə tutulur.

Tərəflər arasında əməkdaşlıq sazişin 3-cü maddəsinə müvafiq olaraq rəsmi səfərlər və işçi görüşlər, ikitərəfli danışıqlar, məsləhətləşmələr, təcrübə mübadiləsi, treninq və təlim tədbirlərində iştirak, qarşılıqlı maraq kəsb edən məlumatın mübadiləsi, konfrans və seminarlarda iştirak, mədəni tədbirlərdə iştirak və birgə razılaşdırılmış digər formalar vasitəsilə təmin edilir. Sazişin həyata keçirilməsi üçün səlahiyyətli orqanlar qismində Azərbaycan Respublikası tərəfindən Müdafiə Nazirliyi, İordaniya Haşimilər Krallığı tərəfindən isə İordaniya Silahlı Qüvvələri – Ərəb Ordusu təyin edilib. Bu sazişin icrası üçün tərəflər arasında məxfi məlumatların mübadiləsi və qarşılıqlı mühafizəsi ayrıca müqaviləyə əsasən həyata keçiriləcəkdir.

Bundan əlavə, sazişdə maliyyə məsələləri, intizam

prosedurları, zərərlər, sazişin müvəqqəti dayandırılması qaydası və digər beynəlxalq müqavilələrdən irəli gələn öhdəliklər barədə müvafiq müddəalar da öz əksini tapmışdır. Sazişin 11-ci maddəsinə uyğun olaraq, bu sazişin təfsiri və ya tətbiqi zamanı yarana biləcək hər hansı fikir ayrılığı tərəflər arasında danışıqlar və ya məsləhətləşmələr yolu ilə diplomatik kanallar vasitəsi ilə həll edilir və həlli üçün heç bir milli və ya beynəlxalq məhkəməyə və üçüncü tərəfə müraciət edilmir.

Bu sazişə əsasən istənilən düzəlişlər tərəflərin qarşılıqlı razılığı əsasında edilə bilər. Belə düzəliş və əlavələr sazişin ayrılmaz hissəsi olan ayrıca protokollar formasında rəsmiləşdirilir və bu sazişin 13-cü maddəsinə uyğun olaraq qüvvəyə minir. Saziş qeyri-müəyyən müddətə bağlanıb və istənilən vaxt tərəflərin razılığı ilə ləğv edilə bilər. Saziş Azərbaycan, ərəb və ingilis dillərində iki əsl nüsxədə imzalanmışdır. Bütün mətnlər bərabər, autentikdir. Təfsirdə hər hansı fərqlilik yaranarsa, ingilis dilindəki mətnə üstünlük verilir.

Hörmətli xanım sədr, hörmətli deputat həmkarlarım. Hesab edirəm ki, biz burada hamımız İordaniya Haşimilər Krallığı ilə Azərbaycan arasında olan siyasi, iqtisadi münasibətlərin mənasını və mahiyyətini gözəl dərk edirik. Bizim dövlətlərimiz arasında çox yüksək siyasi əlaqələr vardır və hesab edirəm ki, müdafiə sahəsində də sazişin imzalanması Azərbaycanın milli mənafeyinə tam uyğundur. Hörmətli deputat həmkarlarımdan sazişin, yəni o beynəlxalq sazişin dəstəklənməsini xahiş edirəm. Təşəkkür edirəm, çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Ziyafət müəllim. Hörmətli həmkarlar, bu sazişə ikinci komitədə – Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsində də

baxılıb. Ona görə də mən komitənin sədri hörmətli Səməd Seyidova söz vermək istəyirəm. Səməd müəllim, buyurun, komitənin rəyini bildirin.

**S.Seyidov,** *Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri.*

Çox sağ olun, xanım sədr. Mən Ziyafət müəllimə bu sazişin zərurəti, onun qəbul olunması ilə bağlı müddəaları çox geniş, ətraflı, bir-bir təhlil etdiyinə görə təşəkkürümü bildirmək istəyirəm. Doğrudan da, bu gün Azərbaycan–İordaniya münasibətləri ən yüksək səviyyədə inkişaf edir. Dövlətlərimiz arasında, xalqlarımız arasında, siyasi rəhbərlik arasında çox yüksək səviyyədə münasibətlər formalaşıb. Bu sazişin özü Azərbaycanla İordaniya arasında ən yüksək səviyyədə müdafiə məsələlərini həll etməklə bahəm ərəb dünyasına xüsusi bir mesajdır ki, Azərbaycan Respublikasının əlaqələri coğrafi nöqteyi-nəzərdən bütün dünya ilə, o cümlədən ərəb dünyası ilə də ən vacib, ən əhəmiyyətli səviyyədə – hərbi səviyyədə inkişaf edir.

Ona görə də beynəlxalq nöqteyi-nəzərdən hərbi sahəni əhatə edən saziş həddindən artıq vacib və əhəmiyyətlidir. Yaxın Şərqdə böyük nüfuza malik olan İordaniya ilə belə bir sazişin qəbul olunması Azərbaycanın milli maraqlarına tam şəkildə uyğundur. Ona görə Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsi bizim hörmətli həmkarlardan bu sazişin qəbul olunmasına səs vermələrini xahiş edir. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Səməd müəllim. Mən görürəm, Fəzail müəllim çıxış etmək istəyir. Fəzail Ağamalı, buyurun.

**F.Ağamalı**. Təşəkkür edirəm, hörmətli xanım sədr. Təqdim edilən qanun layihəsi dövlətimiz üçün olduqca vacibdir. Nəzərə alsaq ki, İordaniya Krallığı ilə Azərbay-

canın çox ciddi əsaslara söykənən və ənənəvi xarakter daşıyan münasibətləri var və bu münasibətlərə həmçinin hərbi əməkdaşlıq da əlavə olunursa, bu, dövlətlər arasındakı münasibətləri yeni bir mərhələyə çıxaracaqdır.

Qanun layihəsi ilə bağlı hörmətli həmkarım Ziyafət Əsgərovun və hörmətli həmkarım Səməd Seyidovun əsaslı və əhatəli təqdimatı imkan verir ki, həm də bu baxımdan biz qanun layihəsini qəbul edək. Sadəcə olaraq, bu qanun layihəsi ilə bağlı istər-istəməz bir fikri bildirmək bu gün, düşünürəm ki, vacibdir. Baxın, Azərbaycanın Krallıqla bağlamış olduğu hərbi əməkdaşlıq haqqında müqavilə Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinə söykənir. Bu, bir. İkincisi, bu dostluq əlaqələrinin möhkəmlənməsinə yeni töhfə verə bilər. Üçüncüsü, xüsusi olaraq bu hərbi əməkdaşlıq üçüncü bir ölkəyə qarşı deyil, sülh və sabitliyin təşviq edilməsinə əsaslanan sazişdir. Nəhayət, tərəflər hər ikisi bir-birinin ərazi bütövlüyünü və suverenliyini tanıyaraq ona imza atır.

Bununla müqayisədə, baxın, Ermənistan nə edir? Ermənistanın Müdafiə Nazirliyi digər ölkələrin dəstəyi ilə geniş şəkildə silahlanmaya çalışır və bu baxımdan konkret addımlar atır. Ona dəstək olan ölkələrdən birincisi isə Fransadır. Bu yaxınlarda Fransa Ermənistana müdafiə xarakterli deyil, hücum mahiyyəti daşıyan "Sezar" artilleriya sistemini verib. Fransa faktiki olaraq Qafqazda sülhə, əməkdaşlığa, təhlükəsizliyə deyil, əksinə, qarşıdurmaya və Ermənistanla Azərbaycan arasında münasibətlərin gərginləşməsinə xidmət edən addımlar atır.

Bunun iki tərəfi var. Əlbəttə, başlıca günah Ermənistandadır. Əgər Ermənistan ona təklif edilən bu cür avantürist addımlardan və təkliflərdən imtina edərsə, Fransa onu məcbur edə bilməz. Fransanın da Azərbaycana

qarşı münasibəti bəllidir. Bu, Makronun Azərbaycana qarşı düşmənçiliyinin yeni bir təzahürüdür, dövlətlərimiz arasındakı münasibətlərin gərginləşməsinə xidmət edən avantürist bir addımdır. Bunu müqayisə edəndə bir daha bəlli olur ki, qalib ölkə olan Azərbaycan bölgədə sülhün, təhlükəsizliyin və əməkdaşlığın memarı kimi çıxış edir. Eyni zamanda, Ermənistanı da buna təşviq edir. Lakin nə edək ki, zəhərlənmiş Ermənistan cəmiyyəti Paşinyanı, onun komandasını bu cür avantüralara doğru sürükləyir.

Hörmətli xanım sədr, mən bu qanun layihəsinə, təbii ki, səs verəcəyəm. Sadəcə, imkandan istifadə edib bir-iki kəlmə 1-ci məsələ ilə bağlı öz fikrimi demək istəyirəm. Təbii ki, bunu mən bir partiya sədri olaraq müdafiə edirəm. Ana Vətən Partiyası Yeni Azərbaycan Partiyasının bu təşəbbüsünü müdafiə edir, dəstəkləyir. Düşünürəm ki, atılmış olan addım çox məntiqidir və millət vəkilləri tərəfindən qəbul edilmiş qərar da alqışlanmalıdır. Həm də bu seçkilərin keçirilməsi Azərbaycan dövlətinin yeni inkişaf mərhələsinə tamamilə cavab verən bir yanaşmadır.

Hörmətli xanım sədr, biz təqribən 5 il bundan qabaq Sizə və Sizin müavinlərinizə Milli Məclisin üzvü olaraq etimad göstərdik, sədr seçdik, müavinlərinizə də bu statusu verdik, yəni səs verdik. Bu 5 ilin ərzində tam məsuliyyətlə demək olar ki, Sizin rəhbərliyiniz altında həm müavinləriniz, həm komitə sədrləri, həm də bütövlükdə Milli Məclis canlı orqanizm kimi Azərbaycan dövlətinin qarşısında duran olduqca çətin, mürəkkəb, lakin şərəfli vəzifəni çox uğurla yerinə yetirə bildi. Xüsusi olaraq qeyd etmək istəyirəm ki, Sizin ölkə Prezidentinin xarici siyasətinin tərkib hissəsi kimi həyata keçirdiyiniz parlament diplomatiyası Azərbaycana ciddi və əhəmiyyətli nüfuz gətirdi. Ayrı-ayrı ölkələrə çoxsaylı həmkarlarımızla

birlikdə etmiş olduğunuz ardıcıl səfərlər Azərbaycanın həm parlamentdə, həm ayrı-ayrı ölkələrdə, həm də dünya miqyasında fəaliyyət göstərən həmin beynəlxalq təşkilatlarda nüfuzuna yeni nəfəs verdi, onu yeni səviyyəyə qaldırdı.

Etiraf edim ki, VI çağırış Milli Məclis əvvəlki müsbət ənənələrə söykənərək qarşıdan gələn illər üçün olduqca əhəmiyyətli nümunələr ortaya qoydu. Mən əminəm ki, VI çağırış Milli Məclis əldə etmiş olduğumuz ciddi uğurlarla, yüksək demokratiya ənənələri ilə qarşılıqlı hörmətə və eyni zamanda, fərqli fikirlərə çox təmkinli, səbirli və tolerant yanaşmağa bir nümunə yaradan çağırış kimi məhz bundan sonra seçiləcək həm VII çağırış, həm də ondan sonra seçiləcək Milli Məclislərimiz üçün də bir nümunə olaraq öz əhəmiyyətli rolunu oynayacaqdır.

Ölkəmizə uğurlar arzulayıram. Millətimiz üçün xeyirli, düşərli və uğurlu olsun. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun, Fəzail müəllim. Hörmətli həmkarlar, daha çıxış etmək istəyən yoxdur. Mən qanun layihəsini səsə qoyacağam. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.23 dəq.) |
|---|---|
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 101 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Hörmətli həmkarlar, növbəti məsələ 3-cü məsələdir. Bu məsələ “Gədəbəy, Qoşa, Xarxar, Qaradağ, Ordubad qrupu

(Piyazbaşı, Ağyurd, Şəkərdərə, Kələki), Qızılbulaq, Dəmirli və Vejnəli qızıl, mis və polimetal perspektiv filiz yataqlarının kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə R.V. Investment Group Services, LLC ABŞ arasında bağlanılmış Sazişdə Dəyişiklik" sənədinin qəbul və təsdiq edilməsi, həyata keçirilməsinə icazə verilməsi haqqında qanun layihəsidir. Layihəyə Təbii ehtiyatlar, energetika və ekologiya komitəsində baxılıb. Məsələyə dair məlumat vermək üçün komitənin sədri hörmətli Sadiq Qurbanova söz verəcəyəm. Sadiq müəllim, buyurun, məlumat verin.

**S.Qurbanov,** *Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri.*

Çox sağ olun, dəyərli Sahibə xanım. Adıçəkilən sazişdə dəyişikliyin əsas mahiyyəti 2 məsələ ilə bağlıdır. Bu dəyişiklik sənədi 2024-cü il may ayının 24-də Bakıda Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə R.V. Investment Group Services, LLC ABŞ arasında imzalanmışdır.

Bu əsas 2 dəyişiklik – birincisi, tərəflərin əvəzlənməsi ilə, ikincisi isə, sazişin 9.1-ci maddəsində obyektlərin istifadəsi ilə bağlı olan dəyişikliklərdir.

Tərəflərin əvəzlənməsi məsələsi ilə bağlı deyə bilərik ki, burada saziş üzrə tərəfdaş olan Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinin "AzerGold" Qapalı Səhmdar Cəmiyyəti ilə əvəz olunmasından söhbət gedir.

Bilirsiniz ki, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin əsasnaməsinə əsasən nazirlik ətraf mühitin mühafizəsi sahəsində fəaliyyət göstərir. Dövlət siyasətinin tənzimlənməsini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanı olaraq podratçı tərəfindən mədən-filiz əməliyyatlarının həyata keçirilməsi zamanı ətraf mühitin mühafizəsinə dair

mövcud qanunvericiliyə əməl edilməsinə, ətraf mühitə təsir edən təsərrüfat və digər fəaliyyətin ekoloji təhlükəsizliyinin təmin edilməsi mövqeyindən nizama salınmasına, təhlükəli ekoloji vəziyyət yarada bilən fəaliyyətin ekoloji təhlükəsizliyinin tələblərinə uyğunluğunun müəyyən edilməsinə dövlət nəzarətini həyata keçirir. Eləcə də ətraf mühitin çirklənməsinə və ona ziyan dəyməsinə görə iddialar irəli sürmək hüququna malikdir. Bu baxımdan nazirliyin həm nəzarət orqanı olmasını, həm də sazişdə tərəfdaş olmasının maraqlar toqquşmasına səbəb ola biləcəyini nəzərə almaqla bu dəyişiklik edilir.

İndiyə qədər nə üçün bu var idi? Onu da deyim ki, əvvəlcə bağlanan müqavilə nazirliyin tabeliyində olan "Azərqızıl" müəssisəsi ilə bağlanmışdı. "Azərqızıl" nazirliyin tabeliyindədir. Bu ləğv olunduqdan sonra avtomatik olaraq nazirlik hüquqi varis kimi tanınırdı. Bu gün isə dediyimiz əsasda "AzerGold" artıq tərəfdaş kimi çıxış edəcək.

Sazişin 9.1-ci maddəsi – obyektlərdən istifadə haqqında maddə yeni redaksiyada verilib. Burada da podratçının Qızılbulaq mədən-filiz yatağına, Dəmirli mədən-filiz yatağına və Vejnəli mədən-filiz yatağına münasibətdə təhvil tarixinədək mövcud olmuş müvafiq mədən-filiz qazmalarından pulsuz istifadə etmək hüququ, Qızılbulaq mədən-filiz yatağına və Vejnəli mədən-filiz yatağına münasibətdə isə həmin mövcud olmuş obyektlərdən, dəzgahlardan və avadanlıqlardan pulsuz istifadə etmək hüququ tanınır. Yəni qısası, podratçı 2 yataqda – Qızılbulaq və Vejnəli mədən-filiz yataqlarında təhvil tarixinədək mövcud olmuş mədən-filiz qazmalarından, həmçinin müvafiq filiz yatağından, mövcud olmuş obyektlərdən, dəzgahlardan və avadanlıqlardan pulsuz istifadə edəcəkdir.

Dəmirli mədən-filiz yatağında isə pulsuz istifadə hüququ mədən-filiz qazmalarına şamil edilir.

Çox vacib bir qanun layihəsidir. Deputat həmkarlarımı dəstək verməyə dəvət edirəm. Sağ olun.

**Sədrlik edən.** Sağ olun, Sadiq müəllim. Bu qanun layihəsinə də, Səməd müəllim, sizin komitədə baxılıb. Xahiş edirəm, qanun layihəsi haqqında rəy bildirin. Buyurun.

**S.Seyidov.** Çox sağ olun, hörmətli xanım sədr. Hörmətli Sadiq müəllim dəyişikliklər haqqında ətraflı və geniş məlumat verdi. Bu, sadəcə, dəyişikliklər deyil. Doğrudan da, əhəmiyyətli, vacib, ekoloji problemləri həll edən və bu istiqamətdə irəli atılan addımlardır. Bu sazişin özünün beynəlxalq səviyyədə bizim üçün çox böyük əhəmiyyəti var. Hesab edirəm ki, dəyişikliklər qəbul olunandan sonra bu saziş daha da yüksək səviyyədə öz nəticələrini, fəaliyyətini təşkil edəcək.

Ona görə Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin rəyi müsbətdir və həmkarlardan öz müsbət fikirlərini bildirmələrini xahiş edirik. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Səməd müəllim. Hörmətli həmkarlar, çıxış etmək istəyən yoxdur. Mən qanun layihəsini səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.29 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Hörmətli həmkarlar, gündəliyin növbəti 2 məsələsi uyğunlaşdırma xarakteri daşıyır, ona görə bu qanun layihələri də qanunvericiliyin tələbinə əsasən bir oxunuşda qəbul ediləcək.

Biz indi 4-cü məsələyə keçirik. Bu məsələ "Hərbi xidmətkeçmə haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə qanun layihəsidir və müzakirəyə təqdim olunur. Layihəyə Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsində baxılmışdır. Mən ona görə yenə komitənin sədri hörmətli Ziyafət müəllimə söz verirəm. Ziyafət müəllim, buyurun.

**Z.Əsgərov.** Çox sağ olun, hörmətli xanım sədr. Hörmətli həmkarlar. Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 13 iyul tarixli Fərmanına əsasən ləğv edilmiş Könüllü Hərbi Vətənpərvərlik Texniki İdman Cəmiyyəti əsasında "Hərbi Vətənpərvərlik və Mütəxəssis Hazırlığı Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyət yaradılmışdır. Azərbaycan Respublikası Prezidentinin 2022-ci 16 noyabr tarixli Fərmanına uyğun olaraq isə həmin "Hərbi Vətənpərvərlik və Mütəxəssis Hazırlığı Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyət ləğv edilmişdir. Ona görə də həmin qurumun ləğv edilməsi ilə əlaqədar əsasnamədən "Könüllü Hərbi Vətənpərvərlik Texniki İdman Cəmiyyəti" ifadəsinin çıxarılması təbii olaraq təklif olunur. Əgər belə bir qurum yoxdursa, onun qanunda qalması mənasızdır.

Burada sual oluna bilər ki, bəs həmin qurumların vaxtı ilə yerinə yetirdiyi işlər, səlahiyyətlər, funksiyalar kimə keçib? Bu, artıq Azərbaycan Respublikası Müdafiə Nazirliyinin səlahiyyətində olan məsələdir. Təşəkkür

edirəm, diqqətinizə görə çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Ziyafət müəllim. Çıxış etmək istəyən yoxdur. Mən qanun layihəsini səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.31 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 98 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun qəbul edildi.

Növbəti məsələ Seçki Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsidir. Xatırladım ki, bu, bizim 5-ci məsələmizdir. Layihəyə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün, Əli müəllim, mən Sizdən xahiş edirəm. Buyurun, Əli Hüseynli.

**Ə.Hüseynli.** Hörmətli xanım sədr, hörmətli həmkarlar. Bu layihə mahiyyəti üzrə uyğunlaşdırma xarakterlidir. Çünki faktiki olaraq şəxsiyyət vəsiqəsini tənzimləyən qanunvericilik aktlarında şəxsiyyət vəsiqəsinin nömrəsi, seriyası ilə yanaşı, onun verilmə tarixi və etibarlılıq müddəti ilə bağlı müddəalar mövcuddur. Praktikada da bu belədir. Yeni nəsil şəxsiyyət vəsiqəsi vətəndaşlara artıq neçə illərdir, verilir. Ona görə Seçki Məcəlləsində də həmin iki sözün, yəni "verilmə tarixi" və "etibarlılıq müddəti" sözlərinin əlavə edilməsi təklif olunur. Uyğunlaşdırma xarakterlidir. Səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Əli müəllim. Hörmətli

həmkarlar, mən qanun layihəsini səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.32 dəq.) |
|---|---|
| Lehinə | 98 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 98 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun qəbul edildi.

Hörmətli həmkarlar, növbəti məsələmizə Əmək və sosial siyasət komitəsində baxılmışdır. Bu məsələ "Məşğulluq haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Qeyd edim ki, layihə ikinci oxunuşda müzakirəyə təqdim edilir. Keçən dəfə də bu qanun layihəsini komitənin üzvü hörmətli Vüqar Bayramov təqdim etmişdi. Vüqar müəllim, mən yenə də Sizə söz verirəm. Buyurun, məlumat verin.

**V.Bayramov,** *Milli Məclisin Əmək və sosial siyasət komitəsinin üzvü.*

Çox təşəkkür edirəm, hörmətli xanım sədr. Birinci oxunuşda qanun layihəsi ilə bağlı ətraflı məlumat verilmişdi.

Qeyd etmək istərdim ki, qanun layihəsi həm "məqsədli proqramlar" anlayışının qanuna gətirilməsini, həm də 2 maddədə dəyişikliyi nəzərdə tutur. Onlardan biri dövlət vəsaitinin, İşsizlikdən sığorta fondunun vəsaiti hesabına kvotadan əlavə iş yerlərinin yaradılmasını və həmin iş yerlərində çalışan vətəndaşlarımızın əməkhaqlarının İşsizlikdən sığorta fondunun vəsaiti hesabına ödənilməsini nə-

zərdə tutur. Bu, təbii ki, məşğulluğun təmin edilməsi baxımından vacib islahatlardan biridir.

Eyni zamanda, nəzərə almaq lazımdır ki, sayı 15-dən çox olmamaqla hər bir sahibkarlıq qurumunda kvotadan əlavə iş yerlərinin yaradılması mümkün olacaq.

İkinci mühüm dəyişiklik peşə təhsilində məhz təqaüdün verilməsi ilə bağlıdır. Bildiyiniz kimi, peşə təhsili alan vətəndaşlarımız üçün təqaüdün məbləği minimum əməkhaqqının 50 faizi həcmində müəyyənləşdiriləcək. Bu da imkan verəcək ki, təxminən, əlavə olaraq 15 min vətəndaşımız peşə təhsilinə cəlb oluna bilsin.

Birinci oxunuşda hörmətli həmkarlarımız Razi Nurullayev, Fazil Mustafa, Emin Hacıyev, Bəhruz Məhərrəmov, Azay Quliyev və Aydın Hüseynov qanun layihəsi və eyni zamanda, məşğulluq siyasəti ilə bağlı fikirlərini bölüşdülər. Profil dövlət qurumu ilə bu qeyd edilən məsələlərlə bağlı müzakirə aparıldı. Hər bir həmkarımızla işçi qaydasında görüş keçirildi və eyni zamanda, profil dövlət qurumunun rəyi təqdim olundu. O baxımdan Əmək və sosial siyasət komitəsində ikinci oxunuşda müzakirə olundu. Hər hansı əlavələr yoxdur. Qanun layihəsinin olduğu kimi səsə qoyulmasını xahiş edirik. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Vüqar müəllim. Musa müəllim, Siz də çox sağ olun. Eşitdiyimə görə, birinci oxunuşdan sonra görüşlər də keçirmisiniz.

Hörmətli həmkarlar, ikinci oxunuşdur, ona görə də əvvəlcə layihəni əsas kimi qəbul etməliyik. Xahiş edirəm, qanun layihəsinə əsas kimi münasibət bildirəsiniz. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.35 dəq.) |
|---|---|
| Lehinə | 98 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs verMədi | 0 |
| İştirak edir | 98 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, bu qanun layihəsi əsas kimi qəbul edildi.

Çıxış etmək istəyən var. Bəhruz Məhərrəmov. Bəhruz müəllim, buyurun.

**B.Məhərrəmov.** Təşəkkür edirəm. Hörmətli sədr, hörmətli həmkarlar. Birinci oxunuşda məsələyə konseptual münasibət ifadə etmişdim. Təşəkkür edirəm, hörmətli Musa müəllim başda olmaqla Milli Məclisin Əmək və sosial siyasət komitəsi, eyni zamanda, müvafiq aidiyyəti qanunvericilik təşəbbüsü subyektinin nümayəndələri tərəfindən aidiyyəti məsələlərlə bağlı geniş arayış təqdim olundu. Məruzəçi, hörmətli həmkarım Vüqar Bayramovla işçi qaydada qaldırdığımız bu məsələlər müzakirə olundu. Bir daha təşəkkür edirəm.

Hazırda isə ikinci oxunuşun tələbinə müvafiq olaraq, sadəcə, bir məqama diqqət çəkmək istəyirəm. Bilirsiniz ki, məqsədli proqramlarda iştirak etmək üçün, müvafiq müsabiqəyə qatılmaq üçün şərtlər müəyyən edilib. Belə şərtlərdən biri 26.9.2-ci maddə üzrə təsbit olunub ki, son bir il ərzində iş yerlərini ixtisar etməyən şəxs müsabiqədə iştirak edə bilər.

Bilirsiniz ki, hazırda informasiya-kommunikasiya sistemlərinin geniş tətbiqi ilə bağlı əmək münasibətləri sürətlə transformasiyaya məruz qalır, peşələr sürətlə sıradan çıxır. Bu mənada son bir ildə iş yerlərinin ixtisar edilməməsi şərti, hesab edirəm ki, özəl sektor üçün müəyyən problemlərə səbəb ola bilər. Ona görə də bu müddəaya bir daha baxılması məqsədəmüvafiq olar. Təbii ki, bütövlükdə qanun

layihəsini dəstəkləyirəm. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. Vüqar müəllim, bununla bağlı bir sözünüz var?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Gələn dəfəyə saxlaya bilərik. Daha çıxış etmək istəyən yoxdur. Hörmətli həmkarlar, biz səsverməyə keçirik. Əvvəlcə maddələr üzrə, xatırladıram ki, ikinci oxunuşdur. Bu layihədə 4 maddə var. Mən onları iki-iki səsə qoyacağam.

Xahiş edirəm, indi 1-ci və 2-ci maddələrə münasibət bildirəsiniz. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.37 dəq.) |
|---|---|
| Lehinə | 91 |
| Əleyhinə | 2 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 93 |
| Nəticə: Qəbul edildi | |

Bu maddələr qəbul edildi.

İndi isə 3-cü və 4-cü maddələri səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.37 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

Bu maddələr də qəbul edildi.

İndi isə mən qanun layihəsini bütövlükdə səsə qoyuram. Buyurun.

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.37 dəq.) |
| Lehinə | 93 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, bizim 7 məsələmiz qalır və onların hamısı birinci oxunuşda olan qanun layihələridir. 7-ci məsələ Ailə Məcəlləsində, "Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi haqqında" Qanunda və digər 2 qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə İnsan hüquqları komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün mən komitənin sədri hörmətli Zahid Oruca söz verirəm.

**Z.Oruc,** *Milli Məclisin İnsan hüquqları komitəsinin sədri.*

Təşəkkür edirəm. Hörmətli sədr, hörmətli millət vəkilləri. Çox vacib dəyişikliklərdən bəhs olunur. Başa düşüləndir ki, elektron xidmətlər ölkə insanının həyatını uzun illərdir ki, əhatə edir. Bir vaxtlar hər birimiz müxtəlif ünvanlara gedərkən hər hansı bir vəsiqəni, – fərq etməzdi, o, şəxsiyyət vəsiqəsidir, yaxud digər sənədlərdir, – özümüzlə götürməliydik. Artıq hazırkı dəyişikliklər praktiki vəziyyəti, gerçək vəziyyəti qanunvericilik sistemimizə daha mükəmməl şəkildə gətirir.

4 layihədə təklif edilən dəyişikliklərin hamısı bir-birinə uyğundur. Amma mən yalnız birinin nümunəsində çatdır-

maq istəyirəm ki, Elektron Hökumət İnformasiya Sistemi üzərindən verilən məlumatlar vətəndaşın üzərindəki şəxsiyyət vəsiqəsinin ekvivalentidir, eynisidir. Ona görə də artıq bundan sonra o daşıyıcıları özünlə götürməyə bir ehtiyac qalmayacaq. Paralel şəkildə, praktiki həyatda elektron xidmətlər ki mövcud idi, onların qanunvericilik sistemində anlayışı verilir.

Eyni zamanda, bu qanunun tətbiqi ilə bağlı ölkə rəhbəri tərəfindən fərman veriləndə müvafiq icra hakimiyyəti orqanının üzərinə həmin informasiya kütləsinin, elektron məlumatların qorunması, mühafizəsi, onun səmərəliliyinə, texniki vəziyyətinə və sairə nəzarət etməklə bağlı müəyyən vəzifələr qoyulur. Dəyişikliklərin qısaca məzmunu bundan ibarətdir. Əminəm ki, parlament üzvləri bu layihəni müdafiə edəcəklər. Sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Zahid müəllim. Hörmətli həmkarlar, bu qanun layihəsinə 3 komitədə də baxılıb. Birinci komitə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsidir. Tahir müəllim, xahiş edirəm, məlumat verin.

**T.Mirkişili,** *Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri.*

Çox sağ olun, hörmətli xanım sədr. Hörmətli həmkarım Zahid müəllim layihənin vacibliyi haqqında kifayət qədər geniş məlumat verdi. Mən bir məsələni əlavə etmək istərdim ki, Azərbaycanda elektron hökumətin qurulması istiqamətində ardıcıl olaraq xeyli iş görülür. Dövlət büdcəsindən bununla bağlı vəsait ayrılır. Bu gün dövlətin idarəetməsində elektron qərarların qəbul olunması, elektron sənədlər mühüm yer tutur. Hətta fikir versəniz, parlament idarəetməsində VI çağırış Milli Məclis ən çox rəqəmsallaşmış Milli Məclisdir.

Bununla yanaşı, təhlükəsizliyin qorunması ilə yanaşı,

ən vacib göstəricilərdən biri də əhalinin, vətəndaşların bu prosesdən nə dərəcədə yararlanmasına nail olmaqdır. Bu cəhətdən baxsaq, mövcud təklif olunan qanun layihəsi sırf vətəndaşlarımızın elektron sənədlərdən istifadəsi imkanlarını artırmaq məqsədi daşıyır. Təkcə bir nümunəni də qeyd edim. 1 il ərzində Azərbaycanda vətəndaşlara 100 mindən çox şəxsiyyət vəsiqəsi verilir. Bu gün şəxsiyyət vəsiqəsini fiziki cəhətdən olmadan dövlət orqanları ilə və digər orqanlarla münasibətdə identifikasiya etmək, demək olar ki, qeyri-mümkündür. Qanun buna imkan vermir.

Mövcud qanun layihəsi elektron şəxsiyyət vəsiqəsi olmadan belə vətəndaşa elektron formada şəxsiyyət vəsiqəsinin verilməsini nəzərdə tutur. Bundan sonra dövlət orqanlarına müraciət edərkən vətəndaşın yalnız telefonda mobil tətbiq vasitəsi ilə şəxsiyyət vəsiqəsini göstərməsi kifayət edəcək. Bu da, düşünürəm ki, vətəndaş–dövlət münasibətlərində tamamilə yeni bir mərhələyə keçid deməkdir. Bu, eyni zamanda, dövlətin də bu istiqamətdə xeyli vəsaitə qənaət etməsinə imkan verəcək. Bizim komitənin rəyi müsbətdir. Həmkarlarımı dəstəkləməyə dəvət edirəm. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. Bu qanun layihəsinin baxıldığı ikinci komitə Hüquq siyasəti və dövlət quruculuğu komitəsidir. Komitənin rəyini bildirmək üçün komitənin üzvü hörmətli Nurlan Həsənova söz verirəm. Nurlan müəllim, buyurun.

**N.Həsənov,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü.*

Təşəkkür edirəm, hörmətli Sahibə xanım. Hörmətli həmkarlarımın da qeyd etdiyi kimi, dövlət xidmətlərinin elektron qaydada vətəndaşlarımıza çatdırılması öncə vətəndaş məmnunluğu, süründürməçiliyin qarşısının alınma-

sı, eyni zamanda, korrupsiyaya qarşı mübarizə baxımından önəmlidir. Düşünürəm ki, təqdim olunan layihə bu prosesin davamıdır. Dövlət informasiya ehtiyatlarının formalaşdırılması, istifadəyə verilməsi, elektron xidmətlərin vahid reyestrinin aparılması elektron xidmətlərin göstərilməsində səmərəliliyin və təhlükəsizliyin təmin olunması baxımından önəmlidir. Layihə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində geniş müzakirə olunmuşdur və komitənin rəyi müsbətdir.

**Sədrlik edən.** Çox sağ olun.

Qanun layihəsinə Ailə, qadın və uşaq məsələləri komitəsində də baxılıb. Mən komitənin sədri hörmətli Hicran xanım Hüseynovaya söz verirəm. Hicran xanım, buyurun, komitənin rəyini bildirin.

**H.Hüseynova,** *Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri.*

Hörmətli xanım sədr, hörmətli həmkarlar, media nümayəndələri. Təklif olunan qanun layihəsində, ümumilikdə, dövlət informasiya ehtiyatlarının və sistemlərin təhlükəsizliyinin təmin edilməsi üçün zəruri olan məsələlərə dair əsas müddəalar əks olunmuşdur. Həmçinin uyğunlaşdırma xarakterli dəyişikliklər də təklif olunur.

Qanun layihəsi komitəmizdə müzakirə olunmuşdur. Layihə birinci oxunuşda baxılması üçün Milli Məclisin müzakirəsinə tövsiyə edilmişdir. Məlumatı nəzərə almağınızı xahiş edirəm. Sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Hicran xanım. Çıxış etmək istəyən var. Etibar Əliyev. Etibar müəllim, buyurun.

**E.Əliyev.** Təşəkkür edirəm, hörmətli Sahibə xanım. Öncə qeyd edim ki, Ailə Məcəlləsində, "Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi haqqında", "İnformasiya, informasiyalaşdırma və informasiyanın

mühafizəsi haqqında" və "Fərdi məlumatlar haqqında" qanunlarda edilən dəyişikliklər vacib dəyişikliklərdir və zamanın tələbidir. Təklif edilən qanunlara dəyişikliklərin fəlsəfəsini nəyin təşkil etməsinə bir qədər aydınlıq gətirmək istərdim.

İlk növbədə qeyd etməliyəm ki, bu, dövlət orqanları tərəfindən göstərilən xidmətlər sahəsində təsərrüfatda bir nizamın yaradılmasına töhfə verəcək. Çünki indiyə qədər dövlət orqanları tərəfindən göstərilən elektron xidmətlərdə nəzərəçarpacaq xaos var idi. Hər bir dövlət orqanı özü müstəqil müəyyənləşdirirdi ki, hansı xidmətlər elektron xidmətlərdir. Bütövlükdə özləri sərbəst qərar qəbul edirdi. Amma ilk dəfədir ki, qanunvericilikdə "elektron xidmət" anlayışına aydınlıq gətirilir.

Burada xüsusi olaraq qeyd olunmalıdır. Birincisi, bu xidmət dövlət orqanları tərəfindən həyata keçirilməlidir. Xidməti alan subyektlər dövlət orqanları, bələdiyyələr, fiziki və hüquqi şəxslər ola bilər. Eyni zamanda, göstərilən xidmət müəyyən hüquqi nəticə yaratmalıdır. Həmçinin xidmət istifadəçisinə zəruri informasiyanın verilməsi ilə tamamlanmalıdır. Amma bu tamamlanma da informasiya-kommunikasiya texnologiyalarından istifadə edilməklə və təmassız həyata keçirilməlidir.

Gələcəkdə dövlət orqanları tərəfindən müəyyənləşdirilən elektron xidmətlər bu meyarlara cavab verməlidir. Digər tərəfdən, qanuna edilmiş dəyişikliklərdə başqa bir məsələyə də aydınlıq gətirilməlidir. Artıq müvafiq icra hakimiyyətinin müəyyənləşdirdiyi dövlət orqanı tərəfindən elektron xidmətlər müəyyən ediləcəkdir. Burada da texniki tələblərə cavab vermək, səmərəlilik barədə rəy verilməlidir.

Həmçinin müvafiq qorunan kanallara malik olunmalı-

dır. Hesab edirəm ki, bu məsələdə də müəyyənlik yaranmışdır. Ümumiyyətlə, Milli Məclisə daxil olan qanunlarda maraqlı və əhəmiyyətli tendensiya müşahidə olunmaqdadır. Bu həm də qanunda hüquqi müəyyənlik yaradır. Bu, çox vacib məsələdir. Çünki hüquqi müəyyənlik olmadan istənilən dövlət orqanı, yaxud həmin qanunun tətbiqi ilə bağlı qərar qəbul edən qurum öz mülahizəsinə uyğun qərarlar qəbul edir. Amma hüquqda müəyyənlik olanda bütün dövlət orqanları tərəfindən bu qanunla bağlı vahid yanaşma tətbiq olunur. Bu da çox vacib məsələdir. Bunun üçün hər şeydən əvvəl qanunda müəyyənlik olmalıdır. Bu baxımdan cənab Prezident tərəfindən təqdim edilən bu qanunlarda edilən dəyişikliklər hüquqi müəyyənliyə yeni töhfələr vermiş olacaq. Təklif edilən dəyişikliklərin vətəndaş məmnunluğu istiqamətində də töhfə verəcəyini hesab edirəm. Bu nədən ibarətdir?

Yenə də biz elektron xidmətlərdən istifadə etməklə həm zaman etibarı ilə uduşa malik oluruq, həm də xərclərimiz azalır. Eyni zamanda, bu prosesdə şəffaflıq artıq, neqativ halların qarşısının alınması istiqamətində də mühüm nəticələrə nail olmaq imkanı yaranır.

Ən vacib məsələlərdən biri ondan ibarətdir ki, qanuna edilmiş dəyişikliklər həm də data bazalarının, məlumat bazalarının yaradılmasında bir nizamın qurulmasına gətirib çıxaracaq. Uzun müddətdir ki, ayrı-ayrı dövlət orqanları özləri üçün müstəqil məlumat bazaları yaradırlar. Nəticədə vahid məlumat bazasının yaradılması xeyli dərəcədə problem yaradır. Halbuki dünyanın hər yerində dövlət orqanlarında yaradılmış məlumatların nizamlanması, vahid məlumat bazasının yaradılması, heç şübhəsiz, həmin məlumatlarda yeni dəyərlərin yaranmasına zərurət yaradır.

Elektron xidmətlərin təşkili ilə bağlı məsələlərə aydın-

lıq gətirilməlidir. Artıq dövlət orqanları əgər onlar tərəfindən göstərilən xidmətlərlə bağlı və göstəriləcək elektron xidmətlərlə bağlı hər hansı bir problemi qarşılayarsa, orada müvafiq icra hakimiyyəti orqanına müraciət etmək, bununla bağlı metodiki tövsiyələr almaq mümkün olacaq. Eyni zamanda, zəruri texniki dəstək ala bilərlər. Bu da çox vacib məsələdir. Yəni bir qurum özünün göstərdiyi elektron xidmətlərlə bağlı texniki göstəricilərini müəyyən edə bilməyəcək. Eyni zamanda, hər hansı bir xidmətin tətbiqi ilə bağlı müəyyən çətinliklə, problemlə üzləşərsə, müvafiq icra hakimiyyətindən bununla bağlı metodiki dəstək almış olacaq.

Hesab edirəm ki, bu, hüquqi müəyyənliyin davamlı olmasına töhfədir və eyni zamanda, vahid hüquq praktikasının tətbiqinə yeni imkanlar açacaq.

Dəyişikliklərin məzmununda bir sıra normalar daha dəqiq ifadə edilə biləcək konstruksiyaya malik olmuşdur. Dövlət orqanları tərəfindən göstərilən xidmətlərin vahid reyestrinin yaradılması, Elektron Hökumət İnformasiya Sistemi üzərindən məlumatların verilməsi və həmin məlumatların da bütövlükdə mövcud olan sənədlərə bərabər tutulması imkanı vahid məlumat bazasının yaradılmasına gətirib çıxaracaq. Qanun layihəsinin lehinə səs verəcəyəm. Təşəkkür edirəm, sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Etibar müəllim. Hörmətli həmkarlar, daha çıxış etmək istəyən yoxdur. Mən qanun layihəsini səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.49 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |

| | |
|---|---|
| Səs verməđi | 1 |
| İştirak edir | 94 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Növbəti məsələ Torpaq Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsidir. Layihəyə Aqrar siyasət komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün komitənin sədri hörmətli Tahir müəllim Rzayevə söz verirəm. Tahir müəllim, buyurun.

**T.Rzayev,** *Milli Məclisin Aqrar siyasət komitəsinin sədri.*

Çox sağ olun. Hörmətli sədr, hörmətli deputat həmkarlar. Azərbaycan Respublikasının Torpaq Məcəlləsində edilmiş dəyişikliklər Azərbaycan Prezidentinin "Aqrar sahədə istehsalın və emal sənayesinin inkişafına dair bir sıra tədbirlər haqqında" 2021-ci il 15 iyul tarixli Fərmanına əsaslanır.

Dəyişikliklər kənd təsərrüfatı təyinatlı torpaqlardan istifadənin səmərəliliyini yüksəltmək, infrastrukturu və aqrar biznes mühitini daha da yaxşılaşdırmaq, aqrar sahədə keyfiyyət dəyişikliyini və emal sənayesinin inkişafını, kənddə əhalinin məşğulluğunu təmin etmək məqsədi daşıyır.

Həm də dəyişikliklər əsasında kənd təsərrüfatı yerlərinin məqsədli təyinatının dəyişdirilməsinin çevik mexanizmi yaradılır və kənd təsərrüfatı torpaqlarında tikililərin inşası tənzimlənir. Torpaq sahələrinin mülkiyyətçiləri pay və qış otlaqları, örüş və biçənək sahələri istisna edilməklə, kənd təsərrüfatı məhsullarının istehsalı və emalı məqsədi ilə kənd təsərrüfatı yerlərinin məqsədli təyinatını dəyişmək

imkanı əldə edəcəklər. Bu həm də torpaq sahələri mülkiyyətçilərinin müraciəti əsasında məlumatların daşınmaz əmlakın dövlət reyestrində qeydiyyatının aparılmasını və torpaq balansının dəqiqləşdirilməsini təmin edəcəkdir.

Kənd təsərrüfatı təyinatlı torpaqlarda tikililərin aparılması ehtiyaclardan irəli gəlir və bu, kənd təsərrüfatının inkişafı üçün çox əhəmiyyətlidir. Dəyişikliklər kənd təsərrüfatı təyinatlı torpaqlarda sahəsi 5 hektardan az olmayan və vahid sərhəd daxilində yerləşən kənd təsərrüfatı təyinatlı torpaq sahələrinin yay və qış otlaqları, örüş sahələri istisna olmaqla, 1 faizdən artıq olmayan hissəsində əsaslı tikililərin və qurğuların, habelə işçilərin müvəqqəti yaşaması üçün yaşayış təyinatlı tikililərin inşa edilməsinə və quraşdırılmasına imkan verəcəkdir. İstixanalar və suvarma infrastrukturlarının inşası və quraşdırılması zamanı torpaq sahələrinin minimum həddinə və tikinti əmsalının maksimum ölçülərinə dair məhdudiyyətlər tətbiq edilmir. Tikililərə Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinə uyğun olaraq icazə verilir. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Tahir müəllim. Çıxış etmək istəyən yoxdur. Mən qanun layihəsini səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.52 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 93 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul

edildi.

Hörmətli həmkarlar, növbəti məsələ Əmək Məcəlləsində və digər 2 məcəllədə, "Təhqiqat, ibtidai istintaq, prokurorluq və məhkəmə orqanlarının qanunsuz hərəkətləri nəticəsində fiziki şəxslərə vurulmuş ziyanın ödənilməsi haqqında" Qanunda və digər 7 qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə Əmək və sosial siyasət komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün komitənin sədri hörmətli Musa Quliyevə söz verirəm. Musa müəllim, buyurun.

**M.Quliyev,** *Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri.*

Çox sağ olun. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. Dəyişikliklərin miqyası olduqca böyükdür və konseptual baxımdan əmək münasibətlərini yeni bir müstəviyə keçirir. Rəqəmsal texnologiya müstəvisinə keçidi nəzərə alaraq, təqdimati bir qədər geniş edəcəyəm. Xahiş edirəm, nəzərə alasınız.

Əmək hüquqlarının qorunması və layiqli əməyin təmin edilməsi ölkəmizdə həyata keçirilən sosial-iqtisadi siyasətin prioritet istiqamətlərindən biridir. Əmək və məşğulluq sahəsində həyata keçirilən islahatlar nəticəsində son 5 ildə ölkə üzrə minimum əməkhaqqı 2,7 dəfə, orta əməkhaqqı 71 faiz, qeyri-formal məşğulluqla mübarizə çərçivəsində isə əmək müqavilələrinin sayı 38 faiz, ölkə üzrə əməkhaqqı fondu isə 2,7 dəfə artmışdır.

Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikası Beynəlxalq Əmək Təşkilatının 59 konvensiyasını və 1 protokolunu ratifikasiya etmişdir. Bu baxımdan Azərbaycan Respublikası Əmək Məcəlləsinin normaları beynəlxalq tələb və standartlara, müasir çağırışlara uyğun olaraq davamlı şəkildə təkmilləşdirilir.

Sosial sahədə vətəndaşlara xidmət göstərilməsində şəffaflığı və operativliyi təmin etmək üçün əmək, məşğulluq, sosial müdafiə və sosial təminat sahələrində dövlət xidmətlərinin tam elektronlaşdırılması, müvafiq informasiya sistemlərinin formalaşdırılması, informasiya texnologiyalarının tətbiqi ilə innovativ idarəetmənin təmin edilməsi məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 5 sentyabr tarixli Fərmanı ilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş elektron informasiya sistemi yaradılmışdır. Bu sistemin strukturuna 4 reyestr və 19 altsistem daxildir. Nazirlik tərəfindən göstərilən 159 xidmətdən 145-i və ya 90 faizdən çoxu elektron qaydada təqdim edilir. Həmçinin 50-dən çox proaktiv xidmət, geniş funksional imkanlara malik *"e-sosial.az"* portalı, "Əmək müqaviləsi bildirişi" və "Məşğulluq" altsistemləri yaradılmışdır.

MDB məkanında ilk dəfə Azərbaycan Respublikasında qurulan əmək münasibətlərinin elektron müstəvidə şəffaflaşdırılmasını təmin edən, 2014-cü ilin iyul ayından tətbiqinə başlanılmış əmək müqaviləsi bildirişi üzrə elektron informasiya sistemi əmək münasibətlərinə birbaşa və operativ nəzarətin həyata keçirilməsinə imkan yaratmışdır.

Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 30 noyabr tarixli Fərmanı ilə əmək münasibətləri və məşğulluq sahəsində rəqəmsal xidmətlərin genişləndirilməsi məqsədi ilə geniş hüquqi bazanın yaradılması tapşırığı verilmişdir.

Hörmətli millət vəkilləri, müzakirənizə təqdim olunan Əmək Məcəlləsinə və 10 qanuna 142 dəyişiklik edilməsi barədə layihə bu tələbdən irəli gələrək hazırlanmışdır.

Əmək Məcəlləsinə təklif olunan dəyişikliyin ana xəttini əmək və məşğulluq münasibətlərinin tamamilə elektronlaşdırılması təşkil edir ki, bu sahədə əsas addımlardan biri

əmək müqaviləsi bildirişlərinin ləğv edilməsindən və işəgötürənlə işçi arasında əmək müqavilələrini elektron formada bağlamaq imkanının yaradılmasından ibarətdir.

Hazırda müzakirəyə təqdim olunan qanun layihəsi ilə əmək müqavilələrinin bağlanması, şərtlərinin dəyişdirilməsi və xitamının sənədləşdirilməsi, əmək şəraiti, əməyin ödənilməsi ilə bağlı əksər proseslər elektronlaşdırılacaqdır. Bu da əmək münasibətləri sahəsində çevikliyin və operativliyin təmin olunmasına, işçilərin hüquqlarının etibarlı qorunmasına, işəgötürənlərin isə əmək münasibətləri sahəsində öz vəzifələrini vaxtında və qanunauyğun icrasına xidmət edəcəkdir. Nəticədə "Əmək müqaviləsi bildirişi" və "Məşğulluq" altsistemləri birləşdiriləcəkdir.

Əmək və məşğulluq münasibətlərində elektronlaşma islahatının əsas məqamlarından biri odur ki, tərəflər elektron sənəd formasında əmək müqaviləsi bağlayarkən işçinin əmək fəaliyyəti ilə bağlı məlumatları onun elektron kabinetində görünəcəyindən əmək kitabçasının təqdim edilməsinə və həmin məlumatların əmək kitabçasında qeyd edilməsinə ehtiyac qalmayacaqdır.

Yalnız Azərbaycan Respublikası Əmək Məcəlləsinin 7-ci maddəsinin 2-1-ci hissəsində nəzərdə tutulan dövlət orqanlarında çalışan, yəni kağız üzərində əmək müqaviləsi bağlanan vəzifələrdə çalışan, eləcə də əmək müqavilələrinə 2014-cü il iyulun 1-dək xitam verilmiş işçilərin əmək stajı onların əmək kitabçası əsasında müəyyən ediləcəkdir.

Layihəyə əsasən əmək müqaviləsinə xitam verilməsi bu barədə əmrin işəgötürən tərəfindən elektron informasiya sisteminə daxil edilərək gücləndirilmiş elektron imza ilə imzalandığı tarixdən hüquqi qüvvəyə minəcəkdir.

Əmək müqavilələrinə edilən dəyişikliklər, əmək mü-

qavilələri ilə əlaqədar verilmiş əmrlər elektron informasiya sistemi vasitəsi ilə həyata keçiriləcək. Habelə həmin sənədlərlə bərabər, digər əmrlərin uçotunun aparılması elektron informasiya sistemi vasitəsilə təmin ediləcəkdir. Digər tərəfdən, əmək müqaviləsi elektron sənəd formasında bağlanıldıqda əməkhaqqının hesablanması, ödənilməsi və ondan tutulmaların aparılması barədə bütün mühasibat hesablamalarını əks etdirən, işçilərin haqq-hesab sənədləri barədə məlumatların verilməsi işəgötürən tərəfindən elektron informasiya sistemində yaradılan elektron kabinet vasitəsi ilə təmin ediləcəkdir.

Elektron sənəd formasında bağlanılan əmək müqavilələri barədə məlumatların arxivləşdirilməsi elektron informasiya sistemi vasitəsi ilə təmin ediləcək, kağız formasında sənədlərin uzun illər ərzində saxlanılmasına ehtiyac olmayacaq.

Əmək müqavilələrinin elektronlaşması ilə bağlı müddətli əmək müqaviləsinə xitam verilməsinin yeni qaydasının məcəlləyə daxil edilməsi təklif olunur. Qüvvədə olan normaya əsasən müqavilənin müddəti bitdikdən sonra bir həftə ərzində ona xitam verilməsi və ya uzadılması nəzərdə tutulurdusa, dəyişiklik nəticəsində bu proses, yəni müddətli əmək müqaviləsinin müddətinin uzadılıb-uzadılmaması əmək müqaviləsinin müddətinin bitməsinə azı bir həftə qalmış müəyyən ediləcəkdir.

Onu da diqqətinizə çatdırmaq istəyirəm ki, vətəndaşlar bütün gücləndirilmiş elektron imzalardan, eləcə də Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi tərəfindən vətəndaşlara pulsuz şəkildə təqdim edilən "SİMA" rəqəmsal imzadan istifadə edərək "Əmək və məşğulluq" altsisteminə daxil olacaq və elektron əmək müqavilələrini imzalaya biləcəklər.

Layihəyə qanun qüvvəyə mindiyi günədək bağlanılmış əmək müqavilələrinin elektron sənəd formasına keçirilməsinin müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın müəyyən etdiyi mərhələlərə uyğun olaraq həyata keçirilməsi ilə bağlı keçid müddəa da əlavə edilmişdir.

Eyni zamanda, "Məşğulluq haqqında" Qanuna da əhəmiyyətli dəyişikliklər təklif olunur. İşsiz kimi qeydiyyata alınma prosedurları, peşə hazırlığının təşkili, işəgötürənlərlə birlikdə əməkhaqqının birgə maliyyələşdirilməsi proqramları təkmilləşdirilir.

Bununla yanaşı, işsiz kimi qeydiyyata alınmış şəxsin 14 gün ərzində fərdi məşğulluq proqramını təsdiq etməsi də layihədə öz əksini tapmışdır.

"Məşğulluq haqqında" Qanuna edilən dəyişikliyin mühüm bir istiqaməti də birgə maliyyələşdirmə tədbirlərində bağlanılan müqavilənin minimum müddətinin 2 ildən 6 aya qədər azaldılması ilə bağlıdır. Belə ki, 2 illik müddət çox olduğu üçün bu, işəgötürənlərin proqrama marağını azaldır. Bu baxımdan proqram çərçivəsində şəxsin işləməsi üçün minimum müddət 6 aya kimi azaldılır. Lakin işəgötürən üçün yenə də əmək müqaviləsi üzrə müddətin 50 faizinin maliyyələşdirilməsi öhdəliyi müəyyən edilir. Sosial iş yerlərinin təşkili zamanı üstünlük verilən şəxslərin əhatə dairəsi genişləndirilir və demək olar ki, bu kateqoriyadan olan bütün şəxslərə üstünlük verilir. Hər bir işəgötürən üzrə maliyyələşdirilən sosial iş yerlərinin sayı 10-dan 30-dək artırılır. Digər qanunvericilik aktları Əmək Məcəlləsinə uyğunlaşdırma xarakteri daşıyır.

Hörmətli həmkarlar, beləliklə, "Əmək və məşğulluq" altsistemi vasitəsi ilə aşağıdakı proseslər rəqəmsallaşdırılacaqdır: əmək münasibətlərinin rəsmiləşdirilməsi, əməyin təşkili, əməyin ödənilməsi, əməyin mühafizəsi, məşğulluq

tədbirləri, elektron əmək birjası və əmək yarmarkası, vakansiya bankı, elektron məşğulluq xəritəsi, sosial tərəfdaşlarla iş, məşğulluq sahəsində əməyin sosial-hüquq məsələlərinə nəzarət, məşğul şəxslərin reyestri, vergi, məcburi dövlət sosial sığorta haqları və digər məcburi ödəmələrin həyata keçirilməsinin optimallaşdırılması.

Son olaraq qeyd etmək istəyirəm ki, layihədə nəzərdə tutulan dəyişikliklərə əsasən əmək, dövlət sosial sığorta sistemində, fərdi uçot və məşğulluq sahələrində vahid platforma üzərindən rəqəmsal idarəetmənin tətbiqi digər inzibati orqanlar tərəfindən inzibati icraat çərçivəsində məlumat mübadiləsini asanlaşdırmaqla bu sahədə sürün-dürməçilik, saxtakarlıq, bürokratiya və digər mənfi halların aradan qaldırılmasına gətirib çıxaracaqdır.

Qanun layihəsi Əmək və sosial siyasət komitəsində layihə subyektinin iştirakı ilə ətraflı müzakirə olunmuş, konseptual baxımdan birinci oxunuşun tələblərinə cavab verdiyi qeyd edilmiş və parlamentin plenar iclasına tövsiyə olunmuşdur. Qanun layihəsini dəstəkləməyi sizdən xahiş edirəm. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Musa müəllim, çox sağ olun, çox ətraflı məlumat idi. Hörmətli həmkarlar, xatırladım ki, artıq fasilə vaxtıdır.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Təklif var, fasiləsiz işləyək. Hamı razıdır?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Fasiləsiz işləyirik. Hörmətli həmkarlar, bu qanun layihəsinə daha iki komitədə baxılmışdır. Birinci komitə Hüquq siyasəti və dövlət quruculuğu komitəsidir və komitənin rəyini bildirmək üçün mən sözü Bəhruz Məhərrəmova verirəm. Bəhruz müəllim, buyurun,

komitənin rəyini bildirin.

**B.Məhərrəmov,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü.*

Təşəkkür edirəm, xanım sədr. Komitənin rəyi müsbətdir, səsə qoyulmasını xahiş edirik.

**Sədrlik edən.** Çox sağ olun. Qanun layihəsinə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində də baxılmışdır. Komitənin rəyini bildirmək üçün, Tahir müəllim, mən Sizə söz verirəm. Buyurun.

**T.Mirkişili**. Çox sağ olun, xanım sədr. Hörmətli Musa müəllim kifayət qədər geniş məlumat verdi. Bizim komitənin də rəyi müsbətdir. Həmkarlarımı layihəni dəstəkləməyə dəvət edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Tahir müəllim. Çıxış etmək istəyən var. Zahid Oruc. Zahid müəllim, buyurun.

**Z.Oruc**. Təşəkkür edirəm, hörmətli sədr. Musa müəllim burada, gerçəkdən də, uğurlu, sanballı bir təqdimat etdi. Biz parlamentin VI çağırışının fəaliyyətinin sonunda əmək münasibətləri sistemində inqilabi bir qanun layihəsinə dəyişiklikləri müzakirə edirik. Bəlkə də fərqində deyilik. "Əmək kitabçası" sözü sovet dövrünün xüsusi bir simvolu idi. Biz Sosial Tədqiqatlar Mərkəzində işə başlayanda faktiki olaraq bütün informasiya sistemlərinin artıq bu "Elektron hökumət" portalında olduğunu və buna ehtiyac olmadığına dair sənəd də hazırlayıb təqdim etmişdik ki, bu, vətəndaşlar üçün əlavə maddi itkidir. İndi biz nəinki bir məsələdən, daha köklü, fundamental, bu sahədə həm əmək bazarındakı real statistikanı görməkdən tutmuş kirli mühasibatlığı və sairi – hamısını ləğv edən yaxşı dəyişikliklərdən danışırıq.

Amma hörmətli Etibar müəllim bundan əvvəlki layihənin müzakirəsində maraqlı bir araşdırmasını dedi.

Musa müəllim nitqində “SİMA” deyə bir imzanı ifadə etdi ki, o məlumat kütləsini vətəndaş özünün imzası ilə təsdiq edəcək və bu da pulsuz olacaq. Bilirsiniz, həqiqətən də, buna çox ciddi ehtiyac var. Biz hələ də fərqində deyilik. Amma hər bir nazirlik öz çevrəsində də ayrıca bir elektron xidməti və onun da pullusunu yaratmasın. İndiki halda biz onun pulsuzundan danışırıq. Məsələn, “Elektron imza” və “ASAN imza” var. Bax, biz danışdığımız yerdə, hamımızın imkanı var, bu elektron xidmətdən faydalanaq, yazaq, görək ki, orada bu necədir. Sorğu aparaq, elə bu parlament üzvləri daxil olmaqla, nə qədər insanın elektron və yaxud da “ASAN imza”sı var. Elektron sistemdə sayğac var, sayğac göstərir ki, 3 milyon yarımdan çox insanın “ASAN imza”sı var. Mən, doğrudan, bunu nə təsdiq, nə də inkar edə bilmərəm. Üzərində də sual işarəsi qoymaq istəmirəm. Əlimdə bir data yoxdur ki, deyim, Azərbaycan insanı necədir. Bu, bilirsiniz ki, 18 manat və əlavə 2 manat xidmət haqqı ilə həyata keçirilir.

Etibar müəllimin sözünün mənası daha açıq mətnlə ondan ibarətdir ki, bu xidmətlər vahid bir qurum tərəfindən həyata keçirilsin, ilk növbədə pulsuz olsun. Çünki nə qədər ideologiyalarını pisləsək də, bolşeviklər 1918–1920-ci illərdən sonra gəlib Azərbaycan insanı da daxil olmaqla bütün sovet insanlarını savadlandırıb, maarifləndirib, böyük xidmətlərə, fəaliyyətlərə cəlb edəndən sonra bu işləri görmüşdülər. 18 və yaxud 2 manata görə yüz minlərcə, milyonlarca Azərbaycan insanı bu xidmətdən istifadə etmir.

Bizim hər birimiz, – sadə bir əməliyyat deyim, – bir xidmətdən istifadə edirik. Tutaq ki, ev alğı-satqısından faydalanırıq. Halbuki mindən yuxarı elektron xidmət var. Yeri gəlmişkən, deyim, biz bunun tədqiqini aparmışıq.

Ona görə bu məsələni burada vurğulamaq istərdim. Üzrlü sayın ki, bunu məhz fasilə vaxtında edirəm. Mindən artıq xidmətin beş yüzdən artığı çalışmır. Halbuki bunların böyük təqdimatları olmuşdu. O mənzil alğı-satqısından sonra bizim həmin elektron imzalarımız olsa idi, biz çox rahatlıqla gəlib evdən reyestrdən çıxarışımızı ala bilərdik. Amma biz onu etmirik, sanki, Cəlil Məmmədquluzadənin qəhrəmanları kimi o əsərimizin dalınca, yaxud da məktubumuzun dalınca gedirik. Ona görə də Musa müəllimə təşəkkür edirəm ki, bu təqdimatı etdi. Ancaq bu dövlət qurumları elektron imza məsələsində inteqrasiyanı həyata keçirsinlər ki, vahid imza məsələsindən istifadə olunsun.

Qoy Azərbaycanın 10 milyon insanının elektron imzası olsun. Onların ən başında olan imza da elə cənab Prezidentə məxsusdur. Bu onun platformasıdır. Bununla dediyiniz əmək islahatlarını bu sistemdə aparmaq daha asan olacaq. Mən bunu demək istədim. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Hörmətli həmkarlar, daha çıxış etmək istəyən yoxdur, ona görə mən qanun layihəsini səsə qoyuram. Xahiş edirəm, münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.09 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

Qanun layihəsi birinci oxunuşda qəbul edildi, çox sağ olun.

Növbəti məsələ 10-cu məsələdir. "Yol hərəkəti haqqında" Qanunda və İnzibati Xətalar Məcəlləsində dəyişiklik

edilməsi barədə qanun layihəsidir. Layihəyə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün komitənin üzvü hörmətli Kamal Cəfərova söz verirəm. Kamal müəllim, buyurun.

**K.Cəfərov,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü.*

Çox sağ olun, hörmətli xanım sədr. Müzakirəmizə təqdim edilən qanun layihəsinin iki konseptual məqsədi var. Birincisi, yol hərəkətinin ən müdafiəsiz iştirakçılarının hüquqlarının daha yaxşı qorunması, ikincisi isə, ictimai nəqliyyat vasitəsindən istifadə edən şəxslərin mobilliyinin və komfortunun artırılmasıdır. Bu məqsədlərə çatmaq üçün üç istiqamət üzrə qanunvericilik tədbirləri təklif edilir.

Birinci istiqamət velosiped və skuterlərlə bağlıdır. Bildiyiniz kimi, artıq Bakı şəhərinin bir sıra ərazilərində velosiped yolları çəkilir. Bu yolların hüquqi əsasının təmin edilməsi və yol hərəkəti sisteminə tam inteqrasiyası məqsədi ilə velosiped yolunun anlayışı verilir.

İkinci təklif skuterlərlə bağlıdır. Kiçik elektron nəqliyyat vasitəsinin anlayışı və vəzifələri müəyyən edilir. Həmin skuter dediyimiz kiçik elektron nəqliyyat vasitələri sərnişin daşıya bilməz. Daşıdığı yükün həcminə məhdudiyyət qoyulur, sürət rejiminin isə velosiped zolağında 20 km/saat, park və həyət ərazilərində 10 km/saat olması təklif edilir. Sürət həddi və digər tələblərə ilkin nəzarətin təmin edilməsi üçün "kiçik elektron nəqliyyat vasitələrinin operatoru" anlayışı müəyyən edilir. Bu operator skuteri təqdim edərkən elə formada təqdim etməlidir ki, sürücü istəsə də müəyyən olunmuş ərazilərdə müəyyən edilmiş sürət həddini keçə bilməsin.

İkinci istiqamət parklanma sahəsi ilə bağlıdır. Sui-

istifadə hallarının qarşısının alınması məqsədi ilə fərqli parklanma talonunun verilməsi mexanizmi elektronlaşdırılır. Yəni sürücülər bundan sonra talonu avtomobilin görünən yerinə qoymaq məcburiyyətində qalmayacaqlar. Bu istiqamət üzrə təklif edilən ən mühüm dəyişiklik 15 dəqiqəlik pulsuz parklanma ilə bağlıdır. Bildiyiniz kimi, bəzi hallarda parklanmanın həqiqi müddəti ilə bağlı sürücülər və dövlət qurumu arasında potensial mübahisələr ola bilirdi və bu cür mübahisələrin qarşısının alınması məqsədi ilə sürücü parklanma yerinə daxil olduğu zaman SMS və ya xüsusi proqram vasitəsi ilə parklanma müddətini başlatmalı və tərk etdiyi zaman sonlandırmalıdır. Sistem isə pulsuz parklanma müddətini dəqiqliklə müəyyən edərək sürücülərin narahatlığını tam aradan qaldıracaq.

Sonuncu istiqamət isə cərimələrlə bağlıdır. Bu istiqamətin əsas mahiyyəti belədir: hər kəs öz yerində saxlamalıdır. Parklanma cəriməsi 10 manatdan 20 manata artırılır. Təhlillər göstərir ki, sürücünün ödəyəcəyi parklanma tarifi ilə cərimə arasındakı fərq xüsusi risk yaratmırsa, sürücülər risk etməyə meyilli olur. Əgər 20 manat cərimə sürücünü çəkindirirsə, onda qanun da öz məqsədinə çatacaq, həm də vətəndaşlar cərimədən çəkindiyi üçün daha əvvəlki riskə getdiyi 10 manatı da itirməyəcəklər.

Digər tərəfdən, əlillər üçün müəyyən olunan yerdə parklanmaya görə olan 10 manat cərimənin 60 manata qaldırılması təklif edilir. Nəzərə alsaq ki, əlillər üçün adətən bir parklanma yeri olur, bu baxımdan bu cərimənin də artırılması ədalətli hesab edilə bilər. Taksilər üçün nəzərdə tutulan yerlərdə taksidən başqa parklanmaya görə təklif edilən cərimə 40 manatdır. Bu günə qədər taksilər

üçün nəzərdə tutulan yerlərdə saxlanmaya, parklanmaya görə cərimə yox idi. Avtobusun içərisində bəzən ən azı 50 sərnişin olur, onların yoluna bir sürücü daxil olur və ən azı 50 nəfərin hüququ pozulurdu, cəriməsi isə 40 manat idi. İndi isə bunun da 100 manat olması təklif edilir, çünki həmin bir nəfər çəkinsin.

Bütün detallar, cərimələr və konseptual təkliflərin hamısı qanun layihəsində geniş göstərilib. Təklif edilən cərimələrin yeganə hədəfi qanunun məqsədinə nail olmaq, yol hərəkətində intizamı təmin etmək, hər kəsin hüququnu daha yaxşı qorumaqdır. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, çox vacib qanundur. Mən, ümumiyyətlə, hesab edirəm ki, Əli müəllim, bununla bağlı həm də müsahibələr verilməlidir, cəmiyyətə də çatdırılmalıdır.

Çıxış etmək istəyən yoxdur. Hörmətli həmkarlar, mən qanun layihəsini birinci oxunuşda səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.14 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 1 |
| Səs vermədi | 0 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Əli müəllim, bayaq mən dedim, müsahibələr verilsin. Layihə birinci oxunuşdadır, indi ya birinci oxunuşun qaydalarına uyğun olaraq məlumat verilməlidir, ya da üçüncü oxunuşdan sonra. İndi, baxaq, ikinci oxunuşda

düzəlişlər olacaq, ya olmayacaq. Ancaq mütləq “Parlament saatı”nda – bizim proqramımızda da bununla bağlı məlumat vermək lazımdır.

Hörmətli həmkarlar, növbəti məsələyə keçirik. Bu, “Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında” Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Bu layihəyə də Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılıb və məsələyə dair məlumat vermək üçün mən komitənin üzvü Elşən Musayevə söz verirəm. Elşən müəllim, buyurun, layihə ilə bağlı məlumat verin.

**E.Musayev,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü.*

Təşəkkür edirəm, xanım sədr. Hörmətli həmkarlar, haqqında danışılan və müzakirəyə çıxardığımız layihə “Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında” Qanuna dəyişikliyi nəzərdə tutur. Dəyişikliyə biz texniki mahiyyətli də deyə bilərik və həmin dəyişiklik yalnız 32-ci maddəyə aiddir. Mahiyyət və məqsəd də ona istiqamətlənib ki, narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının bir neçə komissiya tərəfindən məhv edilməsi üçün hüquqi əsas yaransın. Daha dəqiq desəm, layihəyə əsasən həmin komissiyaların müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan tərəfindən yaradılması təklif edilir. Əsaslar isə qanunun 7.1.4-cü maddəsində tam təfsilatlı şəkildə göstərilib. Qanun layihəsi komitədə müsbət rəy alıb. Hörmətli həmkarlarımdan da dəstək vermələrini xahiş edirəm.

**Sədrlik edən.** Elşən müəllim, sağ olun. Çıxış etmək istəyən yoxdur. Mən qanun layihəsini səsə qoyuram. Buyurun, münasibət bildirin.

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.16 dəq.) |
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi. 12-ci məsələ Ailə, Cinayət və İnzibati Xətalar məcəllələrində dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə Ailə, qadın və uşaq məsələləri komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün, Hicran xanım, mən yenə də sözü Sizə verirəm. Buyurun.

**H.Hüseynova.** Hörmətli sədr, hörmətli həmkarlar, media nümayəndələri. İlk növbədə icazə verin, Sahibə xanım, Sizə öz təşəkkürümü bildirim. Sizin təşəbbüsünüzlə biz dünən bu qanun layihəsinin geniş ictimai müzakirəsini keçirdik və bir çox vacib məsələlər səsləndi, təkliflər verildi. Belə bir müzakirəyə çox böyük ehtiyac var idi. Bir daha Sizə və bütün həmkarlara, ayrı-ayrı komitələrin nümayəndələrinə, iştirak edən hər kəsə öz təşəkkürümü bildirirəm.

Qanun layihəsi ilə bağlı bildirmək istərdim ki, çox böyük əhəmiyyət kəsb edir və təqdim olunan qanun layihəsində Ailə Məcəlləsinin 10.2-ci maddəsinin ləğv edilməsi təklif olunur. Həmin maddədə qeyd edilir ki, üzrlü səbəblər olduqda nikaha daxil olmaq istəyən nikah yaşına çatmamış şəxslərin yaşadıqları ərazinin müvafiq icra hakimiyyəti orqanı onların xahişi ilə nikah yaşının bir ildən çox olmayaraq azaldılmasına icazə verə bilər. Təcrübə göstərir ki, belə bir imkanın qanunvericilikdə

mövcud olması uşaqların, xüsusilə də qızların erkən nikaha cəlb olunmasına dolayısı ilə şərait yaradır.

Möhkəm və sağlam ailə həm də güclü cəmiyyət və dövlət deməkdir. Lakin əfsuslar olsun ki, hələ də ölkəmizdə erkən nikah halları var. Erkən nikahların mənfi təsirləri və fəsadları kifayət qədərdir. Bu, qızların fiziki, psixoloji və reproduktiv sağlamlığına, sosial həyatına, özünü bir şəxsiyyət kimi ailə və cəmiyyətdə təsdiq etməsinə bir sıra problemlər yaradır. Belə ailələrin böyük hissəsi uğursuz olur, boşanma, zorakılıq və intihar halları çoxalır. Əlbəttə, bütün bunlar digər riskləri də artırır, çünki o ailələrdə böyüyən qızların heç bir savadı, təhsili yoxdur, bir çox hallarda isə öz ailələri də onlara arxa çıxmır. Onlar öz gündəlik tələbatlarını reallaşdırmaq üçün çətinliklərlə qarşılaşırlar. Bəzi hallarda bu cür şəxslər cinayətkar insanların təsir dairəsinə də düşürlər, yaş azlığı, təcrübəsizlik və savadsızlıq səbəbi ilə onlar hətta insan alverinin qurbanı da ola bilirlər.

Dövlət Statistika Komitəsinin 2015-ci ildə keçirdiyi qızların erkən nikaha daxil olması və rəsmi nikahdan kənar doğum hallarının öyrənilməsinə dair statistik müayinənin nəticələrinə görə, erkən yaşda nikaha daxil olan qadınların 44 faizini yerli icra hakimiyyətlərinin qərarı ilə nikah yaşı azaldılaraq rəsmi nikaha daxil olanlar və 56 faizini isə qeyri-rəsmi nikahda olanlar təşkil etmişdir. Onlardan 20,2 faizi şəhər, 79,8 faizi kənd sakinləridir.

Biz qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi, uşaq hüquqları, uşaqların cinsi istismardan və cinsi zorakılıqdan müdafiəsi ilə bağlı mühüm beynəlxalq konvensiyalara qoşulmuşuq. Uşaq hüquqlarının qorunması ilə bağlı normativ hüquqi aktlar qəbul etmişik.

Azərbaycan Prezidentinin sərəncamı ilə “Uşaqlara dair Strategiyanın həyata keçirilməsi üzrə 2020–2025-ci illər üçün Fəaliyyət Planı” və “Azərbaycan Respublikasında məişət zorakılığı ilə mübarizəyə dair 2020–2023-cü illər üçün Milli Fəaliyyət Planı” təsdiqlənibdir. Həmçinin Davamlı İnkişaf Məqsədlərinin 5-ci məqsədində hədəflərdən biri də belə nikahların aradan qaldırılmasıdır. Azərbaycan da daxil olmaqla, əksər dövlətlər həm kişilər, həm də qadınlar üçün nikah yaşının minimum 18 yaş olmasını qəbul ediblər. 18 yaşına çatmayan hər bir şəxs uşaq sayılır. Digər tərəfdən, bütün sənədlərdə də bəyan edilir ki, erkən nikah ənənəvi, dini, mədəni və ya digər iqtisadi səbəblərlə əsaslandırıla bilməz.

Ümumiyyətlə, evliliyə dair həqiqi razılıq vermək iqtidarında olmayan şəxsin nişanlanmağa və ya nikaha daxil olmağa məcbur edilməsi həmin şəxsin konstitusion hüquqlarının pozulmasıdır. Bu onun təhsil almaq, işləmək, özünü inkişaf etdirmək və digər hüquq və azadlıqlarının əlindən alınması deməkdir. Ona görə də qanunvericilikdə belə bir dəyişiklik edilməsi çox vacibdir.

Digər mühüm məsələ qohum evliliyidir. Ailə Məcəlləsinin 12.0.1-ci maddəsinə əsasən yaxın qohumlar arasında nikah qadağan edilmişdir. Yaxın qohumlar dairəsinə yalnız valideynlər və uşaqlar, baba, nənə və nəvələr, doğma və ögey ümumi ata və anası olan qardaş və bacılar aid edilmişdir. Cəmiyyətdə ailə və ya dini adət-ənənələrin qorunub saxlanması və bu kimi digər səbəblərdən qohumların nikahı daha çox arzu olunan və etibarlı evlilik seçimi kimi qəbul edilir.

Buna baxmayaraq, ata və ananın qardaşları və ya bacıları ilə həmin ata və ananın övladları arasında – üçüncü dərəcəli qohumlar, həmçinin ata və ananın qardaşları və

ya bacılarının övladları ilə həmin ata və ananın övladları arasında – dördüncü dərəcəli qohumlar olan nikahın tibbi fəsadlarını nəzərə alaraq bu cür nikahlar arzuolunan hesab edilmir.

Bu problemin qarşısının alınması yollarından biri üçüncü və dördüncü dərəcəli qohumların ailə hüququ münasibətlərində yaxın qohumlar dairəsinə daxil edilməsi və bununla da bu cür qohumlar arasında nikahın qadağan olunmasıdır.

Biz bir neçə ölkənin də təcrübəsini araşdırmışıq. Belə ki, Türkiyə Respublikasında, Gürcüstanda, Ukraynada, İspaniyada, Bolqarıstanda, ingilisdilli ölkələrdə, o cümlədən Böyük Britaniyada və digər ölkələrdə üçüncü dərəcəli qohumların nikaha daxil olması qadağandır. Amerika Birləşmiş Ştatlarında da üçüncü dərəcəli qohumların hər hansı münasibəti insest hesab edilir və əksər ştatlarda bununla bağlı cinayət məsuliyyəti müəyyən olunur.

Asiya ölkələrindən Çin, Tayvan, Cənubi Koreya, Vyetnam və Tacikistanda, Avropa ölkələrindən isə Rumıniya, Bolqarıstan, Serbiya və Makedoniyada dördüncü dərəcəli qohumlar arasında nikah qadağan edilmişdir.

Ümumilikdə, ölkələr üzrə rəsmi statistikalara nəzər saldıqda yaxın qohumlar arasında nikahın Yaxın Şərq və Afrika ölkələrində daha çox yayılmış olduğu görünür. MDB ölkələrində qohum nikahlarına daha çox Azərbaycanda və Mərkəzi Asiya dövlətlərində rast gəlinir. Ölkədə irsi xəstəliklərin yayılma tempi 15 faiz təşkil edir. Son 15 ildə 0–13 yaşlı uşaqların hər 10 min nəfərinə düşən anadangəlmə anomaliyalar, inkişaf qüsurları, deformasiyalar və xromosom pozuntuları kimi xəstəliklərin sayı 3,3 promil artmışdır.

Məlumdur ki, insan sağlamlığı, reproduktiv sağlamlıq

istənilən ölkə üçün təkcə səhiyyə baxımından deyil, həm də mühüm sosial-iqtisadi əhəmiyyətə malikdir.

Təqdim olunan qanun layihəsində nikah yaşının 18 yaş olduğu nəzərə alınaraq yetkinlik yaşına çatmayanlarla qeyri-rəsmi erkən nikaha daxil olan şəxslər və buna şərait yaradan valideynlər barəsində İnzibati Xətalar Məcəlləsində və Cinayət Məcəlləsində məsuliyyət tədbirlərinin əks olunması, yetkinlik yaşına çatmayanların dini nikaha daxil olmasına şərait yaradan din xadimləri üçün məsuliyyətin müəyyən edilməsi, belə toy məclislərinin təşkil olunduğu məkan sahibləri üçün məsuliyyətin nəzərdə tutulması təklif olunur.

Məcəlləyə təklif edilən 176-2-ci maddədə 16 yaşına çatmayan şəxsin erkən evliliyinin təşkilinə görə valideynlər və ya yetkinlik yaşına çatmayanları tərbiyə etmək vəzifəsi daşıyan şəxslər və ya erkən evliliyə daxil olan yetkinlik yaşına çatmış şəxs üçün məsuliyyət müəyyən edilir.

Təcrübədə bir çox hallarda yetkinlik yaşına çatmayanlar barəsində keçirilən elçilik, nişan mərasimlərinin qarşısının alınması məsul dövlət orqanları üçün çətinliklər yaradır. Bu cür mərasimlər faktiki ailənin qurulması halı olmasa da, uşaq hüquqlarının məhdudlaşdırılmasına, təhsildən yayınmaya, uşaq psixologiyasında ciddi fəsadlara səbəb olur. Bu əməllərin qarşısının alınması üçün İnzibati Xətalar Məcəlləsinə 189-1-ci maddənin daxil edilməsi təklif olunur.

Həmçinin ictimai obyektləri idarə edən şəxslər tərəfindən erkən evliliklə bağlı nişan, toy və digər mərasimlər keçirilməsinə və yetkinlik yaşına çatmayan şəxslər barəsində dini kəbinkəsməyə görə inzibati tənbeh nəzərdə tutan 189-2-ci və 189-3-cü maddələrin məcəlləyə əlavə edilməsi erkən evliliklə mübarizədə mühüm addımlardan

biri olacaqdır.

Hörmətli xanım sədr, həm komitə iclasında, həm də dünən ictimai dinləmə zamanı Daxili İşlər Nazirliyi tərəfindən vacib təklif irəli sürülmüşdür. Belə ki, qurum təklif edir ki, 16-18 yaşlı yetkinlik yaşına çatmayan şəxslər barəsində də erkən evliliyin təşkili və yaxud evliliyə dair sövdələşməyə daxil olmağa görə həmin şəxsin və ya erkən evliliyə daxil olan digər şəxsin valideynləri üçün məsuliyyət tədbirləri nəzərdə tutulsun. Layihədə isə yalnız 16 yaşına çatmayan şəxs barəsində həmin əməllər törədildikdə onun valideynləri üçün məsuliyyət müəyyən olunub. Yəni 16-18 yaş arası olan şəxs barədə həmin əməllər törədildikdə onun valideynləri üçün məsuliyyət müəyyən olunmayıb. Bu hal müəyyən qanunsuz əməllərə səbəb ola bilər.

Eyni zamanda, qurum təklif edir ki, evliliyə daxil olmaq niyyətində olan yetkinlik yaşına çatmış şəxsə münasibətdə bu şəxslə zərərçəkmiş şəxs arasında yaş fərqi tələbi aradan qaldırılsın. Belə ki, təqdim olunan layihədə evliliyə daxil olmaq niyyətində olan yetkinlik yaşına çatmış şəxsə münasibətdə bu şəxslə zərərçəkmiş şəxsin yaş fərqi 5 ildən çox olduqda məsuliyyət nəzərdə tutulub. Bu da yenə sui-istifadə hallarına yol aça bilər. Buna görə də biz qanunvericilik subyekti ilə bu təklifləri müzakirə etməyi düşünürük.

Qeyd edim ki, qanun layihəsi komitəmizdə müvafiq dövlət qurumlarının və Milli Məclis Aparatının məsul şəxslərinin iştirakı ilə geniş müzakirə olunmuşdur. Layihə birinci oxunuşda baxılması üçün Milli Məclisin müzakirəsinə tövsiyə edilmişdir. Məlumatı nəzərə almağınızı xahiş edirəm. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Hörmətli həmkarlar, qanun

layihəsinə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində də baxılıb. Komitənin rəyini bildirmək üçün komitənin üzvü hörmətli Əminə xanım Ağazadəyə söz vermək istəyirəm. Əminə xanım, buyurun.

**Ə.Ağazadə,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü.*

Təşəkkür edirəm. Hörmətli Sahibə xanım, hörmətli həmkarlar. Layihənin əhəmiyyəti barədə hörmətli Hicran xanım ətraflı şəkildə məlumat verdi. Mən isə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində müzakirə edilmiş Cinayət və İnzibati Xətalar məcəllələrinə təklif edilən dəyişiklikləri təqdim etmək istərdim.

Qeyd edilən məcəllələrə təklif edilən dəyişiklik cəza və inzibati tənbeh məqsədi ilə yetkinlik yaşına çatmayan, xüsusilə 16 yaşına çatmayan şəxslərin əleyhinə olan əməllərin qarşısının alınması istiqamətində cəza siyasətinin təkmilləşdirilməsindən ibarətdir. Burada qüvvədə olan Cinayət Məcəlləsinin 176-1-ci maddəsi, yəni "Qadını nikaha daxil olmağa məcburetmə" maddəsi təkmilləşdirilərək mövcud cəzanın kişiləri də nikaha daxil olmağa məcburetməyə görə nəzərdə tutulması təklif edilib. Buna qədər maddənin redaksiyasında yalnız qadınlar nəzərdə tutulurdu.

Bu maddədə yenilik həm də ondan ibarətdir ki, "erkən evlilik" anlayışı verilərək bunun "yetkinlik yaşına çatmayan şəxslə nikah bağlamadan ailə qurmaq məqsədi ilə yaradılan ittifaq" olduğu müəyyən edilir.

Eyni zamanda, Cinayət Məcəlləsinə yeni 176-2-ci maddənin, yəni "16 yaşına çatmayan şəxsin erkən evliliyinin təşkili" maddəsinin əlavə edilməsi təklif olunur. Hörmətli həmkarlar, burada bir məsələni sizin nəzərinizə çatdırmaq istəyirəm. Qüvvədə olan qanunvericiliyə

əsasən, yəni Cinayət Məcəlləsinin 152-ci maddəsinə əsasən 16 yaşına çatmayan şəxslə könüllü cinsi əlaqədə olma cinayət məsuliyyətinə səbəb olur. Lakin 16 yaşına çatmayan şəxsin artıq könüllü cinsi azadlıq hüququ vardır. Yəni bu baxımdan əlavə edilməsi təklif edilən 176-2-ci maddədə məhz 16 yaşına çatmayan şəxsin erkən evliliyinin təşkilinə görə cinayət məsuliyyəti nəzərdə tutulur. Hicran xanım subyektləri artıq qeyd etdi, təkrar etmək istəmirəm.

Bu maddəyə olan qeydlə bağlı onu demək istəyirəm ki, bizim Hüquq siyasəti və dövlət quruculuğu komitəsində də ictimai dinləmələrdən öncə iclas keçirilmişdi və geniş müzakirə olunmuşdu. Məhz bizim deputatlar tərəfindən təkliflər irəli sürülmüşdür. Biz bu məsələ ilə bağlı qanunvericilik təşəbbüsü subyektinə artıq müraciət etmişik. Gələcəkdə hansı nəticəni əldə etsək, sizə onu əlavə bildirəcəyik. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Hörmətli həmkarlar, biz komitələrin məlumatını və rəyini də dinlədik. İndi isə müzakirəyə keçirik. Sadəcə, xatırladım ki, bu, qanun layihəsinin müzakirəsidir, yəni dinləmə deyil. Xahiş edirəm, birinci oxunuşun tələblərinə uyğun olaraq konseptual formatda da çıxış etmək lazımdır. Fazil Mustafa. Buyurun, Fazil müəllim.

**F.Mustafa.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. Xatırladım ki, bu məsələ bizim çox hörmətli komitə sədrimiz və Sosial Tədqiqatlar Mərkəzinin rəhbəri Zahid Orucun moderatorluğu ilə Ailə, qadın və uşaq məsələləri komitəsi tərəfindən Sosial Tədqiqatlar Mərkəzində  çox geniş müzakirə olunmuşdur. Orada da ictimai dinləmə keçirilmişdir, çıxışlar olmuşdur. Sevindirici haldır ki, qısa müddət ərzində bu məsələ qa-

nunvericilik səviyyəsində Milli Məclisə də təqdim olundu, komitədə müzakirə edildi və hörmətli Hicran xanım da çox əhatəli, çox yüksək səviyyədə bir təqdimat etdi.

Mən bu dəyişikliyi çox cəsarətli bir dəyişiklik hesab edirəm, alqışlayıram. Buna dəstək verəcəyəm. Burada bəzi nüanslar var ki, ona da öz fikrimi bildirmək niyyətindəyəm.

Ümumiyyətlə, bir şeyi xatırlatmaq istəyirəm ki, sovet rejiminin çox mənfur, mürtəce qanunları, insan həyatına müdaxilə edən cəhətləri olsa da, cəhalətə qarşı mübarizə aparmaq istiqamətində atdığı addımların çox az hissəsini biz mənimsəmişik. Ona görə də bu gün dünyəvi dövlətin prinsipləri bir çox hallarda dini prinsiplərin qarşısından geri çəkilməkdədir. Bu da ölkəmiz üçün böyük təhlükə yaradır. Gələcəkdə bunun nəticələrini görəcəyik.

Təbii ki, biz mənəvi dəyərlərimizə hörmət etməliyik və şəxsi həyatımızda bunu etməyə çalışırıq. Amma dünyəvi dövlətin qorunması istiqamətində addım atmaq, birinci, ailə institutunun qorunmasından başlayır. O baxımdan da erkən nikah məsələsində atılan bu addımlar çox ciddi addımlardır. Burada 17 yaş məsələsinin qaldırılması, 18 yaşın olması müsbət bir tendensiyadır. Amma burada, fikrimcə, 16–17 yaşdan sonrakı dövrdə insanların sövdələşmə, hansısa nişan, hansısa mərasim keçirməsini əngəlləmək də yanlış olardı. Çünki bizim qanunvericiliyin tələbi odur ki, 18 yaşından faktiki evliliyə başlanılsın, yəni əsas məsələ bundan ibarətdir. Ona görə də hədsiz məhdudlaşdırma sonradan insanların həyatında ciddi problemlər ortaya qoya bilər.

Burada dini nikahlarla bağlı məsələdə, məncə, bir az daha fərqli davranmalıyıq. Dəyərlərimiz nədir? Biz əgər dəyərləri "Qurani-Kərim"dən götürsək, ümumiyyətlə,

Azərbaycan qadınının bugünkü bir çox problemləri yaşamasına səbəb olan prinsipləri bir çox hallarda orada görürük, əgər hərfi mənada tətbiq etsək. Əslində, sovet dövrünün məhz cəhalətə, xurafata qarşı apardığı mübarizə nəticəsində bu gün Azərbaycan qadını bir şərəfli mövqe tutmaqdadır, daha çox təhsil almaqdadır, daha çox yaşamaqdadır.

Baxın, Əhzab surəsinin 33-cü ayəsində nə deyilir: "Evinizdə oturun, keçmiş cahillik adətlərində olduğu kimi açılıb saçılmayın".

Talaq surəsinin 1-ci ayəsində deyilir: "Onları evlərindən çıxarmayın, onlar da çıxmasınlar". Yəni qadınları.

Vəssalam, bu o deməkdir ki, Azərbaycan qadını ictimai-siyasi həyatda, ümumiyyətlə, yoxdur.

Təbii ki, biz bu dəyərlərə bütövlükdə müasir baxışdan baxmağı dinə də təklif edən insanlarıq. Ona görə də bu cür məhdudiyyətlərin dünyəvi dövlətin prinsiplərinə müdaxilə etməsinə yol verməyək. Odur ki, dini nikahın yetkinlik yaşına çatmayan şəxslərlə bağlı, ümumiyyətlə, qadağan olunması çox önəmlidir. Sonrakı mərhələdə də insanları bu istiqamətdə tərbiyələndirməliyik. Təbii ki, din həyatdır, öz şəxsi işindir, yaşaya bilərsən. Amma məsələyə müasir insan hüquqları kontekstində elə baxılmalıdır ki, bu, insan həyatına zərər vurmasın.

Burada qohumlarla evlilik məsələsində də, məsələn, deyək ki, "Quran"da süd anaları, süd bacıları, xalalar, bibilər nəzərdə tutulur. Yeni təklifdə nəzərdə tutulan xalaqızıları, bibiqızıları ilə evlənmə məsələsinin tibbi nöqteyi-nəzərdən törətdiyi fəsadlar əslində, say etibarı ilə statistikada böyük deyil. Yəni biz bunu o motivlə də, əslində, qəbul etməməliyik. Amma biz millətin gen fondunun genişlənməsi, dar çərçivədən çıxması məsələsini

həll etməliyik.

Erkən evlilik niyə baş verir, yaxud da qohum evliliyi niyə baş verir? Bu, sosial məsələdir. Azərbaycanda insanların sosiallaşma imkanları o qədər məhdudlaşıb ki, yaxın qohumlardan ibarət bir çevrədən kənara çıxa bilmirlər. Biz bu çevrəni aşmalıyıq. Bunun üçün də mədəni səviyyəni kəndlərdə, rayonlarda, hər yerdə yüksəltməliyik, insanların sosiallaşması perspektivlərini yaratmalıyıq. Bu baxımdan mən hesab edirəm ki, bu, əslində, qanunvericilikdən daha çox insanların mədəni həyata qarışmasını təmin etməkdir.

Rayonlarda, kəndlərdə mədəniyyət evləri ölü vəziyyətdədir. Bir çox hallarda insanların öz təşəbbüsləri olmur. Dövlət tikir, qurur, hər şey yaradır. Amma insan bunu istəməyəndən sonra, dünyagörüşü buna hazır olmayandan sonra o, nəyə yarayır? Biz, inanın ki, bu barədə ötən əsrin 40-cı illərindən, 50-ci illərindən çox geridəyik. Ona görə də insan nə edir? Ancaq əmiqızını tanıyır, xalaqızını tanıyır. Evlənəndə də bu çevrədən kənara çıxmır. Ona görə də biz sosiallaşma mühiti barədə düşünməliyik. Qanunvericilikdə nə qədər sərt qayda qoyuruqsa, qoyaq, yaxın zamanlarda bunun səmərəsini görə bilməyəcəyik.

Bu baxımdan mən hesab edirəm ki, mütərəqqi dəyişiklikdir. Bunu hər halda, bütün hallarda dəstəkləmək lazımdır. Biz bir az da dünyəvi dövlətin prinsiplərini qoruyacaq istiqamətdə daha cəsarətli addımlar atmağa çalışmalıyıq. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Sağ olun, Fazil müəllim. Zahid Oruc. Buyurun.

**Z.Oruc.** Təşəkkür edirəm. Hörmətli sədr, dəyərli millət vəkilləri. Gerçəkdən də, həyati vacib layihələri müzakirə edirik. Bunlar, deyildiyi kimi, mənəvidir, sosialdır, icti-

maidir. Ötən dəfə də bu tribunadan səsləndirmişdik, sovet dövründə məşhur bir ifadə idi: “Ailə kiçik dövlətdir”. Amma onun əlavəsi “dövlət də böyük ailədir”. Həqiqətən də, kiçik ailənin problemləri olanda bunu dövlət öz həyatında yaşayır.

Amma indi mən verilən vaxt çərçivəsində qeydlərimi sizinlə bölüşmək istəyirəm. Sonda erkən evliliklərlə bağlı bir tarixi faktı da səsləndirməyə çalışacağam.

Ailə Məcəlləsinə təklif edilən hazırkı dəyişiklikləri millətimizin demoqrafik və bioloji təhlükəsizliyinə xidmət edən tarixi akt hesab edirik. Məhz Prezidentin imzası və təşəbbüsü ilə sənədin parlamentə daxil olması göstərir ki, ölkə rəhbəri sağlam və möhkəm ailə institutunu birinci sıraya qoyur.

Əvvəla, Avropa ölkələrinin qadağan olunmayan nümunəsi qüsurludur. Gerçək statistikaya baxsaq, Qərb dövlətlərində, məsələn, Britaniyada belə evliliklər çox azdır, çünki ənənələr, mədəniyyət sistemi özü buna yol vermir. Lakin digər nümunələr də var.

2009-cu ildə aparılan araşdırmaya əsasən ərəb ölkələrində qohum evlilikləri yüksək nisbətə malikdir və nikahların 30 faizə qədərini əhatə edir. İraqda ilk əmiuşağı evliliyi 33 faiz təşkil edir.

Körfəz ölkələri potensial evli cütlüklərin genetik müayinədən keçməsini tələb edir. Qətər 2009-cu ildən məcburi test tətbiq edib. Dubayda yerləşən Ərəb Genomik Tədqiqatlar Mərkəzinin hesabatında ərəblərin dünyada ən yüksək genetik pozuntu nisbətinə sahib olduğu, üçdə ikisinin qohumluqla əlaqəliliyi aşkara çıxıbdır.

Sənəddə vurğulanır ki, belə nikahların artması qəbilə ənənələri və iqtisadi amillərlə birbaşa bağlıdır. Zənginlər varlı və öz qohumlarına ərə getməyə meyillidirlər, sərvət-

lərini qorumağı sevirlər.

Qohum evlilikləri, eyni zamanda, iqtisadiyyatı qapalı, savadsızlıq səviyyəsi yüksək, məlumatsız cəmiyyətlərdə də xüsusi çəkiyə malikdir. Pakistanda və Hindistanda qohumluq nisbəti 50 faizdən yuxarıdır. UNICEF-in Uşaq Ölümünün Qiymətləndirilməsi üzrə 2017-ci il hesabatına əsasən Pakistan dünyada ən yüksək neonatal ölüm nisbətinə malikdir və hər 1000 nəfərə 46 uşaq ölümü düşür.

Tarixə qayıtsaq, Misir fironlarının sülaləsinin məhv olması səbəblərindən biri də qohumlar arasında evliliyin olduğu göstərilir. Genetiklər kral sülalələrində qohum nikahların fizioloji anomaliyalara səbəb olduğunu, uşaqların irsi xəstəlikdən əziyyət çəkdiyini indi tədqiqatlarla sübut edirlər.

İslamlaşma ilə bağlı hörmətli Fazil müəllim burada bir neçə ayədən misal gətirdi. Əmioğlu və əmiqızı nikahının müsəlmanlarda təhlükəsizlik, özünüqoruma amilinə çevrildiyi, iqtisadi fayda gətirdiyi, cehiz və digər öhdəliklərdən azad etdiyi qabardılmağa başlandı. Təbii ki, bu ondan əvvəl də olub. Risklərə rəğmən, qohum evliliklərinin sabit nikah münasibətləri, ailənin maddi problemlərini azaltması, nikahın asanlığı, qadın müstəqilliyini artırması, qayınata və qayınana ilə tez uyğunlaşma, daha az məişət zorakılığı, daha az boşanma nisbətləri kimi sosial və mədəni faydalara malik olduğu təbliğ edildi və indi də həmin arqumentlər layihənin əleyhinə çıxış edənlər tərəfindən vurğulanır.

Sorğu keçirsək, parlament üzvləri arasında da, mən daxil olmaqla, qohum evliliklərinin övladları təmsil olunur. Ona görə də kimin necə çıxış etməsi özü də bir testdir, sanki doğma qan çağırır.

Peyğəmbər əleyhissalamın sevimli qızı Fatiməni ata

tərəfdən əmisi oğlu Əliyə ərə verməsi bir çoxlarının istinadgahına çevrilib. Kaş ki, müqəddəslərimizin imanı, əxlaqı və ədaləti də belə təbliğ olunaydı. Bu evlilikdən, tarixdən bilirsiniz, sağlam və nəcib övladlar dünyaya gəlib. Əlbəttə, qüsurlu uşaqların doğulması təkcə qohumluqla bağlı deyil, ər-arvadın əcdadlarının gen vasitəsi ilə ötürülən xəstəlikləri də burada rol oynayır. Buna görə də ailə ağacları yaradılır. Əli və Fatimənin nümunəsində peyğəmbər onların əcdadlarının sağlam olduğuna və bu evliliyin təhlükəsizliyinə əsaslanmışdı.

Biz ölkəmizin kiçik olması arqumentini burada keçərli hesab etmirik.  Əhalisi 500 min nəfər olan ölkələr var. Biz 10 milyondan çoxuq. Qohum evliliyinin ləğvi yeni qurulacaq ailələrin azalmasına səbəb olmayacaq. Çünki "qadağan olunan qohum nikahları" deyilərkən nənə-babası eyni olan 3-cü və 4-cü dərəcəli qohumlardan söhbət gedir. Ona görə də yasağın əcnəbilərlə nikahı stimullaşdıracağını iddia edənlər əsassızdırlar.

1999-cu ilin məlumatına əsasən 4 və daha çox uşağın sayı 213 min 900 təşkil etdiyi halda, 2009-cu ildə onların sayı 126 min 700 olub. Göründüyü kimi, azalma 100 minə yaxındır və deməli, əmiuşaqlarının, dayıuşaqlarının sayında da azalma var.

Təəssüf ki, ölkəmizdə tayfaçılıq xüsusiyyətləri hələ də cəmiyyətimizə xasdır və bu, hər şeyi izah edir. Bir çox azərbaycanlılar "kənar adamlara" inamsızdırlar, əmiuşaqlarının nikahının göylərdə kəsildiyinə hələ də inanırlar. Bu da onların qapalı icmaya daxil olmasından qaynaqlanır. Onlar deyirlər ki, qohumlardan başqa hamısı yaddır.

İnsan hüquqlarına gəlincə, mən bunu xüsusi vurğulamaq istəyirəm. Ən böyük haqqı pozulan gələcəkdə xəstə doğulacaq uşaqlardır. Təmsil etdiyim mərkəzin keçirdiyi

tədbirdə Hematologiya və Transfuziologiya İnstitutunun rəhbəri söylədi ki, o cür evlənməyə cəlb edilən, yaxud sevdikləri iddia olunan cütlüklər bircə dəfə onların müəssisəsinə gəlsəydilər, qərarlarına yenidən baxardılar.

Qanun layihəsini müdafiə edirəm. Nişanlanma və erkən evliliklərlə bağlı məsuliyyət tədbirlərini də alqışlayırıq. Həm məktəblərimiz, həm məscidlərimiz, həm müəllimlərimiz, həm də din adamlarımız bunu cəmiyyətimizə düzgün izah etməlidirlər. Qohum evliliyinə deyil, evlənib qohum olmağa daha çox üstünlük vermək lazımdır.

Sonda, hörmətli sədr, üzrlü sayın, doğrudan, vaxtı da bir qədər keçmişəm. Deməli, "Molla Nəsrəddin" jurnalında olan bir faktdan deyəcəm. Dövrümüzə və yaşımıza görə onunla tanışıq. Azyaşlı, erkən nikahlara görə bunu deyirəm, bunun ənənəsindən danışıldı.

Orada bizim müqəddəs papaqla qızların gələcək ailə həyatına hazırlığını test edən illüstrasiyalar, karikaturalar dərc olunub. O papağımızı biz bu şəkildə sınamalı deyildik. Ona görə də, həqiqətən, 18 yaşına qədər evlilik məsələsinin bu cür müəyyənləşdirilməsi gələcək cəmiyyətin sağlamlığına təsir edən və uşaqları zorakılıqdan qoruyan bir hadisədir. Uşaqları istismar etməyin qarşısını alan bir hadisədir.

Həmin uşaqlar 2 mindən artıq uşaq dünyaya gətiriblər. Ötən dəfə mən o statistikanı demişdim. 11 nəfəri 3 övlad dünyaya gətirib. Özü uşaq ikən 3 övlad. Onun fiziologiyası, biologiyası nə gündədir, bunu təxmin etmək çətin deyil. Təşəkkür edirəm, çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Tahir Kərimli. Tahir müəllim, buyurun.

**T.Kərimli.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli deputatlar. Dünən, doğrudan da, çox dəyərli

ictimai dinləmə oldu. Hörmətli Hicran xanım da dinləməni aparırdı, mən çıxış etməyə məcbur oldum, ona görə ki, məndən başqa orada çıxış edənlərin hamısı lehinə oldu. Ona görə fikirlərimi istəyirəm, sizə çatdıram.

Əvvəla, onu deyim ki, Cinayət Məcəlləsində və İnzibati Xətalar Məcəlləsində 5 il yaş fərqinin aradan qaldırılması istiqamətində addım atılmasına ümid edirəm.

İkinci, deyək ki, nişan mərasimi 17 yaşında olursa, 6 ay gözləyir, 18 yaş olur, evlənir, yəni 16 yaşdan sonraya da aid olunsun bu mərasimlərin qadağası. Bunu qəbul etmirəm.

Artıq tibbi nöqteyi-nəzərdən sübut olunub ki, qohum evliliyində irsi xəstəliklər 2 dəfədən artıq olur. Bu məni narahat edir. Bu o deməkdir ki, Pakistanda 15 milyondan çox bu cür xəstə var. Çünki orada yaxın qohumlar arasında evlilik 52 faiz olur. Misirdə və digər ölkələrdə də eyni vəziyyətdir.

Ümumiyyətlə, mən istəyirəm, bir qədər səmimi çıxış edək. Mən dünən də çıxışlarda eşitdim, "Qurani-Kərim"ə, peyğəmbərimizə istinad edirlər, onlarla müqayisə edirlər. İndi hörmətli Zahid müəllim də burada dedi. Əslində, elə əmiuşağı arasında göbəkkəsmə, "kəbinləri göydə kəsilib" ifadəsi həzrəti peyğəmbərimizin öz qızını əmisi oğluna verməsi ilə başlayıb. Bunu nümunə kimi götürürlər. Biz indi deməyək ki, bizdə olan bu vəziyyət dindən asılı deyil. Çünki müsəlman dövlətlərinin hamısında bu var.

Azərbaycanda nə üçün udin, ukraynalı, rus, qeyri-müsəlmanlar arasında yaxın qohumlararası evlilik yoxdur, bu ancaq müsəlmanlar arasındadır. Bunun bir izahı var. Bizə bu, islamdan gəlir. Amma mən nəyin tərəfdarıyam.

İndi Fazil müəllim də burada dedi, biz vaxtilə monoqamiyaya, təknikahlılığa keçdik. Biz də bilirik ki,

“Quran”da çoxnikahlılıqdır. Amma cəsarətlə keçdik monoqamiyaya və bu doğrudur, sivil insanın, dünyagörüşlü insanın yaranması üçün çox mühüm bir hadisədir. Bəli, bu nöqteyi-nəzərdən də biz qohum nikahlarının bu cür qadağan olunması üçün bu addımı atmalıyıq.

“Qurani-Kərim”in Nisa surəsində bizim birinci dərəcəli hesab etdiyimiz süd qohumluğunun adı çəkilir. Əmioğlu, dayıqızı, xalaoğlu, bibiqızı – bunların məsələsi yoxdur, yəni icazə verilmir. Onda biz yenə də dövlətimizin dünyəvilik prinsipindən çıxış edib deməliyik ki, bu olmaz. Yəni mən bunun tərəfdarıyam.

Amma bəzi məsələlər də var. Deyək ki, sabah kəbin kəsdirmədən, yaxud nikah bağlamadan yaxın qohumlar bir-birinə qohum oldu. Sən necə sübut edəcəksən ki, bunlar evləniblər. Deməyəcəklər ki, evləniblər. Axı 16 yaşından sonra sən istədiyin kimi yaşaya bilərsən. Ona görə də deyəcəklər, mən evlənməmişəm, nikah bağlamamışam. Məni nə məsuliyyətə cəlb edəcəksən, ya valideyni, ya kimisə? Bax, bu məsələlər də var.

Ümumiyyətlə, mənim üçün qorxulu nədir? Bu, milli məsələdir, yəni mən qorxuram və artıq hiss edirəm ki, əhalimiz 10 milyondan artıq olandan sonra Azərbaycanda təbii artım azalıb. Mən qorxuram, yerimizdə sayaq. Çünki bəzi dövlətlər üçün bu, strateji məsələ deyil, amma bizim üçün böyük strateji məsələdir. Ona görə də Ailə Məcəlləsində, digər məcəllədə dəyişiklik təbii artımı stimullaşdırmalıdır, nəinki qarşısını almalıdır.

O nöqteyi-nəzərdən istəyirəm deyəm ki, o, ən çox etiraz etdiyim, razı olmadığım bir məsələdir. Dünən də dedim, 12 il bundan əvvəl bir dəyişiklik olub ki, 17 yaşına çatmış qız uşaqları ilə üzrlü səbəb olduqda yerli icra hakimiyyətlərinin razılığı, qərarı ilə evlənmək olar. Deyirlər

ki, bu, çox pis bir məsələdir, bunu ləğv edək. Özü də eşitdiyimə görə, Mehriban xanım təşəbbüsçüsü olub. Məncə, bunu saxlamaq lazımdır. Bu, doğru təklifdir. Mən sizə deyim, dünənə kimi Fransada 15 yaş qızlarda nikah yaşı idi. Hətta İspaniyada ondan da aşağı idi. İndi dəyişilibsə, deyə bilmərəm. İtaliyada, 25 ştatı çıxmaqla Amerika Birləşmiş Ştatlarında yaxın qohum evliliyinə imkanlar vardı.

Mən dünən də bir neçə misal çəkdim, onu çəkmək istəmirəm. Misal üçün, hətta təsəvvür edin ki, yetkinlik yaşına çatmayan qız öz cinsini dəyişməyə artıq valideyninin razılığı olmadan qərar verir. Yaxud, üzr istəyirəm, valideyninin razılığı olmadan abort etməyə icazə verir. Bax, bu nə deməkdir? Belə şeylərdən qorunmaq lazımdır. Bəli, biz sivil cəmiyyətik, şəhərdə yaşayırıq, qızlarımız da müəyyən yaşa çatır, ondan sonra ailə qurur. Amma hər yerdə belə deyil axı, kəndlərdə və digər yerlərdə. Misal üçün, deyir ki, üzrlü səbəb yoxdur. Üzrlü səbəb nəyə deyirsən? Ata ağır xəstədir, – mən bunu əvvəl də demişəm, – ölüm ayağındadır, övladı 17 yaş 9 aylıqdır, 18 yaşın tamamına 3 ayı qalıb. İstəyir ki, övladı ailə qursun da. Hökumət də ona icazə verir ki, ailə qursun. Sən deyirsən ki, yox, bu belə deyil.

Mən bir şeyə də bir az narahat oluram. Dünən də dedim. Biz Azərbaycanda mənəvi təmiz dövlətimizi, gələcəyimizi qurmaqdan ötrü gəlin, deyək ki, nəyə görə 16 yaşdan yuxarı oğlan və qızlarımıza, övladlarımıza qeyri-nikah münasibətlərinə, cinsi münasibətlərə icazə veririk və heç bir cəza da yoxdur. Gəlin, bunu aradan qaldıraq ki, əxlaqsızlığa, pozğunluğa son qoyulsun, ailəyə meyillilik çoxalsın. Hər kəs gələcəkdə bir ailənin müqəddəsliyini qurmağı düşünsün. Necə olur ki, sən 18 yaşa kimi

istənilən pozğunluğu, əxlaqsızlığı et, cəza alma. 17 yaşdan sonra bir kəbin kəsilib, nikah bağlanıb, bu olmaz. Özü də maraqlıdır. Arayışda yazılır ki, təhsilə mane olur, uşaq psixologiyasını pozur. Maraqlıdır, 17 yaş yarımda evlənəndə bu uşağın psixologiyası pozulur, amma 16 yaşından yuxarı əxlaqsızlıq edəndə nə təhsil pozulur, nə bilim, nə də bunun psixologiyası pozulur. Bu nə deməkdir? Ona görə də mən sizin başınızı çox ağrıtmaq istəmirəm. Hesab edirəm ki, mütərəqqi, yenə deyirəm, ciddi məsələlərdir. Burada indi birinci oxunuşda çətindir. İkinci oxunuşda hissə-hissə səsvermədə mən birinci hissəyə – Ailə Məcəlləsinin əleyhinə səs verəcəyəm. Amma digərlərinin lehinəyəm və digər məsələləri də nəzərə almağınızı xahiş edirəm. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Hörmətli həmkarlar, mən təklif edirəm, çıxışlar 5 dəqiqəyə qədər olsun. Vüqar İskəndərov, Sizin sualınız var? Buyurun.

**V.İskəndərov.** Hörmətli Sahibə xanım, Tahir müəllimin fikri ilə bağlı söz demək istəyirəm, qısa, 20-30 saniyə.

**Sədrlik edən.** Vüqar müəllim, bir dəqiqə, ya sualınız, ya da təklifiniz üçün 1 dəqiqə, ancaq fikir söyləməkdirsə, hamı burada fikir söyləyir.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Sualınızı verə bilərsiniz, buyurun.

**V.İskəndərov.** Dünən biz bunu komitədə danışdıq. Mən çıxışa yazılmamışdım, amma Tahir müəllimin bir fikrinə sual vermək istəyirəm.

Biz elə bunu deyirik ki, 17 yaşında atası xəstədir. Bəlkə elə atası xəstədir, amma uşağın 16 yaşı var, onda mütləq ərə vermək lazımdır? Yəni bu məsələ artıq uzun müddət müzakirə olunub və həqiqətən də, statistika göstərir ki, 17 yaşında ailənin qurulması, ümumiyyətlə, tezdir. Bu

məsələlər artıq düşünürəm ki, geridə qalmış məsələlərdir. Hansı yaşda isə ərə vermək. Konkret olaraq yaş 18 götürülüb. Ona görə də, düşünürəm ki, qeyri-adi müzakirələrə ehtiyac yoxdur. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Hörmətli həmkarlar, mən xatırlatdım ki, bu, dinləmə deyil, bu, qanun layihəsinin müzakirəsidir. Xahiş edirəm, kimin hansı fikirləri varsa, işçi qaydada bir-birinə çatdıra bilər.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Xeyr, mən Əhliman müəllimə söz verəcəyəm. Tahir müəllim, Siz yeni çıxış etdiniz, indi də sualınız var?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Yox, onu işçi qaydada danışarsınız, əgər sual idisə cavabını da verərsiniz. Əhliman Əmiraslanov, buyurun.

**Ə.Əmiraslanov**. Çox təşəkkür edirəm, Sahibə xanım. Mən də hesab edirəm ki, Ailə Məcəlləsinə təklif olunan dəyişikliklər son dərəcə vacib, aktual dəyişikliklərdir. Xüsusilə bizim ölkə kimi qohum nikahlarının göstəriciləri yüksək olan bir ölkə üçün bu dəyişikliklər son dərəcə vacibdir.

İstərdim, millət vəkillərinin yadına salım ki, təxminən 10 il bundan qabaq biz nikaha girənlərin icbari müayinəsi məsələsini burada müzakirə edəndə də belə təzadlı fikirlərlə rastlaşırdıq və bunun mənəvi və sosial-hüquqi cəhətdən düzgün olmadığı söylənilirdi. Ancaq bu gün statistikaya baxsaq, Sahibə xanım, hər il nikaha girmək istəyən yüzlərcə insan arasında son dərəcədə təhlükəli xəstəliklər aşkara çıxarılır. Onlar nikaha girsəydilər, dünyaya gələn uşaqların böyük əksəriyyəti çox ağır patologiya ilə dünyaya gələcəkdi.

Eyni zamanda, qohum nikahları ilə bağlı indi burada qeyd olundu, Zahid müəllim də, Hicran xanım da geniş məlumat verdilər. Mən də bir neçə rəsmi rəqəmi misal gətirmək istəyirəm. Bu rəqəmlər Ümumdünya Səhiyyə Təşkilatının son rəqəmləridir. Doğrudan da, qohum nikahlarından dünyaya gələn uşaqlar arasında xəstəliyə tutulma ehtimalı 2-3, bəzən 4 dəfə artıqdır. Bu, Ümumdünya Səhiyyə Təşkilatının məlumatıdır.

Dünyada yaşayan insanların, planetimizdə yaşayan insanların 10-12 faizi qüsurludur, buna əngəllilər də deyirlər. Bu qüsurlu insanların 40,5 faizi qohum nikahlarından dünyaya gəlmiş uşaqlardır. Yəni bunu təkzib etmək və buna nə ilə isə haqq qazandırmaq, mən hesab edirəm ki, mümkün deyil. Yaxud bu gün dünyaya gələn uşaqlarımızın bir faizində əgər biz qüsurlar aşkar ediriksə, qohum nikahlarından dünyaya gələn uşaqlar arasında bu rəqəm 9 faiz təşkil edir. Bax, bu rəqəmləri mən qeyd etməklə istərdim, deyim ki, doğrudan da, bu qanun layihəsi son dərəcə vacibdir. Ancaq bu qanun layihəsini biz qəbul etdikdən sonra, artıq bu gündən başlayaraq insanlar arasında maarifləndirmə işlərinə böyük ehtiyac var. Çünki bu rəqəmlərə insanlar inanmırlar.

Sahibə xanım, biz Səhiyyə komitəsi olaraq hər gün belə ailə faciələri ilə rastlaşırıq. Bu qohum nikahlarından doğulan uşaqlarda rast gəlinən hansı xəstəliklərdir? Ən ağır xəstəliklər irsi xəstəliklər, irsi qan xəstəlikləri, dayaq-hərəkət aparatının qüsurlarıdır, həm fiziki, həm də zehni qüsurla doğulmuş uşaqlar bu ailələrin böyük faciəsidir. Mən hələ indi sosial problem olduğunu bir kənara qoyuram və bu insanlarla söhbət edəndə görürsən ki, onlar maarifləndirilməyiblər. Bu insanlar nikaha girərkən icbari müayinədən keçməyiblər. İndi biz bunun hüquqi cəhətini,

mənəvi cəhətini deyək. Yəni o insanların göz yaşlarını biz görəndə bir daha əmin oluruq ki, belə qanun layihəsi bizə çoxdan lazım idi. Belə qanun layihəsini biz dəstəkləməliyik və qəbul etməliyik.

Onu da deyim ki, Sahibə xanım, hələ o dövrdə Ailə Məcəlləsində nikaha girənlərin icbari müayinəsini qəbul edəndə bu məsələləri biz müzakirə etdik, o vaxt da bu məsələlərin əleyhinə çıxan xeyli millət vəkillərimiz oldu və belə qərara gəlindi ki, hələ o qalsın. Ondan sonra, mən indi dəqiq bilmirəm, 10 ilə yaxın vaxt keçib. Görün, bu müddət ərzində nə qədər xəstə uşaqlar dünyaya gəldi. Nə qədər ailələrin faciəsinə səbəb oldu. Bax, bunların hamısını deməkdə məqsədim odur ki, qanun layihəsinə təklif olunan dəyişikliklər çox mütərəqqi dəyişikliklərdir, qəbul etmək lazımdır.

Erkən nikahlarla bağlı da bir-iki cümlə deyib fikrimi bitirirəm. Erkən nikahlar haqqında burada deyildi, onu da qeyd edim ki, bilirsiniz, bir çox ərəb ölkələrində erkən nikahlar əvvəllər dəbdə idi, son illər artıq bu yavaş-yavaş yığışdırılır. O vaxt bir tədqiqat aparıldı və məlum oldu ki, erkən yaşda nikaha girən gənc xanımlar arasında reproduktiv orqanların bədxassəli şişləri digər qruplarla müqayisədə 7-8 dəfə çoxdur. Bu da rəsmi rəqəmlərdir. Bununla da mən fikrimi yekunlaşdıraraq bu qanun layihəsini dəstəkləyirəm və deputat həmkarlarımdan da dəstəkləmələrini xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Əhliman müəllim. Əhliman müəllim, Sizin sözünüzə qüvvət, mən indi belə bir fikrə gəldim ki, biz Milli Məclisdə dinləmələr keçiririk, artıq bu bizim gündəliyimizin adi bir məqamı kimi mövcuddur, düşünürəm ki, bu məsələlərlə bağlı dinləmələri regionlarda keçirmək lazımdır. Düzdür, indi

VI çağırışın sonudur. Ancaq düşünürəm ki, növbəti çağırışda deputatlar belə məsələlərlə bağlı dinləmələri mütləq regionlarda da keçirsinlər. Çünki hər bir region deputatlarla təmsil olunur. Təbii ki, lazım olan müvafiq qurumların nümayəndələri, sonra QHT-lərin nümayəndələri ilə və sair. Deyirik ki, cəmiyyət maarifləndirilməyib. Təbii ki, maarifləndirmək lazımdır. Ona görə də gələcəkdə də, düşünürəm ki, növbəti çağırışın deputatları bu haqda gərək fikirləşələr.

Mən hamıya söz verəcəyəm. Fəzail müəllim, sualınız, təklifiniz var? Buyurun. Bir dəqiqə.

**F.Ağamalı**. Çox hörmətli xanım sədr, hörmətli millət vəkilləri, təklifim var. Mən ilk növbədə deyərdim ki, qanun layihəsi cəhalət üzərinə dünyəviliyin artmış olduğu çox cəsarətli bir addımdır. Nəhayət, biz cəhalətdən qurtarmalıyıq.

Kəbin o zaman kəsilə bilər ki, cütlüklərin nikahı var. Nikahı olmayan cütlüklərə kəbin kəsilməsi qanunda birmənalı şəkildə qadağan edilməlidir. Çox təəssüf edirəm ki, mən hər halda tapa bilmədim, bu yoxdur. Mən istəyərdim ki, bu təklifim birinci növbədə Hicran xanım tərəfindən nəzərə alınsın.

İkinci təklifim, bu qadağalar 3-cü və 4-cü qohumluq dərəcəsinə də şamil edilməlidir. Birmənalı, yəni biz işi yarımçıq qoymalı deyilik. Ona görə də bu qanunu alqışlayıram, ona dəstək verəcəyəm, səs verəcəyəm. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Fəzail müəllim. Ceyhun Məmmədov. Buyurun.

**C.Məmmədov**. Hörmətli xanım sədr, dəyərli millət vəkilləri. Mən də öncə, Sahibə xanım, Sizə təşəkkürümü bildirirəm. Dünən çox maraqlı bir dinləmə keçirildi və biz də bu dinləmədə iştirak etdik. Eyni zamanda, düşünürəm

ki, bu çağırış parlamentin ən önəmli cəhətlərindən biri də bu cür davamlı dinləmələrin keçirilməsidir və bir az bundan əvvəl Siz qeyd etdiniz.

Həqiqətən, bu problem özünü daha çox bizim bölgələrimizdə göstərir. İndi mən bölgə adlarını qeyd etmək istəmirəm. Bir sıra bölgələrdə erkən nikahlar çox geniş yayılıb və ona görə də bu cür dinləmələrin, müzakirələrin bölgələrdə aparılması çox önəmlidir. Burada bir çox məsələlər qaldırıldı, dəyişikliklərin edilməsi çox önəmlidir. Həqiqətən, bu gün cəmiyyətdə belə bir problem var və bu özünü təhsildə də göstərir. Bir sıra hallarda valideynlər övladlarını təhsildən yayındıraraq onları erkən nikaha daxil olmağa təşviq edirlər. Hesab edirəm, bu dəyişiklik o prosesin də qarşısını alacaq.

Burada digər bir mühüm məqama xüsusi toxunmaq istəyirəm. Söhbət dini kəbinlərdən gedir. Bu gün ölkəmizdə 2252 məscid var. Min din xadimi dövlətdən rəsmi dəstək alır. Ancaq minlərcə şəxs var ki, onlar bu gün dini kəbini kəsməyə haqları olduğunu bildirirlər. Yəni söhbət ondan gedir, biri var, rəsmi qeydiyyatdan keçən, dövlət tərəfindən icazəsi olan, biri də var, icazəsi olmayan. Burada məsələ odur ki, bu gün istənilən dini təhsili olan şəxs dini kəbin kəsə bilər.

Mən dünənki dinləmədə də bunu dedim. Hesab edirəm, ümumiyyətlə, biz burada bu məqamı da nəzərə almalıyıq ki, rəsmi nikah olmadan dini kəbin kəsən din xadimləri, dini fəaliyyətlə məşğul olan şəxslər də cəzalandırılmalıdır. Yəni bu gün bu, çox önəmli bir məsələdir. Əgər biz bunu bu formada etməsək, bu proses davam edəcək, yəni mən bu prosesin içində olmuşam. Bu gün Azərbaycanda bu çox geniş yayılıb. Hətta internetə baxsanız, son vaxtlar, çox təəssüf ki, bu cür xidmətləri göstərdiyini bildirən

insanların videoları yayılır və deyirlər ki, biz bu xidmətləri açıq-aydın göstərə bilərik. Ona görə istənilən kağıza yaza bilər ki, mən filan insanın filan insanla nikaha daxil olmasına dini baxımdan icazə verirəm və bu proses davam edir. Ona görə bunun qarşısının alınması üçün bu məsələ çox önəmlidir və burada, eyni zamanda, mən düşünürəm ki, hansı isə formada bu sahəyə cavabdeh qurumların bir qeydiyyat reyestrini yaratmaq lazımdır ki, ümumiyyətlə, bu dini kəbinlər kəsilir. Onlar hansı sənədlər əsasında kəsilir? Bunun bir nümunəsi olmalıdır, bunun bir qaydası olmalıdır. İndi biz bunun tamamilə qarşısını ala bilmirik. Amma bu edilirsə, buna müəyyən şərait yaradılırsa, bunun da nəzarətə götürülməsi çox önəmlidir.

Burada digər mühüm bir məsələ isə budur ki, biz, bəli, qanunu qəbul edirik, yəni qanun yetərlidirmi? Mən hesab edirəm, tam yetərli deyil. Bir az bundan əvvəl Siz də bu məsələyə toxundunuz. Çox geniş maarifləndirmə, təbliğat işləri aparılmalıdır. Yəni insanlar dərk etsinlər ki, bunu etmək olmaz, bu hansı fəsadlar yarada bilər.

Burada digər bir məsələ isə bu fəsadların qarşısını almaq üçün bizim görəcəyimiz işlərlə bağlıdır. Eyni zamanda, mən düşünürəm ki, bu məsələdə dinin yanaşmasına gəldikdə burada müxtəlif fikirlər söylənildi. Din qohum nikahlarının əleyhinədir. Təşviq etmir, bu bəyənilmir. Peyğəmbərimizin dövründə baş verən hadisəyə gəldikdə, o dövrdə, cahillik dövründə ərəb cəmiyyətində bu cür nikahlar geniş yayılmışdı. Amma sonrakı dövrdə artıq bu nikahlar baş vermədi və islam da bunu bəyənmir. Ona görə də bunu dinlə əlaqələndirmək, mən hesab edirəm ki, kökündən yanlışdır.

Nikah yaşının bir yaş azaldılması ilə bağlı bizim hörmətli həmkarımız Tahir müəllim dünən də bu məsələni

dedi, ailə üzvündən kimsə xəstədir, ona görə biz buna şərait yaratmalıyıq. Statistikaya baxsaq, o insanların çoxu müxtəlif yollarla, dolayı yollarla sənədləri əldə edərək bir yaşın azaldılmasına çalışırdılar. Hesab edirəm, bugünkü dəyişikliyin ən önəmli, vacib tərəflərindən biri də o oldu ki, biz bir yaşın azaldılmasını artıq bu qanundan çıxarırıq və heç kim daha buna getməyəcək. Mən düşünürəm ki, növbəti dövrdə də bunun nəticələrini görəcəyik.

Eyni zamanda, bu məsələ ilə bağlı, bir az bundan əvvəl fikrimdən çıxdı, onu qeyd edim, "Quran"da bir Nisa surəsi var, onun 22–24-cü ayələrində konkret qeyd olunur ki, kimlərlə ailə qurmaq olar, kimlərlə olmaz. Yəni orada qəti şəkildə yaxın qohumlarla əlaqə məsələsi öz əksini tapıbdır və bu məsələnin, mən hesab edirəm ki, dinlə əlaqələndirilməsi də yanlışdır. Biz insanlar arasında təbliğatı elə aparmalıyıq və dini əsaslandırma da o olmalıdır ki, din bunu bəyənmir. Bu, bizim cəmiyyət üçün problem yaradır, ailə bizim üçün çox önəmlidir. Ona görə sağlam ailələrin formalaşması üçün biz bu addımları mütləq atmalıyıq. Təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Ceyhun müəllim. Mən düşünürəm, bu maarifləndirmə təhsil müəssisələrində yuxarı sinif şagirdləri arasında, universitetlərdə başlanmalıdır. Hesab edirəm, bu həm də Elm və təhsil komitəsinin nəzərində olmalıdır. Siz də qatılmalısınız. Bəxtiyar müəllim, bilmirəm, dünən o dinləmələrdə olmusunuz, ya olmamısınız, bu məsələlərlə bağlı, təbii ki, çox geniş maarifləndirmə aparılmalıdır.

Erkin Qədirli. Buyurun.

**E.Qədirli.** Çox sağ olun, hörmətli xanım sədr. Ailə Məcəlləsinə təklif olunan dəyişiklikləri doğru sayıram və dəstəkləyirəm, lehinə səs verəcəyəm. Onun əsaslandırıl-

masını bir az zəif sayıram. Nə mənada? Yəni nəticə haqqında daha çox danışıldı. Bizim tibb mütəxəssislərimiz çox doğru olaraq genetik xəstəliklərin qarşısının alınması zərurəti baxımından yaxın qohumların arasında nikahın qadağan olunmasını vurğulayırlar və bu, doğru izahdır. Amma burada bəzən dini, əxlaqi arqumentlər gətirilir. Onlar bir az yersizdir. Nə anlamda? Kökünə varsaq, yaxın qohumlar arasında nikahın səbəbi əmlakdır.

Məsələn, Qərb mədəniyyətində Roma hüququndan bu yana "primagenetura" prinsipi var. Yəni bizim dilə çevirsək, "ilk övladlıq". Nə deməkdir o? Ailədə bir neçə övlad varsa, söhbət kişi övladlardan gedir, çünki qadınların mülkiyyət hüququ Birinci Dünya müharibəsindən sonra, xüsusilə də İkinci Dünya müharibəsindən sonra yaranmağa başladı, milyonlarca kişi öləndən sonra mülkiyyətçilərdə gender disbalansı yarandı. Ona görə də varisliyi təmin etmək üçün qadınların mülkiyyət hüququ tanınmağa başlandı. Ona qədər isə yox idi.

Primagenetura nə deməkdir – ilk övladlıq. Ailədə bir neçə övlad var, "primagenetura" prinsipinə görə, varis ancaq böyük oğul ola bilirdi, yəni ata mülkü ancaq böyük oğula qalırdı. Sonrakı oğullar artıq uşaqlıqdan bilirdilər ki, atanın mülkünə iddia etmək haqları yoxdur. Ona görə onlardan kimsə orduya, kimsə universitetə, kimsə kilsəyə gedirdi, kimsə, ümumiyyətlə, işsiz-gücsüz qalırdı. "Primagenetura" prinsipi ona gətirib çıxardı ki, Avropada böyük ailə təsərrüfatları yaranmağa başladı. Kiçik oğullar torpaqdan ayrılıb şəhərlərə köçdü, şəhərləşmə baş verdi. Bütün bunların iqtisadi izahı var. Məsələn, bizim kimi cəmiyyətlərdə "primagenetura" prinsipi olmadığından bütün övladlar hər zaman valideynlərin mülkiyyətinə iddia edə bilirdilər. Bu, övladlar arasında sosial ədaləti təmin

edirmiş kimi görünürdü. Çünki valideynlərin mülkü ya fiziki, yaxud pul payı ilə övladlar arasında bölüşdürülürdü, sanki ailədə sosial ədalət təmin olunurdu, hamı razı idi. Amma sosial ədalətlə iqtisadi inkişaf çox zaman tərs mütənasibdir. Sosial ədalət, qohumcanlılıq bizdə onun hesabına inkişaf etdi. Amma bizdə məhz o "primagenetura" prinsipi olmadığına görə böyük ailə təsərrüfatları yarana bilmədi, şəhərləşmə gecikdi.

Bir misal çəkim. Deyək ki, ailə başçısı övlada 1 milyonluq kapital yığıb, torpaqdır, fermerdir, filandır. Ölür, 3 oğlu var. Bölüşdürülür. Hamı iddia edir. 333 min hamıya verildi, qardaşlar razı qaldılar. Biri torpaqda atasının ferma işini davam etdirdi, o biriləri pullarını alıb getdilər. Fermer olaraq varis oğul 1 milyonluq kapital yerinə 333 min aldı və beləliklə, rəqabət qabiliyyətini itirdi və sonradan, ola bilsin, ümumiyyətcə, müflis oldu. Bunun hesabına, bu olmasın deyə, yaxın qohumlar arasında nikah, dediyim kimi, əxlaqçı yox, əmlakçı prinsipindən daha yaxşı qavranılır ki, mülkiyyət, əmlak yad əllərə keçməsin. Ona görə bu qədər qalıcı oldu. Stereotipik olaraq bunun hamısı qohumcanlılıqla izah olunur, hansısa əxlaqi, dini arqumentlər gətirilir. Amma səbəbini dəqiq biləndən sonra bizə aydın olur ki, mülkiyyət hüququnun təminatsızlığı, müqavilə azadlığının təminatsızlığı insanlarda bu stereotipləri gücləndirir. Onlar istəyirlər ki, yaxın qohumlar arasında evlilik olsun ki, əmlak yad əllərə keçməsin. Şübhəsiz ki, bunun qarşısı alınmalıdır, bu, yanlış təcrübədir. Ona görə əvvəldə dedim ki, Ailə Məcəlləsinə bu təklifləri, bu dəyişiklikləri doğru sayıram. Sadəcə, istədim ki, arqumentasiyada da bir aydınlıq olsun.

Yeri gəlmişkən, hüquq sosiologiyasında "hüquqa quruluşlu müqavimət" deyilən bir anlayış var. Onun

ingiliscəsi "structural resistance to law", yəni bu, hansısa mütəşəkkil etirazçı qrupun müqaviməti deyil, bütövlükdə, cəmiyyətin qanunu qəbullanmamasıdır. Burada maarifçilikdən danışıldı. Heç şübhəsiz ki, bu vacibdir. Amma hökumət 1 ildən sonra qüvvəyə minəcək bu qanunla bağlı həmin o "cəmiyyətin quruluşlu müqaviməti" adlanan fenomenin qarşısının alınması üçün mülkiyyət hüququ sahəsində də təminatları gücləndirməlidir. Bu, Ailə Məcəlləsinə olan dəyişikliklərlə bağlıdır. Dediyim kimi, onu tam dəstəkləyirəm.

Cinayət Məcəlləsinə təklif olunan 176-cı və İnzibati Xətalar Məcəlləsinə təklif olunan 189-cu maddələrdə qeyd hissəsi ki var, o, problemdir və yanlışdır. Onun tamamilə aradan qaldırılmasını doğru sayıram. Bizim gündəliyin 12-ci məsələsində 3 layihə bir paketdə gəldiyinə görə problem burada yaranır. Dediyim kimi, Ailə Məcəlləsinə edilən dəyişiklikləri dəstəkləyirəm, amma indiki redaksiyada İnzibati Xətalar və Cinayət məcəllələrinə olan dəyişiklikləri dəstəkləyə bilmirəm. Amma onların bir paketdə gəlmələri də nədən yanlışdır? Mənim istəyimə görə deyil, təbii ki. Ailə Məcəlləsi, İnzibati Xətalar və Cinayət məcəllələri – bunlar ayrı-ayrı hüquq sahələridir, mahiyyətcə çox fərqlidir. Ailə Məcəlləsində əsas nizamlanma metodu dispozitivlikdir. Razılıq hüququ yaradır. Cinayət və İnzibati Xətalar məcəllələri isə imperativ metodlarla nizamlanır. Ona görə o biri paketdə gələn layihələr ki var, gördüyünüz kimi, 9-cu, 7-ci məsələlərdə biz müzakirə etdik və qəbul etdik, onlar, həqiqətən, mahiyyətcə eyni dəyişikliklər, təkliflər olduğuna görə birləşdirmək olur. Burada Cinayət Məcəlləsi ilə İnzibati Xətalar Məcəlləsini də bir paketdə vermək olar, amma Ailə Məcəlləsini yox. Odur ki, bunları ayırmaq lazımdır, ayrıca səs verə bilək.

Məsələn, mən Ailə Məcəlləsinə olan dəyişiklikləri dəstəkləmək istəyirəm. Amma indiki redaksiyada, yalnız qeyd hissəsinə görə, yenə təkrarlayıram, İnzibati Xətalar və Cinayət məcəllələrinə olan dəyişiklikləri dəstəkləyə bilmirəm.

Ümid edək ki, üçüncü oxunuşa qədər o qeyd hissəsi oradan çıxarılacaq. Çıxarılmayacaqsa, bunun başqa bir yolunu tapaq, ayrı-ayrı səs verək. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun, Erkin müəllim. Mən düşünürəm ki, tək mən deyil, auditoriyamızın böyük bir hissəsi özünü Hüquq fakültəsinin tələbələri kimi hiss etdi. Çünki Siz bununla bağlı xeyli məlumat verdiniz. Ancaq onu da qeyd etməliyəm ki, Siz dediniz, burada din məsələləri ilə bağlı söylənən bəzi fikirlər yersizdir. Mən düşünürəm ki, bunlar yersiz deyil. Təbii ki, belə bir termin yoxdur, bəlkə də belə bir məişət hüququ var. Biz isə xalqla işləyən insanlarıq. Gördüyümüzə, insanların qohumluq dərəcələrindən istifadə edərək necə ailə qurduqlarına əsaslanırıq. Yəni bu nöqteyi-nəzərdən mənim hörmətli həmkarlarım öz fikirlərini söylədilər.

O ki qaldı İnzibati Xətalar Məcəlləsi ilə bağlı, mən düşünürəm ki, ikinci oxunuşda, Erkin müəllim, lazım olsa, bir dəfə də çıxış edərsiniz, təkliflərinizi verərsiniz. Bu gün hələ birinci oxunuşdur.

İndi isə sonuncu çıxış. Jalə Əhmədova. Buyurun.

**J.Əhmədova.** Hörmətli xanım sədr, mən də bu qanunu dəstəkləyirəm. Hicran xanıma da, Əhliman müəllimə də geniş məlumat verdikləri üçün təşəkkürümü bildirirəm.

Eyni zamanda, xanım sədr, Autizm Assosiasiyasında olduğum üçün, demək olar ki, gündəlik, mütəmadi həm autizm spektorlu, həm də digər əngəlli uşaqlarla daim görüşürəm. Biz orada da bunun hər gün şahidi oluruq. Əksər ailələr qohum ailələr olduğu üçün uşaqlar bu fəsadlarla

dünyaya gəlirlər. Bu da Azərbaycan Respublikasının gen fonduna, təbii ki, xələldir,  ziyandır. Eyni zamanda, əngəlli övladlarımızın dünyaya gəlməsi dövlətin yükünü artırır. Onun üçün də düşünürəm ki, birmənalı, qəti surətdə qohum nikahlarının qarşısı alınmalıdır.

Bir məsələyə də öz fikrimi bildirmək istəyirəm. Bu 1 il güzəşt məsələsi ilə bağlı mən də qəti razı deyiləm. Bu, ləğv olunmalıdır. Çünki bundan,– həmkarlarım da söylədi, – sui-istifadə halları həddindən artıq çoxdur.

Xanım sədr, Sizə bölgələrlə bağlı verdiyiniz təklifə görə təşəkkürümü bildirmək istəyirəm. Çünki bölgə deputatı olduğumuz üçün daim orada gənclərlə işləyirik. Vurğuladığınız məqamların şahidi oluruq, hətta biz qız uşaqları ilə bağlı maarifləndirmə layihələri keçirəndə belə, orada da atalar, qardaşlar tərəfindən təzyiqlə üzləşirik. Gəlirlər, tədbir keçirilən yerdə dayanırlar ki, biz burada nə maarifləndirmə keçəcəyik, bunlara nə başa salacağıq. Həyat yoldaşlarını həmin layihədə iştirak etməyə qoymurlar. Hətta ittihamla çıxış edirlər ki, siz ailələrimizi dağıtmağa gəlmisiniz və sair. Ona görə də düşünürəm ki, bu məsələni biz bölgələrdə məhz məktəblərdən başlamalıyıq. Çünki əlçatımlı məktəblərdir. Təklif edərdim ki, bununla bağlı bir dövlət layihəsi olsun. Məktəblərdə biz nikah məsələlərini gənclərimizlə danışmaqdan çəkinməyək. Bunlar açıq şəkildə müzakirə olunsun və maarifləndirilsin.

Fürsətdən istifadə edib buradan bir məsələni də vurğulamaq istəyirəm. Bəzi fikirlər söylənildi ki, hələ cəmiyyət olaraq biz bu qanundakı dəyişikliklərə hazır deyilik. Amma düşünürəm ki, dünya çox sürətlə inkişaf edir və bizim cəmiyyətimiz də hər bir yeniliyə tez adaptasiya olur.

Düşünürəm ki, tam zamanıdır və tam yerində qəbul olunan dəyişikliklər olacaq. İrəli sürülən bu dəyişikliklərə

görə təşəkkürümü bildirirəm. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. Jalə xanım, bu məsələ çox həssas məsələdir. Bu dinləmələrin özünün keçirilməsi də asan məsələ deyil. Ona görə bu dinləmələrdə tək bir-iki deputat deyil, müvafiq komitələrin sədrləri də, üzvləri də olmalıdırlar. Hətta mən deyim ki, burada təcrübəli deputatlar da olmalıdırlar. Çünki məsələ çox həssasdır. İndi Siz deyirsiniz, qarşısını alırlar ki, nə üçün bu tədbiri keçirirsiniz və sair. Bunu çox düzgün keçirmək lazımdır, düzgün sözlərlə insanlara başa salmaq lazımdır. Ona görə təkbaşına yox. Mən düşünürəm ki, bununla bağlı sonra danışmaq olar.

Hörmətli həmkarlar, biz kifayət qədər müzakirə etdik. Birinci oxunuşdur, mən indi qanun layihəsini səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 14.22 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Biz sonuncu məsələyə keçirik. Bu, “Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında” Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Qanun layihəsinə Əmək  və sosial siyasət komitəsində baxılıb və məsələyə dair məlumat vermək üçün, Musa müəllim, xahiş edirəm, buyurun.

**M.Quliyev.** Çox sağ olun. Hörmətli xanım sədr, hörmətli həmkarlar, şəhid ailələrinin və qazilərin sosial müdafiəsi dövlətimizin və cəmiyyətimizin diqqət mərkəzində olan prioritet məsələlərdəndir. Cənab Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva şəhid ailələrinə və qazilərimizə daim qayğı və diqqət göstərirlər. Onların müalicə, reabilitasiya, məşğulluq, sosial təminat məsələlərinin həlli üçün müvafiq tapşırıqlar verirlər.

Ölkəmizdə şəhid ailəsi üzvləri və qazilər 20-yə yaxın sosial dəstək növü ilə əhatə olunmuşlar. Şəhid ailələrinə verilən təqaüdün məbləği artırılaraq 600 manata çatdırılmışdır. İndiyədək Birinci və İkinci Qarabağ müharibələrinin 15 min nəfər şəhid ailəsi üzvü və qazi dövlət tərəfindən mənzil və fərdi evlərlə təmin olunmuşdur. Keçmiş məcburi köçkünlər üçün tikilmiş 6365 mənzilin şəhid ailələrinə və qazilərə verilməsi prosesinə başlanılmışdır. Postmüharibə dövründə Dövlət Məşğulluq Agentliyi tərəfindən 23 min nəfər şəhid ailəsi üzvü və qazi məşğulluq tədbirlərinə cəlb olunmuş, onlardan 11 min nəfəri işə düzəldilmiş, 10 min 566 nəfər özünüməşğulluq proqramları ilə işlə təmin edilmişdir. “YAŞAT” Fondu indiyədək 3000-dən çox şəhid ailəsinin 18 min 165 üzvünü ziyarət etmiş, şəhid ailələrinin və qazilərin tibbi, məişət, məşğulluq, təhsil və sair problemlərinin həllinə 84 milyon manat vəsait xərcləmişdir.

Hörmətli xanım sədr, onu da qeyd etməyi borc bilirəm ki, Siz başda olmaqla Milli Məclisin rəhbərliyi, deputatlar, Milli Məclis Aparatının əməkdaşları şəhid ailəsi üzvlərinə və qazilərə daim diqqət və qayğı göstərirlər. Onların bütün müraciətlərini diqqətlə araşdırır, fərdi və kollektiv şəkildə qəbul edərək qaldırdıqları problemləri həll edirlər. Sizin

əmrinizlə şəhid ailələrinin nümayəndələri və qazilər Milli Məclisdə işə qəbul edilmişdir və bu gün bizim sıralarımızda çalışırlar.

Bu gün müzakirəyə çıxarılan dəyişiklik şəhid ailəsi üzvlərinin mənzil təminatının yaxşılaşdırılması ilə bağlıdır. Belə ki, mövcud qanunvericiliyə görə, güzəştli şərtlərlə mənzil növbəsinə dayanmış şəhid ailəsi üzvü vəfat etdikdə əgər onun övladları yaşa görə bu statuslarını itirmişlərsə, mənzil növbəsi ləğv edilirdi. "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında" Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə təklif edilən dəyişiklik bu problemi aradan qaldırır və şəhid övladlarının yaşından asılı olmayaraq, mənzil təminatı hüququ saxlanılır.

Dəyişikliyin ikinci hissəsinə görə, əgər mənzil növbəsinə dayanmış şəxsə sonradan şəhid statusu verilirsə, onun mənzil növbəsi ailə üzvləri üçün də saxlanılacaqdır.

Qanun layihəsi cənab Prezidentin qanunvericilik təşəbbüsü ilə Milli Məclisə daxil olmuşdur. Komitədə ətraflı müzakirə edilmiş və parlamentin plenar iclasına tövsiyə olunmuşdur. Qanun layihəsini dəstəkləməyi sizdən xahiş edirəm. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Musa müəllim, ətraflı məlumata görə. Müzakirəyə keçirik, dörd nəfər yazılıb. Tahir Rzayev. Tahir müəllim, buyurun.

**T.Rzayev.** Çox sağ olun, hörmətli sədr. Hörmətli deputat həmkarlar, Azərbaycan dövlətinin, ölkəmizin rəhbəri cənab İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın şəhid ailələrinə, qazilərə, müharibə iştirakçılarına göstərdikləri qayğı və diqqət tükənməzdir, əvəzsizdir.

Bu gün torpaqlarımızın azadlığı və suverenliyimizin bərpası uğrunda həyatını qurban verənlərə hər bir yerdə

böyük hörmət və ehtiram duyulur, ifadə olunur. Küçələrimizə, məktəblərimizə, mədəniyyət ocaqlarımıza, park və xiyabanlarımıza ölməz igidlərimizin, oğul və qızlarımızın adı verilir, onlar ən yüksək orden və medallarla təltif olunur, evlərlə təmin edilir, adları əbədiləşdirilir, sosial məsələləri həll olunur, sağlamlıqlarına diqqət yetirilir. 20 adda təminat və sosial qayğı ilə əhatə olunan şəhid ailələri üçün əlavə təminatların yaradılması dövləti daim düşündürür və təqdim olunan qanun layihəsi də məhz bu nəcib təşəbbüslərin nəticəsidir.Hörmətli Musa müəllim dəyişikliklərlə bağlı ətraflı izahat verdi və mən də onun sözlərinə qüvvət verərək bir daha bildirmək istəyirəm ki, şəhidlərimiz müqəddəsdir və onların adına göstərilən ehtiram bir daha sübut edir ki, vətən uğrunda canından keçənlər ölməyiblər və həmin ailələr cəmiyyətin ən hörmətli üzvləridirlər. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Elman Nəsirov. Buyurun.

**E.Nəsirov.** Hörmətli xanım sədr, hörmətli həmkarlar. Çox mühüm bir qanun layihəsini müzakirə eləyirik. Heç kəsə sirr deyildir ki, ölkə Prezidenti cənab İlham Əliyevin müəyyən etdiyi siyasətin mərkəzində Azərbaycan vətəndaşı, onun sosial rifahı dayanır. Məsələyə bu kontekstdən yanaşdıqda şəhid ailələrinə, müharibə əlillərinə və müharibə veteranlarına diqqət xüsusi məna və əhəmiyyət kəsb edir. Həm ölkə Prezidenti cənab İlham Əliyev, həm də ölkəmizin Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva bu istiqamətdə çox böyük, misilsiz işlər görürlər və cəmiyyətimiz də bunu yüksək qiymətləndirir.

Hörmətli Musa müəllim faktlarla çox geniş, ətraflı məlumat verdi. Bəzi rəqəmləri də mən səsləndirmək istəyirəm, həqiqətən də, bir daha göstərmək istəyirik ki, bu gün dövlətimiz şəhid ailələrinə və qazilərə çox böyük

diqqət göstərir. Şəhid ailələrinə birdəfəlik 11 min manat sığorta ödənişi həyata keçirilib, şəhidlərimizin yas mərasiminə dövlət tərəfindən bu məqsəd üçün, təşkilati işlər üçün 3 min manat maliyyə yardımı ayrılır. Qeyd olunduğu kimi, hər bir şəhid ailəsinə əvvəl aylıq 500 manat ödəniş edilirdi, indi bu, 600 manata qaldırılıb. Şəhid övladları ali təhsil ocaqlarında ödənişli təhsildən azad olunublar. Eyni zamanda, şəhid ailələri və müharibə əlillərinin mənzil təminatı istiqamətində çox mühüm işlər görülüb. Belə ki, 2021–2025-ci illəri əhatə edən dövlət proqramı qəbul edilib ki, nəticədə indiyədək 14 min 800 mənzil şəhid ailələrinə və müharibə veteranlarına verilib. Bizim müharibə əlillərimiz 7500-dən artıq avtomobillə təmin edilib. Xüsusilə də bu istiqamətdə 3 il əvvəl yaradılmış "YAŞAT" Fondunun xidmətlərini qeyd etmək istəyərdim. Qeyd olunduğu kimi, bizim şəhid ailələri və qazilərimizin məişət problemlərinin, təhsil, səhiyyə məsələlərinin həllinə 84 milyon manatdan artıq vəsait ayrılıb ki, bu da yüksək bir göstəricidir. Həm də 200 nəfərdən çox qazimizin Türkiyədə müalicə alması üçün vəsaitlər ayrılmışdır.

Eyni zamanda, müharibə veteranları ilə də bağlı bir fikri söyləyim ki, elə bu yaxınlarda qanunvericiliyə edilmiş dəyişikliyə görə müharibə veteranları ödənişli təhsildən azad olunublar. Bu da çox mühüm məsələdir.

Çıxışımın sonunda şəhid ailələri, müharibə əlilləri ilə görüşlərimizdə çox tez-tez səslənən bir fikri də söyləmək istəyirəm. Onların bəziləri məndən xahiş etdilər ki, bu ali kürsüdən bu fikri səsləndirim. Bütün bu şəhid ailələrinə, qazilərə olan yüksək diqqət və qayğını etiraf etməklə yanaşı, vurğuladılar ki, onlar 14 min 800-ə qədər mənzillə təchiz olunublar, amma çox istəyərdilər ki, həmin

mənzillərin özəlləşdirilməsi məsələsi də öz həllini tapsın. Yəni mənzillərdən istifadə edirlər, bu, dövlətin çox böyük qayğısıdır. Ancaq indiyə qədər mənzillərin özəlləşdirilməsi məsələsində konkret addım atılmayıb. Məndən xahiş elədilər ki, bu məsələni də səsləndirim. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Əli Məsimli. Buyurun.

**Ə.Məsimli.** Çox sağ olun, hörmətli sədr. "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında" Qanunda edilən dəyişikliyi çox müsbət qiymətləndirirəm və bunu bir neçə cəhətdən əsaslandırmaq istəyərdim.

Birinci, bu dəyişikliyin konsepsiyası çox düzgündür. İkinci, şəhid ailələrinə edilən 20 güzəştin mühüm tərkib hissələrindən biridir. Üçüncü, burada olan dəyişikliklər şəhid ailələrinin vəziyyətinin yaxşılaşdırılması istiqamətində dövlətin yeritdiyi siyasətin hüquqi bazasının təkmilləşdirilməsi və möhkəmlənməsi istiqamətində çox zəruri addımdır. Dördüncü, çox ciddi xarakter daşıyan məsələ ondan ibarətdir ki, bu dəyişiklik, hörmətli sədr, praktikada şəhid ailələrinin mənzillə təminatı sahəsində yaranan maneələrin aradan qaldırılması fonunda aşkarlanıb və qanun formasına gətirilib salınıb. Deməli, bu sahədə asanlaşmanı həyata keçirəcək. Beşincisi isə, bu layihənin həyata keçirilməsi şəhid ailələrinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması dairəsinin genişləndirilməsinə və sürətləndirilməsinə də xidmət edəcək.

Eyni zamanda, şəhid ailələrinin mənzillə təmin olunmasındakı statistikadan çıxış eləyərək bir-iki məqamı da qeyd etmək istəyərdim. İndiyə qədər 15 mindən çox şəhid ailəsinə və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə mənzil və fərdi evlər verilib. Hesab edirəm ki, bu, çox yaxşı nəticədir və deyəcəyim rəqəm isə burada kifayət qədər optimizm yaradır ki, onun 6000-dən çoxu

postmüharibə dövrünün payına düşür. Hörmətli sədarət, doğrudan da, belədirsə, onda hesab edirəm ki, siyahıda olan, növbədə olan 4600 şəhid ailəsi ki mənzil növbəsindədir, 2025-ci ilin sonuna biz bu məsələni yekunlaşdıra bilərik. Rəqəmlər kifayət qədər optimizmə imkan verir ki, əgər postmüharibə dövründə 6000-dən artıq mənzil verilibsə, deməli, biz sürəti artırmaqla şəhid ailələrinin bütövlükdə mənzillə təmin edilməsini 2025-ci ilin sonuna qədər yekunlaşdıra bilərik.

İkinci məsələni, hörmətli sədr, regional yanaşmada proseslərin sürətləndirilməsinin vacibliyini söyləmək istəyərdim. Bunu Şəkinin timsalında qeyd eləmək istəyərdim ki, Birinci və İkinci Qarabağ müharibələrində Şəki rayonu üzrə ümumən 337 nəfər şəhid olub. Onlardan 55 nəfəri Vətən müharibəsində, 5 nəfəri ondan sonrakı dövrdə şəhid olub, 1 nəfər itkin düşüb. Şəki rayonu üzrə bu ilin əvvəlinə olan rəsmi statistikaya görə, 208 nəfər qazi var. Onların da 83 nəfəri Vətən müharibəsi qazisidir.

Hörmətli sədr, bu dediyim rəqəmlərin fonunda 2020-ci ildən bu yana Şəkidə yalnız bir şəhid ailəsi mənzillə təmin olunub. Halbuki həm şəhid ailələri, həm də müharibə ilə əlaqədar əlillik alan 105 nəfər növbəyə durub. 105 nəfərdən yalnız 1 nəfər. Ona görə mən aidiyyəti orqanlardan çox xahiş eləyərdim, şəhid ailələrinin mənzillə, fərdi evlərlə təminatında regionlara diqqəti artırsınlar. O cümlədən Şəkinin timsalında mən rəqəmləri qeyd elədim, çünki bizə olan müraciətləri toplayırıq.

Eyni zamanda, hörmətli sədr, biz onların qapısını açanda görürük ki, açıq demək lazımdır, həmin şəhid ailələrinin çoxu yoxsul təbəqəyə aid olan ailələrdir və onların mənzil şəraitinin yaxşılaşdırılmasının sürətləndirilməsinə böyük ehtiyac var. Bu nöqteyi-nəzərdən o qapını ikinci

dəfə də açmağa üzümüz olsun. Bu nöqteyi-nəzərdən yanaşanda biz bu məsələnin, dediyimiz kimi, yaxın vaxtlarda, yaxın illərdə həll olunacağına ümid edirik. Bayaq dediyim fikrə yenə də qayıdıram, o yaxın vaxtlar 2025-ci ilin sonu olsa, hesab edirəm ki, bu istiqamətdə bütün gözləntilər çox yüksək səviyyədə reallaşmış olar və bu da necə müharibə dövründə milli həmrəylik nəticə...

**Sədrlik edən.** Sağ olun. Sonuncu çıxış. Sahib Alıyev. Buyurun.

**S.Alıyev**. Təşəkkür edirəm. Hörmətli xanım sədr, dəyərli həmkarlar. "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında" Azərbaycan Respublikası Qanununa edilən bu dəyişikliyi mən də dəstəkləyirəm. Az öncə hörmətli Musa müəllim Quliyev bu haqda ətraflı məlumat verdi. Doğrudan da, dövlətimizin həm şəhid ailələrinə, həm də qazilərə yanaşmada yeritdiyi siyasət digər ölkələr üçün də örnək sayıla bilər.

Mən, sadəcə, bir faktı xatırlatmaq istəyirəm ki, bir neçə ay bundan öncə qardaş Türkiyədən olan şəhid ailələri Tərtərdə səfərdə idilər. Onlar biləndə ki Azərbaycanda şəhid ailələri mənzillə təmin edilirlər, sözün yaxşı anlamında təəccübləndilər. Biz həmişə şəhidinə, qazisinə sayğı baxımından məhz qardaş Türkiyəni örnək göstərmişik. Cəmiyyət olaraq bu gün də örnək göstərə bilərik. Amma hazırda Azərbaycan dövləti digərlərinə örnək göstərilə bilər. Bu baxımdan açıq deməliyik ki, hətta iqtisadi potensialı nəzərə alsaq belə, Azərbaycan bəlkə də barmaqla sayılacaq qədər dövlətlərin sırasındadır ki, öz şəhidinə, qazisinə, vətən uğrunda vuruşanına bu dərəcədə qayğı və diqqət göstərir. Bu da ilk növbədə, təbii ki, cənab Prezidentin və hörmətli Mehriban xanım Əliyevanın bu məsələdə göstərdikləri həssaslıqla bağlıdır.

Yeri gəlmişkən, onu da xatırlatmaq istəyirəm ki, Azərbaycan Prezidenti cənab İlham Əliyev 2025-ci ildə artıq bütün şəhid ailələrinin mənzil təminatına son qoyulacağını, yəni daha doğrusu, mənzilə olan ehtiyaclarına son qoyulacağını bildiribdir və mən əminəm ki, cənab Prezidentin bütün dedikləri kimi, bu da əməldə reallaşdırılacaq.

Sadəcə, bu düzəlişi mən ilk növbədə belə qiymətləndirirəm ki, burada söhbət məhz qanunvericiliyin təkmilləşdirilməsindən gedir. Çünki "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Qanunda o var ki, əgər əlilliyi olan şəxs dünyasını dəyişərsə, varisi rolunda çıxış edən şəxs mənzil növbəsində onu əvəzləyə bilir. Amma şəhid ailəsinin üzvləri ilə bağlı belə bir boşluq var idi ki, o boşluq aradan qaldırılır. Yeri gəlmişkən, Tərtərdə də mən bir neçə dəfə belə bir məsələ ilə üzləşmişəm və çox sevinirəm ki, o təkmilləşmədən sonra artıq digər şəhid ailələri də, mənzilə haqq edənlər də mənzilə qovuşacaqlar. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Hörmətli həmkarlar, daha çıxış etmək istəyən yoxdur. Mən qanun layihəsini səsə qoyuram. Xahiş edirəm, münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 14.41 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi qəbul edildi.

Hörmətli həmkarlar, bununla da bizim iclasımız başa

çatdı. Hamıya təşəkkür edirəm. Növbəti iclasımızın vaxtı 25 iyundur. Sağ olun.

# EDİLMƏMİŞ ÇIXIŞIN MƏTNİ

***21 iyun 2024-cü il***

**Ceyhun Məmmədov.** Məlum olduğu kimi, Yeni Azərbaycan Partiyası Milli Məclisin buraxılması təşəbbüsü ilə çıxış edib. İctimaiyyətə açıqlandığı kimi, partiyanın bu təşəbbüslə çıxış etməsinin bir sıra səbəbləri var. Onlardan biri də Azərbaycanda yeni dövrün tələbinə uyğun parlamentin formalaşdırılmasıdır.

Onu da qeyd edək ki, Milli Məclisə növbədənkənar seçkilər zamanı müstəqillik dövründə ilk dəfə olaraq Qarabağ və Zəngəzuru təmsil edən millət vəkilləri məhz bu ərazilərdə keçirilən seçkilər nəticəsində mandat alacaqlar.

Hesab edirəm, bu da çox önəmli məsələdir. Bizim hər birimizin ən böyük arzusu torpaqlarımızın azad olunması və insanlarımızın doğma yurda qayıtması idi. Artıq arzumu vuşmuşuq. Bu gün artıq işğaldan azad olunmuş ərazilə seçki məntəqəsi fəaliyyət göstərir. İnsanlarımız öz doğma yurdlarında səs verəcəklər. Təbliğat-təşviqat işləri elə işğaldan azad etdiyimiz ərazilərdə aparılacaq. Çox qürurverici hadisədir.

Seçkilərin işğaldan azad olunmuş ərazilərdə keçirilməsi həm də müstəqilliyimizin, ərazi bütövlüyümüzün göstəricisidir.

Məlum olduğu kimi, Azərbaycanda parlament seçkiləri bu ilin noyabrında keçirilməli idi. Amma həmin ay Azərbaycanda dünyanın ən mötəbər tədbiri sayılan COP29 keçiriləcək. Məhz bu məsələ nəzərə alınaraq parlament seçkilərinin 2 ay əvvələ keçirilməsi barədə qərar qəbul edildi.

Heç şübhəsiz ki, COP29 kimi mötəbər tədbirlə eyni vaxtda seçki kampaniyasının təşkili və səsvermənin keçirilməsi mümkün deyil. Seçkilərin vaxtının dəyişməsi həm COP29-u layiqli şəkildə keçirməyə imkan verəcək,

həm də bu mötəbər tədbir zamanı ölkə parlamentinin tam fəaliyyətdə olması təmin ediləcək.

# MÜNDƏRİCAT


21 iyun 2024-cü il.................................................................. 3

Edilməmiş çıxışın mətni ..................................................... 129

Altıncı çağırış

# AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİ İCLASLARININ

# PROTOKOLLARI VƏ STENOQRAMLARI

Növbədənkənar
on altıncı sessiya

75-ci cild

21 iyun 2024-cü il

Buraxılışına məsul
***H. Babayev***

Azərbaycan Respublikasi Milli Məclisinin mətbəəsi.
Bakı, Azad Mirzəyev küçəsi, 235.
Format 60x84 1/16. Çap vərəqi 8,5. Sifariş 81. Tiraj 150.